Bu bir xalq qəzetidi
ƏDALƏT

## Baş Prokurorluq Cəlilabadda keçirilən əməliyyatla bağlı məlumat yaydı



**Cəlilabad Rayon Mərkəzi Xəstəxanasında vətəndaşların sosial təminatı məsələləri ilə əlaqədar bir sıra öhdəliklərin yerinə yetirilməsi zamanı vəzifə saxtakarlıqlarına yol verilməsi barədə daxil olmuş müraciət əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsi tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri keçirilib.**

Baş Prokurorluqdan verilən məlumata görə, ilkin əməliyyat tədbirləri ilə qeyd edilən tibb müəssisəsinin Pediatriya şöbəsinin həkim pediatrı Şükürov Emil Zakir oğlunun əlillik dərəcələrinin təyin olunması və pensiya təyinatı ilə əlaqədar ayrı-ayrı vətəndaşlara məxsus xəstəlik tarixçələri və digər tibbi sənədlərin həqiqi məzmununu təhrif edərək saxtalaşdırmasına, həmin sənədləri Xəstəxananın Həkim Məsləhət Komisiyasına təqdim etməsinə, bu yolla da onlara qanunsuz əsaslarla sosial müavinətin təyin edilməsinə şərait yaratmasına əsaslı şübhələr müəyyən edilib. Qeyd edilən faktlar üzrə Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb. Hazırda iş üzrə əhəmiyyət kəsb edən digər halların aşkar edilməsi və qanunsuz hərəkətlərə yol vermiş şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində istintaq- əməliyyat tədbirləri davam etdirilir.

## İsveç Türkiyə ilə ilk ekstradisiya barədə razılaşıb



**İsveç Türkiyə ilə qardaş ölkədə axtarışda olan şəxsin ektradisiyası barədə ilk razılığa gəlib.**

Türkiyə tərəfindən dələduzluq səbəbndən qırmızı bülletenlə axtarılan 35 yaşlı şəxsin ölkəyə təhvil veriləcəyi bildirilib.

İsveçin ədliyyə və daxili işlər naziri Morqan Yohansson Ali Məhkəmənin qərarını qiymətləndirərkən bunun adi bir vəziyyət olduğuna diqqət çəkib.

Qeyd olunub ki, 2011-ci ildən İsveçdə yaşayan və bu müddət ərzində sığınacaq üçün müraciət edən şəxs dələduzluq ittihamı ilə Türkiyədə 14 il həbs cəzası alıb.

Sözügedən şəxsin Türkiyəyə ekstradisiya edilməmək üçün xristianlığı qəbul etdiyi vurğulanıb.

## Sosial şəbəkələrdən istifadə edən hərbçilər ordudan uzaqlaşdırılıb



**Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Qasımov Daşqın Etibar oğlu və Feyruzlu Toğrul Mirağa oğlu xidmət zamanı smartfon tipli telefon istifadə etməsi, eləcə də şəxsi hesablarında xidmətə aid foto-video görüntüləri paylaşması aşkar edilib.**

Müdafiə Nazirliyindən Adalet.az-a bildirilib ki, adları qeyd olunan hərbi qulluqçular Müdafiə Nazirliyi rəhbərliyinin müvafiq əmr və sərəncamlarına zidd hərəkətlərinə görə ordu sıralarından çıxarılıb.

”Bir daha bildiririk ki, ordu mənsublarına yaraşmayan hərəkətlərlə hərbi etika qaydalarını, eləcə də mobil telefonlardan istifadə zamanı nizamnamələrin tələblərini və müvafiq əmrləri kobud şəkildə pozan hərbi qulluqçular barəsində bundan sonra da ciddi tədbirlər görüləcəkdir”, - nazirlikdən əlavə olunub.

## ERMƏNİ DEPUTATLAR YENƏ QARABAĞA SÜLƏNMƏYƏ GƏLİB

**Təbii ki, Laçının və Zabuxun boşaldılması erməniləri bərk narahat edib, onlar da gəlib ara qarışdırmağa. Keçinin əcəli çatanda buynuzunu çobanın çomağına sürtər.**



İndi ermənilərin də əcəli çatanda başlarını Dəmir Yumruğun altına qoymaq istəyirlər. Buyursunlar.

*Aqil ABBAS*

## İRANI ZƏNGƏZUR DƏHLİZİ NİYƏ NARAHAT EDİR?

Bax:səh-3

## Ermənistanda Azərbaycan vətəndaşlığını almaq istəyən erməni fəala cinayət işi açıldı

**Ermənistanda sülhməramlı təşəbbüsləri ilə tanınan erməni fəal və bloqer İşxan Verdyana qarşı cinayət işi başladılıb. O, casusluqda ittiham olunur.**

Adalet.az xəbər verir ki, bu barədə Oxu.Az-a İşxan Verdyanın özü məlumat verib.

**Xatırladaq ki, bir neçə gün əvvəl o, Azərbaycan vətəndaşlığını almaq və Xankəndidə yaşamaq istəyi ilə bağlı bəyanat yaymışdı.**

*Aqil ABBAS*

## Elmar Vəliyev o stadionu bir aya təmir etdirərdi

**Gəncə Azərbaycanın ən böyük futbol məktəbidir. Və vaxtilə bu şəhərin komandası SSRİ birinciliyində, daha dəqiq desək, yüksək liqada iştirak edib, ”Neftçi”nin əsas bazası olub. Adlarını saymaq istəmirəm. O zamanlar ”Neftçi”nin ən məşhur futbolçuları Gəncə məktəbinin yetirmələri idi.**

**İndi uzun müddət ya zəlzələdən, ya vəlvələdən ”Kəpəz” komandası Azərbaycan çempionatından kənarda qalmışdı. Necə ki, ”Turan” Tovuz qalmışdı. Şükürlər olsun ki, bu il hər iki komandaya yaşıl işıq yandırıldı.**

Bax:səh-4

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 36 (5973) 13 avqust 2022-ci il | Qiyməti 30 qəpik

# İlham Əliyev: “İstənilən zaman əməliyyat apara bilərik”



**”Biz öz torpağımızda istənilən zaman istənilən əməliyyatı apara bilərik. Sadəcə olaraq, ”Qisas” əməliyyatının çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, bizim gücümüz də yerindədir, eyni zamanda, biz yeni müharibə istəmirik. Çünki İkinci Qarabağ müharibəsi gücümüzü göstərdi və biz istədiyimizə hərbi və ondan sonra hərbi-siyasi yollarla nail olduq. Digər arzularımıza da çatacağıq, zaman gələndə onlara da çatacağıq”.**

**Adalet.az xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev avqustun 12-də Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibəsində deyib.**

**Bizim gündəliyimizdə həm taktiki, həm də strateji addımlarımızın təsbit edilməsinin reallıq olduğunu diqqətə çatdıran dövlətimizin başçısı bildirib:**

**”Əminəm, Ermənistan da bilir ki, biz bilirik nəyi nə vaxt etmək lazımdır və nəyi deyiriksə, onu da edirik. Dəfələrlə Ermənistana xəbərdarlıq etmişdik ki, odla oynamasınlar, özlərini yaxşı aparsınlar, yeni reallıqları qəbul etsinlər və hərbi təxribatlara əl atmasınlar”.**

## Azad olunmuş ərazilərdə döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilir



**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrin xidməti-döyüş fəaliyyəti yüksək səviyyədə təşkil edilir.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. ”Çətin relyefli və sərt iqlim şəraitli ərazilərdə gecə və gündüz fasiləsiz xidmət aparan şəxsi heyətin döyüş qabiliyyətinin daha da artırılması, döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması istiqamətində zəruri tədbirlər görülür.

Dəqiqləşdirilmiş döyüş mövqelərində xidmət edən hərbi qulluqçularımız istənilən təxribatın qarşısını almağa hər an hazırdırlar”, - məlumatda qeyd edilib.

## AZƏRBAYCAN ÇEMPİONATINDA ƏN XOŞAGƏLƏN BİLİRSİNİZ NƏDİ?



**44-cü dəqiqədə azarkeşlərin bir ağızdan hayqırmağı: ”Şəhidlər ölməz, Vətən bölünməz!”. Və təkcə bu hayqırtını eşitmək üçün futbola getməyə və ya baxmağa dəyər.**

Sözgəlişi, ”Ferentsvaroş”la oyunda da, azsaylı olsa da, əllərində Azərbaycan bayrağı azarkeşlərimiz sonadək komandalarına dəstək oldular. Hətta o boyda stadionda o qədər ”Ferentsvaroş” azarkeşinin bağırtısı altında yenə səsləri gəlirdi: ”Qa-ra-bağ! Qa-ra-bağ!”

## MUŞTULUQ

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi əhaliyə sevindirici bir məlumat yayıb ki, internet bahalaşdı.**

**Sağ olsunlar. Xalqımızı tez-tez sevindirsinlər.**

## ”AĞASƏLİM, ÖZÜNÜZLƏ QAPIÇI APARMAMIŞDINIZ?”



**Bu məşhur ifadə Ulu Öndər Heydər Əliyevə aiddi. Deməli, Azərbaycanın milli komandası Fransaya Parisdə 10:0 hesabı ilə uduzmuşdu. Futbolçular qayıdandan sonra Ulu Öndər özünəməxsus təbəssümlə komandanın baş məşqçisi Ağasəlim Mircavadova demişdi:**

**- Ağasəlim, özünüzlə qapıçı aparmamışdınız?**

Dünən ”Neftçi” 120 dəqiqə meydanda dirəniş göstərdi. Ümumiyyətlə, futbolçular nə imkanları vardı qoydular ortaya. Amma təəssüf ki, uduzdular.

Mənim yadıma Ulu Öndərin Ağasəlimə dediyi sözlər düşdü. ”Neftçi” də Vyanaya baş məşqçisiz getmişdi. Komandada hər şey vardı, bircə sərkərdə, daha dəqiq desək, dirijor çatmırdı. Bu cür dirijorla ”Neftçi” çətin çempionluq uğrunda mübarizə apara.

## Eminquey Akifdən maraqlı paylaşım: ”Ay zalımın balası...”



***Deməli, Selcuk Bayraktar Aşura ilə bağlı paylaşım edib, hüznünü dilə gətirib. Bizimkilər də yazırlar ki, camaat kosmosa raket buraxır, kainatla əlləşir, göydə dron uçurdur, bunun paylaşımına bax. Ay zalımın balası zındıq, dronu uçurdanlardan biri də elə Selcukun özüdür də.***

## RAMİL ŞEYDAYEV BİZDƏN OYNASAYDI HESAB LAP BÖYÜK OLARDI



*Əslində ”Qarabağ” 10 nəfərlə oynayırdı. Ramil Şeydayev sanki macarlar tərəfdə idi, aldığı bütün topları onlara verirdi.*

*Amma adamın Allahı var, axırıncı qolu o yaratdı.*

*Təbii ki, bu bir zarafatdı.*

## İnternetin qiyməti bahalaşdı

Bax:səh-3

## ERMƏNİLƏRƏ VƏTƏNDAŞLIQ ONDA VERİLƏ BİLƏR Kİ,

**mən Şuşaya Ağdam-Xocalı-Xankəndi yolu ilə gedim. 37 kilometr yoldur. İnqilabdan qabaq Ağdam uşaqları mərc gələrdilər ki, kim Şuşaya daha tez çatar? Axırıncı rekord baza müdiri Ərşadın oğlu Ayaz Dadaşova məxsus idi (məşhur kinorejissor, ssenarist, professor rəhmətlik Aydın Dadaşovun qardaşı) - 18 dəqiqə.**

Bəli, bu yolla getmək istəyirəm Şuşaya. Düzdür, mən 18 dəqiqəyə getməsəm də 25 dəqiqəyə gedərəm. Necə ki ermənilər maneəsiz Ermənistandan Xankəndinə gələ bilirlər və Laçın dəhlizini alternativ yolla Azərbaycan çəkib, mən də maneəsiz Ağdamdan Şuşaya və Kəlbəcərə getmək istəyirəm.

## Azərbaycanda daha 520 nəfər koronavirusa yoluxdu

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 520 yeni yoluxma faktı qeydə alınıb, 518 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Adalet.aza verilən məlumata görə, analiz nümunələri müsbət çıxanlar arasında vəfat edən olmayıb.

*Zaur Əhməd*

## İlahi həqiqət aşiqi və Aşiqin ilahi həqiqəti...

Bax:səh-4

## MİDA Yasamaldakı güzəştli mənzilləri satışa çıxarır

**Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu "6" ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsinin 4 saylı binası üzrə 64, 5 saylı binası üzrə 53, 6 saylı binası üzrə 44, 9 saylı binası üzrə 44, 10 saylı binası üzrə 64, 11 saylı binası üzrə 54, 12 saylı binası üzrə 44, 14 saylı binası üzrə 21, 17 saylı binası üzrə 44, 18 saylı binası üzrə 44, 19 saylı binası üzrə 41, 20 saylı binası üzrə 8, 21 saylı binası üzrə 44, 22 saylı binası üzrə 39, 23 saylı binası üzrə 39, 24 saylı binası üzrə 24, 25 saylı binası üzrə 72 və 26 saylı binası üzrə 72 mənzilin, ümumilikdə 815 mənzilin satışı 15 sentyabr 2022-ci il tarixində saat 11:00-da başlayacaq və 22 sentyabr 2022-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.**

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq gözləmə qaydasında mənzillərin seçimi 19 sentyabr 2022-ci il tarixində saat 11:00-da başlayacaq və 22 sentyabr 2022-ci il tarixi saat 11:00-dək davam edəcəkdir. Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil" sistemi keçidi vasitəsilə tanış olmaq mümkündür.

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

## QURBANIN ATLARI ÇİNGİZ XANIN ATLARI KİMİ TAPDALAYIB KEÇİR



*Qarabağ atları dünyadakı başqa atlardan fərqlənir. Deyəcəksiniz ki, at atdı da, nə fərqi? Üç-dörd kəlmə ilə izah edim. Qarabağ atları ərəb atları kimi, ya ingilis atları kimi ucaboylu deyil, qıvraqdı. Qarabağa Orta Asiyadan gətirilib, həm Çingiz xanın dövründə, həm də Əmir Teymurun dövründə. Bu atlar xüsusi eyitilmiş atlardı. Əsl döyüş atlarıdı. Üstündəki igidlə bərabər düşmənlə çarpışmağı bacarır. Ön ayaqları ilə şahə qalxıb düşməni atdan salır, tapdaq-tapdaq edir, ağzı ilə parçalayır, ona çalınan qılıncdan sıyrılıb çıxa da bilir. Düzdür, ərəb atları qısa məsafədə bizimkiləri keçə bilir, amma uzaq məsafədə heç bir at bizimkilərə çata bilmir.*

*50-ci illərdə "Moskviç" təzə çıxanda Qarabağ atı onu keçə bilirdi, ona görə də hətta "Moskviç atlar" deyirdilər. Bir gözəlliyi də odur ki, yaxşı qaşovlayıb, gün işığına çıxaranda üstündə yüzlərlə abbası boyda qızıl pullar görünür, qızıl balıq kimi. Qarabağ atları barədə bu qədər bəsdi.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

### QAYINATASI BOB PEYSLİYƏ NİYƏ QIZI VERMƏK İSTƏMİRDİ?

”Liverpul”un bir vaxtlar məşhur futbolçusu Bob Peysli gedir gələcək qayınatasından qız istəməyə. Qayınatası soruşur:

**- Sənətin nədi?**

**- Futbolçu.**

**- Mən nə iş bacarırsan, onu soruşuram.**

**- Futbol oynayıram.**

Qayınatası üz-gözünü turşudur:

**- Əlindən ayrı nə gəlir?**

Bob Peysli deyir:

**- Yaxşı hörgü hörə bilirəm.**

Qayınatasının sifəti açılır, deyir:

**- Verdim getdi.**

# Prezident sərəncam imzaladı



**Prezident İlham Əliyev Azərpaşa Nemətovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Azərpaşa Zəfər oğlu Nemətov "Şərəf" ordeni ilə təltif edilsin.

# İlham Əliyev və Mehriban Əliyeva "Diri Baba" türbəsində aparılan yenidənqurma işləri ilə tanış olublar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 12-də Qobustan rayonunda "Diri Baba" türbəsində turizm infrastrukturunun yaradılması ilə bağlı aparılan yenidənqurma işləri ilə tanış olublar.**

Adalet.az xəbər verir ki, Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dövlətimizin başçısı və birinci xanıma türbədə görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Bakı-Şamaxı magistral yolunun 1,5 kilometrliyində yerləşən, 1402-ci ildə Şirvanşah hökmdarı I İbrahimin əmri ilə tikilən "Diri Baba" türbəsi dövlət mühafizəsinə götürülmüş ölkə əhəmiyyətli memarlıq abidəsidir. Sufi şeyxlərindən birinin şərəfinə tikilən türbənin bir hissəsi qaya içərisində yerləşdiyindən Qafqazın ən nadir abidələrindən hesab olunur. İkimərtəbəli türbə, yaxınlığında yerləşən süni şəkildə yaradılmış bir neçə mağara və kaha, həmçinin üzbəüz orta əsrlərə aid qəbiristanlıq və qədim türbə qalıqları birlikdə vahid bir kompleks əmələ gətirir.

Türbə Azərbaycanın şimal-qərb turizm dəhlizində birinci vacib dayanacaq kimi, il ərzində xeyli sayda turist qəbul edir. Ərazidə turizm imkanlarının yaradılması yerli kiçik sahibkarlığın və icma əsaslı turizm dəyər zəncirinin formalaşmasına, bölgənin digər turizm əhəmiyyətli abidələrinin turizm potensialından istifadəyə və regional turizm klastrının yaranmasına töhfə verəcək.

Məlumat verilib ki, abidənin tarixi-mədəni əhəmiyyəti ilə yanaşı, turizm potensialı qiymətləndirilərək, həmçinin antropogen və təbii amillərin təsiri ilə deqradasiyaya uğramasının qarşısını almaq məqsədilə Dövlət Turizm Agentliyi tərəfindən burada bir sıra infrastruktur və bərpa işləri aparılıb.

Ərazidə bulaq, qurbangah və söhbətgah tikilib, meydan döşəməsi yenilənib, türbəyə qalxan pillələnlər yenidən üzlənib, ərazi abadlaşdırılaraq oturacaqlar quraşdırılıb. Eyni zamanda, türbədə gecə işıqlandırılması təmin edilib, kommunikasiya xətləri qurulub və yenilənib.

Bununla bərabər, sel sularını axıdan kanal bərpa olunub, türbə kompleksinin ətrafı çəpərlənib, həmçinin 20 yerlik avtodayanacaq tikilib.

**Diqqətə çatdırılıb ki, XV əsrə aid və abidənin ayrılmaz tərkib hissəsi olan tarixi qəbiristanlığın ərazisində 40 qəbir tədqiq edilib və annotasiyası hazırlanıb. Qəbiristanlığın ərazisi abadlaşdırılıb, burada şeyxlərdən birinin türbəsi aşkar edilərək arxeoloji işlər aparılıb. Abidənin ətrafındakı 8 mağara tədqiq olunub, onlardan bir neçəsi turistlərin ziyarət edə bilməsi üçün təmizlənərək hazır vəziyyətə gətirilib. Bu abidənin daş kitabəsi tədqiq edilərək rəqəmsal surəti çıxarılıb.**

# İlham Əliyev və Mehriban Əliyeva İsmayıllıda hotelin açılışında iştirak ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 12-də İsmayıllı rayonunda "Basqal Resort & Spa" otelinin açılışında iştirak ediblər.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma oteldə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, dağlıq ərazidə yerləşən və səfalı meşələrlə əhatə olunan "Basqal Resort & Spa" oteli 179 otaq və lüks nömrələrdən, üçotaqlı 4 kottecdən və isidilən açıq hovuzlu 1 kottecdən ibarətdir.

Qonaqlar dünya mətbəxinin və milli mətbəximizin təamlarını təqdim edən müasir və möhtəşəm "SƏDƏF" restoranının yeməklərindən həzz alıb, dağlara və mənzərəli guşələrə açılan "MÜCRÜ LOBBY LOUNGE"da zərif və ənənəvi Azərbaycan çayından içərək dincələ bilərlər.

Həmçinin "VİTAMİN BAR"da sərin hovuz ətrafında əylənərək və qəlyanaltılardan dadaraq gününü mənalı keçirəcək, meşələrlə əhatələnmiş "PALID CAFE"nin xoş mühitli söhbətgahlarında ailə və dostlarla gözəl anlar yaşayacaq və ya "RAST"ın bənzərsiz atmosferində heyrətamiz mənzərələrdən və qeyri-adi mətbəxdən zövq alacaqlar.

Qeyd edilib ki, "KIDS CLUB" hər yaşda əyləncə axtaran uşaqlar üçün qapalı məkanda və açıq havada oyun meydançaları olan ideal yerdir.

Burada peşəkar animasiya komandası gün ərzində uşaqların asudə vaxtının səmərəli və əyləncəli keçirilməsini təmin edəcək. "LİMON CAFE"də balaca qonaqlara müxtəlif ləzzətli təamlar təklif olunacaq. "ECAZ" zalı bol çeşidli açıq bufetdə şirniyyatlar, yerli və dünya mətbəxinin isti yeməklərini təklif edən dəbdəbəli restoran, həmçinin toy, təntənəli günlərin keçirilməsi üçün 500-ə qədər qonağı rahatlıqla qəbul edə biləcək möhtəşəm məkandır. Otelin qonaqları "HAZE Club & Karaoke Lounge"da peşəkar barmenlərin hazırladığı məşhur kokteyllərdən və ləzzətli qəlyanaltılardan dada bilərlər.

Diqqətə çatdırılıb ki, "NİYAL SPA" geniş sahədə yerləşən 4 prosedur otağı, massaj otağı, 2 türk hamamı, 2 fin saunası, 2 buxar otağı, istirahət zonası və yay terrası ilə qapalı üzmə hovuzu təklif edir.

"Basqal Resort & Spa"nın 120 nəfərlik "Hələbi" və "Heyrati" konfrans zallarında biznes konfrans, seminar və tədbir keçirmək üçün hər cür şərait yaradılıb. Həmçinin açıq havada tədbirlərin keçirilməsi üçün burada geniş imkanlar mövcuddur.

Bildirilib ki, otelə gələn qonaqlar İsmayıllı rayonunun ərazisində çoxsaylı gəzinti, yürüş və velosiped cığırlarından yararlana bilərlər.

"Basqal Resort & Spa" təbiətin qoynunda istirahət və əyləncə dolu yeni məkandır.

# "İranın mövqeyi məntiqsizdir"

## *Sabiq nazir Zəngəzur "düyünü"ndən danışdı*

**"Rusiya üçün Zəngəzur dəhlizi və ona nəzarət həm iqtisadi, həm də siyasi baxımdan çox vacibdir".**

Bunu Zəngəzur dəhlizi ətrafında gedən proseslərdən danışan sabiq xarici işlər naziri Tofiq Zülfüqarov Yenicag.az-a açıqlamasında deyib. Tofiq Zülfüqarov bildirib ki, Zəngəzur dəhlizi ilə bağlı İranın mövqeyi məntiqsizdir:

"Açıq şəkildə siyasi proseslərin baş verdiyini görürük. Hesab edirəm ki, İranın mövqeyinin də dəyişməsini gözləməliyik. Çünki onların mövqeyi məntiqli görünmür. Zəngəzur dəhlizi açılan zaman tranzit çoxalacaqsa, bu o deməkdir ki, o yüklər təkcə Türkiyə, İran üçün yox, həm də Fars körfəzi ölkələrinə, Hindistana, Pakistana daşınacaq. Ona görə də İranın mövqeyi məntiqsizdir. Daha doğrusu, o mövqeyə təsir edən hansısa siyasi qruplar var. Biz bilirik ki, o yollarla narkotik kontrabandası baş verir. Hesab edirəm ki, İranın bu mövqeyini hansısa kriminal fəaliyyətlə məşğul olan qruplar formalaşdırır. Təbii ki, bu, uzun müddət davam edə bilməz.



O ki qaldı Qərbin mövqeyinə, başa düşməliyik ki, bu, ümumi Qərb-Rusiya qarşıdurmasıdır. Burada vəziyyətin kəskin olması ehtimallardan biridir. Hamı başa düşür ki, Zəngəzur, daha dəqiq desək, cənub istiqaməti Rusiya üçün daha strateji önəm kəsb edir. Çünki istər-istəməz sanksiyalar nəticəsində Qərbin Rusiya üçün bağlanması onu məcbur edəcək ki, öz iqtisadi fəaliyyətini cənuba və şərqə doğru qursun. Burada Zəngəzur mövzusu gündəmdə olacaq.

Burada digər prosesi də görməliyik. Ermənistanın gələcəkdə Rusiyanın təsirindən çıxıb Qərbə getməsi güclənən xətlə inkişaf edir. Çünki Rusiyanın mövcud bazası Ermənistanı hər zaman dəstəkləməyə imkan vermir.

Ermənilər də, təbii ki, Qərbyönümlü bəyanatlarını, siyasətlərini gücləndirirlər. Ancaq bu vəziyyətdə ortaya əsas sual ortaya çıxır: Əgər Ermənistan Qərbə tərəf getsə, Zəngəzurla gedəcək, yoxsa yox? Hesab edirəm ki, bu, çox aktual məsələdir".

# "Cross": Azərbaycanın "Qisas" əməliyyatı Ermənistanın təxribatına cavab oldu

**Bolqarıstanın tanınmış xəbər agentliyi "Cross" Ermənistanın Azərbaycana qarşı hərbi təxribatından bəhs edib.**

Adalet.az xəbər verir ki, agentlik avqustun əvvəlində Azərbaycanın Qarabağ bölgəsində Ermənistanla yenidən qısa, lakin qanlı toqquşmalar baş verdiyini vurğulayıb:

"Azərbaycanın Müdafiə Nazirliyindən verilən məlumata görə, ordu ölkənin Laçın rayonu ərazisində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi yüksəkliyi qanunsuz erməni birləşmələrinin ələ keçirmək cəhdinin qarşısını alıb. Ermənistan silahlı qüvvələrinin törətdiyi hərbi təxribat nəticəsində Azərbaycanın bir hərbçisi həlak olub. Azərbaycan silahlı qüvvələri tərəfindən həyata keçirilən "Qisas" əməliyyatı Ermənistanın qanunsuz silahlı birləşmələrinin ölkə ərazisində artan hərbi təxribatlarına və atəşkəs rejimini pozmasına cavab oldu".



"Azərbaycan Xarici İşlər Nazirliyi bəyan edib ki, respublika ərazisində baş verən insidentə görə bütün məsuliyyət hələ də öz qanunsuz silahlı birləşmələrini qonşu ölkənin ərazilərindən çıxarmayan Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

Azərbaycan qəti şəkildə bildirib ki, Ermənistanın bu təxribatları Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən imzalanmış üçtərəfli sazişlərin, habelə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə əldə edilmiş razılaşmaların kobud şəkildə pozulmasıdır", - agentlik qeyd edib.

"Cross" vurğulayıb ki, həmin gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toyvo Klaarla telefonla bu hadisələri müzakirə edib:

"Xarici işlər naziri Azərbaycan Silahlı Qüvvələrinin erməni təxribatlarına cavab olaraq həyata keçirdiyi əməliyyatın ölkənin suveren ərazilərində baş verdiyini vurğulayaraq əlavə edib ki, regionda gərginliyin əsas səbəbi Ermənistan tərəfinin geri çəkilmək istəməməsidir".

Azərbaycan və Ermənistan Aİ-nin qonşu dövlətləridir və "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində onunla tərəfdaşlıq münasibətləri saxlayırlar.

"Azərbaycan Aİ-nin enerji sahəsində strateji tərəfdaşı kimi Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir.

Diversifikasiya məqsədilə Azərbaycandan Avropaya, eləcə də Bolqarıstana ilk kommersiya qazı tədarükü 2020-ci il dekabrın 31-də həyata keçirilib", - agentlik sonda əlavə edib.

# Azərbaycan ordusu - bu ərazidə yeganə leqal və qanuni ordudur!

**Beynəlxalq məsələlər üzrə siyasi şərhçi Əziz Əlibəyli bildirib ki, Xankəndində yaşayan ermənilərin sayı sənədlərdə qeyd edilən qədər deyil, çox azdır.**

Həmçinin erməni tərəfi son hadisələrdən narahat olaraq rus sülməramlılarının Azərbaycan güclərinə qarşı silah işlətməsini istəyir. "Ümidləri ruslardan üzülən ermənilər Xankəndində Azərbaycan ordusunu gözləyirlər. Proseslərin siyasi və hərbi detallarının içərisində çətinliklə görünən, əslində isə həlledici hesab edilən bir sıra nüanslar var.

- Birinci hadisə. Xankəndi meydanında toplaşan əhali məsələsi - maraqlıdır ki, onların həm sayları azdır, həm də əksəriyyəti gəncdir.

Bəs proseslərin keçmişini öz taleyində on illər boyunca yaşamış yaşlılar hardadır?

Və ya sayları Vikipediada



120 min göstərilən əhali hara "buxarlanıb?"

- İkinci hadisə. Onlar tələb edir ki, Azərbaycan gücləri dayansın və rus sülhməramlılarına atəş açmaq səlahiyyəti verilsin.

Sırf bu mənzərəni ortaya çıxaran hadisənin hüquqi əsasını 10 noyabr razılaşması yaradıb.

- Üçüncü hadisə. Axı biz bilən, özlərinin də etirafına görə Qarabağda azadlıq ordusu vardı.

Nə üçün digər ölkələrdən - Ermənistan və Rusiyadan imdad diləyirlər? Yoxsa...

Hə, bu "yoxsa" məhz odur: "Qisas" əməliyyatı ilə özlərinə olan qalan inam da məhv oldu. Ən əsası bu inamı yaradan və körükləyən rus əsgəri faktoru darmadağın edildi.

- Dördüncü hadisə. Rusiya onlar üçün ən həlledici amil idi, cəmi iki il əvvəl müharibədə, 10 noyabr gecəsində xaçlarından öpdükləri Rusiyaya iki ildə 180 dərəcə dəyişərək nifrət etdiklərini də görmüş olduq.

- Beşinci hadisə. Araik Haritinyan bu illər ərzində Xankəndində rus pasportlarının paylanması üçün sözün bütün mənalarında savaş apardı, buna görə hətta öz sahibini - Paşinyani Moskvadakı anti - Azərbaycan qüvvələrə dəyişdi. Dünən Xankəndi meydanında rusların təhqir edilməsi məhz Rusiya vətəndaşı olmaq istəklərinin əbədi məhv edilməsinin təsdiqi idi.

- Altıncı hadisə. Xankəndi həmişə hərbi şəhər olub. Orda həmişə hərbi bazalar, qərargahlar, ordugahlar olub. İndi də elə olacaq, çünki bölgədəki erməni terrorçuları xaric, mülki əhali yeni bir ordunu gözləməkdədir.

Azərbaycan ordusu - bu ərazidə yeganə leqal və qanuni ordu, sahibi öz ştabına qayıtmaqdadır."

**Emin**

# *__Mövlud Çavuşoğlu:__* "Hamımız bütün Cənubi Qafqazın sabitliyi üçün addımlar atmalıyıq"



**"Biz Azərbaycanla koordinasiyadayıq. Onu da öyrənirik ki, bəzən Ermənistan bu məsələdə özünü narahat hiss edir. Ermənistanla normallaşma üzrə dialoqumuz ikitərəfli olsa da, hamımız bütün Cənubi Qafqazın sabitliyi üçün addımlar atmalıyıq. Ermənistan bu məsələdə bir az da cəsarətli olmalıdır, diqqəti yayındırmaq taktikasından əl çəkməlidir".**

Adalet.az xəbər verir ki, bu sözləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu avqustun 8-də Ankarada işə başlayan "Müdrik və mərhəmətli türk diplomatiyası" mövzusunda keçirilən XIII Səfirlər Konfransının bağlanışı ilə bağlı mətbuat konfransında deyib.

# *"Azərbaycan vətəndaşlığı üçün yalvaran ermənilərin sayı artacaq"*

**Son günlər erməni milliyətinə məxsus şəxslər Azərbaycan prezidenti İlham Əliyevə müraciət edərək Azərbaycan vətəndaşı olmaq istədiklərini dilə gətiriblər.**



Bununla bağlı adalet.az-a danışan siyasi şərhçi Tural İsmailov bildirib ki, ermənilər sosial-iqtisadi vəziyyətin yaratdığı problemlər,siyasi xuntaların idarəçiliyindən bezərək bu addımı atırlar."Ermənistan vətəndaşları siyasi idarəetmədən daha çox reallığın fərqindədirlər. Onlar bilirlər ki, problem Ermənistandakı siyasi xuntalardır. Hazırda sosial-iqtisadi durumun gərginliyi və vətəndaşların ölkə gələcəyi haqqında ümidsizliyi var. Eyni zamanda nüfuzsuz və heç kimə lazım olmayan bir ölkənin vətəndaşları olmaq istəmirlər. Bu baxımdan biz yaxın zamanlarda Azərbaycan vətəndaşlığı üçün yalvaran ermənilərin sayında artımlar müşahidə edəcəyik.

**Emin Piri**

# Rövşən Rzayev Gəncədə vətəndaşları qəbul etdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev avqustun 12-də Gəncədə vətəndaşları qəbul edib.**



Adalet.az xəbər verir ki, qəbulda Gəncə, Samux və Kəlbəcər rayonlarından olan vətəndaşlar iştirak ediblər ki, onların da əksəriyyəti həmin ərazilərdə müvəqqəti məskunlaşmış məcburi köçkünlərdir.

Müraciətlərdə dövlət mənzil fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin verilməsi, müvəqqəti yaşayış sahələrinin təmiri, vahid aylıq müavinətin təyin edilməsi, məşğulluq və Böyük Qayıdışa hazırlıq məsələləri üstünlük təşkil edib. Prezident İlham Əliyevin məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirdiyi, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın bu kateqoriyadan olan insanlara xüsusi diqqət və qayğı göstərdiyi qəbulda bir daha xatırladılıb. Dövlətimizin başçısının işğaldan azad edilmiş ərazilərin bərpası, məcburi köçkünlərin doğma yurd-yuvasına qayıdışının başlanması üçün verdiyi tapşırıqların icra vəziyyəti barədə vətəndaşlara məlumat verilib. Bildirilib ki, məcburi köçkünlər üçün yaşayış sahələri yalnız işğaldan azad edilmiş ərazilərdə inşa olunur və qarşıdakı illərdə bu sahədə işlər daha sürətləndiriləcəkdir. Mərhələli qaydada aparılacaq qayıdış zamanı, ilk növbədə, müvəqqəti məskunlaşma yerlərində ən ağır vəziyyətdə yaşayanlar yeni mənzillərə köçürüləcəklər.

Zəngilan rayonunda "ağıllı kənd" konseptində salınan Ağalı kəndinə qayıdışın ilk mərhələsinin başa çatdığı, bu mərhələdə kənddə 41 məcburi köçkün ailəsinin yerləşdirildiyi qeyd edilib. Bildirilib ki, Ağalıya əhalinin köçürülməsi davam etdiriləcək.

Qəbul zamanı vətəndaşların qaldırdıqları məsələlərin bir qismi yerində həll olunub. Dövlət Komitəsinin sədri müraciətlərdə qaldırılan digər məsələlərin qısa müddətdə araşdırılacağını və müvafiq tədbirlərin görüləcəyini bildirib.

***__Aqil ABBAS__***

# *QURBANIN ATLARI ÇİNGİZ XANIN ATLARI KİMİ TAPDALAYIB KEÇİR*

***Qarabağ atları dünyadakı başqa atlardan fərqlənir. Deyəcəksiniz ki, at atdı da, nə fərqi? Üç-dörd kəlmə ilə izah edim. Qarabağ atları ərəb atları kimi, ya ingilis atları kimi ucaboylu deyil, qıvraqdı. Qarabağa Orta Asiyadan gətirilib, həm Çingiz xanın dövründə, həm də Əmir Teymurun dövründə. Bu atlar xüsusi eyitilmiş atlardı. Əsl döyüş atlarıdı. Üstündəki igidlə bərabər düşmənlə çarpışmağı bacarır. Ön ayaqları ilə şahə qalxıb düşməni atdan salır, tapdaq-tapdaq edir, ağzı ilə parçalayır, ona çalınan qılıncdan sıyrılıb çıxa da bilir. Düzdür, ərəb atları qısa məsafədə bizimkiləri keçə bilir, amma uzaq məsafədə heç bir at bizimkilərə çata bilmir.***



***50-ci illərdə "Moskviç" təzə çıxanda Qarabağ atı onu keçə bilirdi, ona görə də hətta "Moskviç atlar" deyirdilər. Bir gözəlliyi də odur ki, yaxşı qaşovlayıb, gün işığına çıxaranda üstündə yüzlərlə abbası boyda qızıl pullar görünür, qızıl balıq kimi. Qarabağ atları barədə bu qədər bəsdi.***

***Qurban Qurbanovun köhlən atları Budapeştdə "Ferentsvaroş" komandası ilə oyunda Çingiz xanın, Əmir Teymurun, Nadir şahın döyüş atları kimi çarpışdılar və rəqibi tapdaq-tapdaq elədilər. Ermənilərə işləyən bütün Rusiya mətbuatı, futbolçuları, məşqçiləri,***



***mütəxəssisləri "Qarabağ"a yuxarıdan-aşağı baxırdılar, üstünlüyü Çerçesova verirdilər. Amma köhlən atlar necə tapdaq-tapdaq elədilərsə oyunun axırında altdan-yuxarı baxmağa məcbur oldular.***

***90 dəqiqə nallarından qığılcım qopurdu köhlən atların. Yorulmadılar, təngənəfəs olmadılar.***

***Qurban Qurbanov Hikmət Mirzəyev idi, oyunçuları da xüsusi təyinatlılar. Onlar da Azərbaycan bayrağını Avropanın paytaxtlarına sancırlar.***

***Mən oyundan bir həftə qabaq demişdim ki, "Ferentsvaroş"u tapdayıb keçəcəyik. Necə ki "Lex"i, "Zürix"i tapdalayıb keçdik. Allah qoysa "Viktoriya"nı da tapdayıb keçəcəyik və yenə Çempionlar Liqasına vəsiqə qazanacağıq.***

***"Qarabağ" təkcə 10 milyonluq bizləri yox, Yer üzündəki bütün türkləri sevindirdi. Bu həm də "Qarabağ"ın Konyada keçirilən İslam ölkələri Olimpiadasına bir ərməğanı oldu. Ordakı idmançılarımızı da ruhlandırdı. İnşallah, "Neftçi" də bu oyuna baxıb özünə inanar. Qısası, Qurbanın sağ əli "Neftçi"nin adı dilimə yatmayan baş məşqçisinin də başına.***

***Qurban hər oyunu şəhidlərimizə və qazilərimizə ithaf edir. Allah onu və komandasını şəhidlərin ruhu qarşısında və qazilərimizin yanında heç vaxt utandırmasın.***

***Qələbə üçün qurban demişdim, bu bazar Ağcabədidə, kəndimizdə Seyid Heydər ağanın pirində kəsdirib İmam ehsanı verəcəm. Hamının qurbanları qəbul olsun.***

***Tanrı Qurbanı və "Qarabağ"ın köhlən atlarını qorusun!***

*__Səxavət Məmməd__*

# *Ağıllı düşünənədək dəli vurub çayı keçir*



**Qarabağ ətrafında baş verənlər də təxminən belədir. Uzun illərdir Azərbaycan tərəfi düşünərək, hesablayaraq bir şeylər etməyə çalışırdı. Ancaq erməni tərəfi bir addımla, dəliliklə Azərbaycanın gündəmini müəyyən edirdi. Müharibədən sonra da vəziyyət belə idi. Azərbaycan tərəfi öhdəliklərini yerinə yetirir, lakin qarşı tərəf hər fürsətdə məsələni uzatmağa çalışırdı. Nə yalan deyim, bunu bacarırdılar da.**

**Son olaraq Azərbaycan tərəfinin xüsusi əməliyyatı, "dəliliyi" hər şeyi alt-üst etdi. Buradakı "dəlilik" düşüncəsiz, ağılsız davranmaq anlamına gəlmir. Təbii ki, hər şey hesablanmışdı, amma bunu etmək üçün dəli cəsarəti lazım idi.**

**Xüsusi əməliyyatdan sonra açıq şəkildə görünən odur ki, belə də lazım imiş. Erməni cəmiyyətinin gündəmini Azərbaycan müəyyən edir. İllərlə Azərbaycanda "erməniyə işləmək", "torpaqları satmaq" gündəmdə idi. İndi bunun eynisini Ermənistanda görürük. Dünənə qədər qəhrəman dedikləri insanları satqınçılıq və Azərbaycana işləməklə suçlayırlar. Azərbaycanı həmişə hücum diplomatiyasına üstünlük verməməkdə ittiham edirdik. Lakin rəsmi Bakı son zamanlar hücum diplomatiyasına keçib. Düzdür, bunu informasiya müharibəsində görə bilmirik. Əslində. xüsusi əməliyyat qarşı tərəfdə elə ab-hava yaradıb ki, informasiya müharibəsindəki zəiflik arxa plana keçib. Ancaq bu o demək deyil ki, Azərbaycan yerində saymalıdır. Əməliyyatın yaratdığı effekt bir müddət sonra səngiyəcək.**

**Laçının boşaldılması ilə bağlı heç bir problem yaşanmayacaq. Erməni tərəfi, xüsusilə jurnalistlər Zabux kəndində yaşayan ermənilərin oradan köçürülməsi ilə bağlı dil-boğaza qoymurlar. İddialar var ki, həmin ailələrin bir hissəsi Qarabağda yerləşdirilə bilər. Azərbaycan tərəfinin bunu qəbul etməsi yolverilməzdir. Düzdür, ermənilər özləri də bu torpaqlara yaddır, ancaq onların 200 ilə yaxındır məskunlaşdığını nəzərə alsaq, onlara belə bir haqqın tanınması gerçəkçi olar. Məsələ ondadır ki, Laçın rayonunda, xüsusilə Zabux kəndində məskunlaşanlar bu torpaqlara daha yad ünsürlərdir. Çünki onların məskunlaşmasının tarixi maksimum 10-15 il ola, ya olmaya. Niyə yad deyirəm, çünki onlar milliyətcə erməni olsalar da, Suriyadan və Livandan köçürülüblər. Yəni onların hansısa haqq istəməsi nə hüquqi, nə də mənəvi cəhətdən düzgündür. Bundan sonra əsas baş sındırılacaq məsələ Zəngəzur dəhlizi ilə bağlıdır.Bundan sonrakı dönəm üçün Azərbaycan tərəfi Qarabağda məskunlaşmaya üstünlük verməlidir. Hətta əməliyyatlar keçirilən zaman əgər işlər dayandırılmırsa, hətta işğaldan azad edilmiş ərazilərə səfərlər əməliyyatlarla paralel davam edirsə, qoyun-quzu yaylaqda otlayıb, arılar çiçək-çiçək bal toplamağa davam edirsə, bu o deməkdir ki, təhlükəsizliklə bağlı Azərbaycan ən azı özünə arxayındır. Ona görə də əhalinin məskunlaşması ilə bağlı işlərə başlamaq lazımdır və vacibatdır.**



Vaqif TANRIVERDİYEV

## "BİZİM DOST İTİRƏN VAXTIMIZ DEYİL"

Allah Araz Zeynalova rəhmət eləsin. Bu deyim ona yaraşmır, heç yaraşmır. İnanılası deyil... Amma...

Bir dəfə Gəncəyə gəlmişdi, ili yadımda deyil... Azad, Aqşin və bir nəfərdə vardı, bağışlasın, adını unutmuşam, Hacıkənddə çox maraqlı 2 gün keçirdik. Qonaq evində qaldılar. Sərgüzəştlərimiz sözə gəlməz. Çox xoşuna gəlmişdi, gedəndə demişdi ki, mütləq yenə gələcək, amma .... Gələn bu acı xəbər oldu...

Mənim ailə foto-albomum çox zəngindir, dostların fotoları ilə doludur, amma Arazla şəklimiz yoxdur. Təəssüf... Hacıkənddə başımız o qədər qarışdı ki, foto yadımıza düşmədi. Yalnız ayrılanda... onda da artıq gec idi, yola düşürdülər. Dedi ki, qalsın gələn görüşə...O da belə...



Biz Arazla "Panorama" qəzetinə rəhbərlik etdiyi dövrdə tanış olduq. İlk tanışlıqdan dərhal sonra - Bizə yaz, dedi, birdən birə bu ərkyana "tapşırığa" düzü təəccübləndim. Bunu o da hiss elədi, atamın söhbətlərindən səni tanıyıram dedi.

Bunun da qəribə tarixcəsi var. Atası, rəhmətlik Hidayət Zeynalov respublikada adlı-sanlı jurnalistlərdən idi. Bir dəfə Gəncəyə yaradıcılıq ezamiyyətinə gəlmişdi. Mən də şəhər qəzetində yenicə fəaliyyətə başlamışdım. O vaxtkı "Kommunist" qəzetinin bölgə müxbiri Əhməd İsayev (Allah ona da rəhmət eləsin) bizi tanış etdi, Hidayət müəllimə zarafatla - Tapşırıqları ver, gənc olmasına baxma, istidiyini yazacaq-dedi. O vaxt da Gəncədə Həsən Həsənovun rəhərlik etdiyi illər idi. Şəhər əsl yüksəliş dövrünü yaşayırdı. Bu işlər haqqında bir neçə yazı yazmağı tövsiyə etdi. Yazdım. Oxuyandan sonra üzünü Əhməd müəllimə tutub, belə gənclər rayonda işləyir - dedi.

Bunları ilk tanışlıq zamanı Araz danışmışdı...Məhz o tanışlıqdan sonra Arazın tövsiyəsi ilə Gəncənin mədəni həyatından silsilə yazılar yazdım. Yerinə düşdüyü üçün üzürlü hesab edin, bir fakt da deyim. 1980-ci ildə həmin yazılara görə Jurnalistlər İttifaqının "Qızıl Qələm" mükafatına layiq görüldüm. Bax, bu da məhz Arazın etimadının nəticəsi idi...

Xatirələr, təəssüratlar yaşayır, amma Araz yoxdur...Buna inanmaq mümkünmü...

Arazın ölüm xəbəri (bu ifadəni işlətmək də çox ağırdır) doğmaları qədər dostlarını da üzdü. Bəndənin gücü nəyə çatar, yalnız təsəlliyə, Allah yerdə qalanlarına səbr versin...

Amma bir təsəlli var, dostları yaşadıqca Araz anılacaq. Sonra övladlar, nəvələr bu xatirələri yaşadacaqlar. Budur, ömürdən sonrakı ömür. Tələbə yoldaşımız, rəhmətlik Şamxal Rüstəmdən (Allah Şamxala da rəhmət eləsin, Arazla da tanış idi, vaxtsız köçdü dünyadan) bir bənd yadımda qalıb:

*Öləndə də, öldü deməyin, mənə,*
*Ölüm özü də ikinci bir həyatdır.*

O ikinci həyat da hər insana qismət olmur, ancaq Araz kimi insanlar, Araz kimi vətəndaşlar, Araz kimi atalar, Araz kimi dostlar, Araz kimi jurnalistlər o həyatı "yaşamaq" haqqı qazanırlar...

**Gəncə**

## Azyaşlı xilas edildi



**Bakı-Quba avtomobil yolunda nəqliyyat vasitəsində olan azyaşlının vəziyyəti birdən-birə ağırlaşıb, istiliyi qalxıb və dili qatlanıb. Uşağın doğmaları avtomobili saxlayaraq həmin istiqamətdə fəaliyyət göstərən yol patrul xidməti maşınına yaxınlaşıblar. Onlar avtomobildə xidmət aparan Yol Patrul Xidməti Alayının birinci tağımının əməkdaşları polis baş serjantları Şükür İskəndərova və Kamran Nəzərliyə kömək üçün müraciət ediblər.**

Hər iki polis əməkdaşı onları və uşağı öz xidməti maşınına əyləşdirərək Bakı şəhəri istiqamətində hərəkət ediblər və qısa zaman kəsiyində dili qatlanmış uşağı Qarayev adına Uşaq Xəstəxanasına çatdırırlar. Həkimlərin təcili müdaxiləsi və köməkliyi nəticəsində azyaşlı uşaq ölümün pəncəsindən xilas olur və həyata qaytarılır.

Uşağın valideynləri çətin vəziyyətdə və mürəkkəb anda onlara kömək edən və xəstəxanaya çatdıran Yol Patrul Xidməti Alayının birinci tağımının əməkdaşları Şükür İskəndərova və Kamran Nəzərliyə öz minnətdarlıqlarını bildirirlər. Deyirlər ki, nə yaxşı ki, yolda onlara rast gəldik. Əgər bu polis əməkdaşları bizə kömək etməsəydi, biz övladımızı itirmişdik.

**Emil FAİQOĞLU**

# Cavid Qurbanov Prezidentə məktub yazdı

**Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Cavid Qurbanov Azərbaycan Prezidenti İlham Əliyevə məktubla müraciət edib.**

Adalet.az xəbər verir ki, President.az saytının məktublar bölümündə yerləşdirilən məktubda C.Qurbanov Prezidentə Buzdux zirvəsinin ordumuzun tərəfindən nəzarətə götürülməsinə görə minnətdarlığını çatdırıb.

Məktubda deyilir:

...Azərbaycan Respublikasının hər bir vətəndaşı, bütün dünya azərbaycanlıları Sizin nəyi və nə zaman etməli olduğunuza inanır və güvənir. Bunun nəticəsidir ki, avqustun 3-də Sizin rəhbərliyinizlə qalib Ordumuzun həyata keçirdiyi "Qisas" əməliyyatı böyük uğurla nəticələndi. Öz imzasına və sözünə əməl etməyən Ermənistan hakimiyyəti və onun quldur dəstələri cəzalandırıldı. Buzdux zirvəsinin azad olunması ilə nəticələnən bu əməliyyat biz kəlbəcərlilərin daha böyük sevincinə, mənim ulu babalarımın da yaşadığı Ağdaban və



Çayqovuşan kəndlərinin və ətraf ərazilərin ordumuzun nəzarətinə keçməsinə səbəb oldu. Buzdux zirvəsinin hansı əhəmiyyətə malik olduğunu çox adam bilməsə də mən çox yaxşı bilirəm. Siz tarixi torpaqlarımızın hər qarışı uğrunda mübarizə aparırsınız, insanlarımızı sevindirir, ailələrə xoşbəxtlik gətirirsiniz. Bu gün ölkəmizin müxtəlif yaşayış məntəqələrində məskunlaşan Ağdaban əhalisi böyük sevinc və fərəh içindədir. Əminlik və qətiyyətlə demək olar ki, Sizin komandanlığınızla şanlı qələbə qazanan qüdrətli Azərbaycan indi ən güclü, ən şərəfli və ən məğrur dövrünü yaşamaqdadır.

Möhtərəm cənab Prezident, bu sevinci və iftixarı bizə bəxş etdiyiniz, Ağdabanlı şair Qurbanın, Dədə Şəmşirin, Ağdaban faciəsində həyatını itirən günahsız qurbanların, o torpaqlara qovuşmaq həsrəti ilə dünyadan köçən bütün insanlarımızın ruhların şad etdiyiniz üçün Sizə Kəlbəcər ictimaiyyəti adından, 84 yaşlı ağbirçək anamın, bu nəslin torpaqlarımızın azadlığı uğrunda qurban verdiyi on üç şəhidin, o cümlədən yaxın qohumum olan iki Milli Qəhrəmanın ailələri və Aşıq Şəmşir nəsili adından dərin hörmət, ehtiram, sevgi və məhəbbətimi bildirirəm.

Siz hər bir azərbaycanlının dayağı, iftixarı və qürur mənbəyisiniz. Azərbaycanımızı işıqlı gələcəyə, qələbələrə, bəxtiyarlı günlərə apardığınız bu şərəfli yolda Uca Allah Sizi, Mehriban xanım Əliyevanı və Azərbaycanımızı qorusun. Sizin rəhbərliyiniz altında işləmək, Vətənimizə, xalqımıza xidmət etmək böyük şərəfdir. Böyük Allah Sizi, dövlətimizi, xalqımızı, ailənizi qorusun. Uca Tanrı daim Sizə yar olsun.

**Dərin hörmət və ehtiramla,**
**Cavid Qurbanov,**
**Ağdaban sakini, "Aşıq Şəmşir Mədəniyyət Ocağı" İctimai Birliyinin sədri**

**Turkustan.az**

# İnternetin qiymətı bahalaşdı

### Fazil MUSTAFA: "Vətəndaşlar ayrı-ayrılıqda məhkəməyə müraciət etməlidir"

### Osman GÜNDÜZ: "Məhdud seçim imkanı verən qiymət siyasəti doğru yanaşma deyil"

**Vətəndaşlara satılan internetin qiyməti bahalaşdı. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məxsus "Aztelekom" və "Bakı Telefon Rabitəsi" MMC-lər GPON texnologiyasının tətbiqi istiqamətində telekommunikasiya xidmətlərinin tarifində dəyişiklik edib. "Bakı Telefon Rabitəsi" MMC ictimaiyyətlə əlaqələr üzrə baş mütəxəssisi Alidə Mustafayeva bu haqda bildirib ki, istehlakçıların yüksək internet sürətinə artan tələbatı və texnoloji tələblər nəzərə alınaraq 4 mbit/saniyə və 10 mbit/s tarifləri ləğv edilərək abunəçilərin daha sürətli internetə keçidi təmin edilib. Alidə Mustafayeva bildirib ki, əvvəl 4 mbit/s internet tarifinin aylıq abunə haqqı 10 manat təşkil edirdisə, dəyişiklikdən sonra 15 mbit/s internet tarifinin aylıq ödənişi 15 manat olub. Digər 10 mbit/s internet tarifinin də aylıq abunə haqqı 12,5 manat təşkil edirdisə, sözügedən tarif dəyişikliyi ilə 30 mbit/s internet paketinin aylıq abunə haqqı 18 manat olub. Abunəçilərə əvvəlcədən xəbərdarlıq edilmədən internetin qiymətinin artırılması məsələsində gəldikdə isə, qurum rəsmisi qeyd edib ki,"Bakı Telefon Rabitəsi" MMC tariflərdə edilən bu dəyişikliklə bağlı bir ay əvvəldən qurumun internet saytında, sosial şəbəkə hesablarında bu barədə məlumatlar paylaşılıb.**

Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müşaviri Rəşad Bayramov da internet qiymətlərinin artması ilə bağlı məsələyə də aydınlıq gətirib: "Dövlət telekommunikasiya operatorları və özəl şirkətlər arasında dövlət-özəl tərəfdaşlıq modeli (PPP) ilə gücləndirilmiş birgə səylər nəticəsində 2024-cü ilin sonuna qədər minimum 25 Mbit/s internet sürəti ilə bütün ölkəni əhatə edən fiber-optik kabel şəbəkəsi qurmağı hədəfləyirik. Hazırda internetlə bağlı aparılan tarif siyasəti əhaliyə aşağı qiymətə daha yüksək sürətli internetdən istifadə imkanı verir. "Baktelecom" və "Aztelekom" şəbəkələri üzrə GPON texnologiyasının tətbiqi istiqamətində telekommunikasiya xidmətlərində edilmiş son tarif dəyişikliyi məhz buna xidmət edir".

R. Bayramovun sözlərinə görə, bu dəyişiklik nəticəsində xidmət istifadəçilərinin internet sürəti 3-4 qat artırılır və onlar köhnə tariflərlə müqayisədə hər mbit/s sürət üçün 2 dəfə az ödəniş edirlər: "Qeyd etməliyik ki, əhalinin böyük hissəsinin müasir internet texnologiyalarından istifadə etməsi nəticəsində bu istiqamətdə rəqəmsal bilik, bacarıq və vərdişlərə yiyələnməsi ölkəmizdə həyata keçirilən rəqəmsallaşma, rəqəmsal transformasiya layihələri üçün əsas dəstəkləyici faktorlardan olacaq".

**Məsələ ilə bağlı millət vəkili Fazil Mustafa** açıqlamasında bunun yanlış olduğunu bildirib. Deputat qeyd edib ki, bu qurumlar fürsət düşən kimi vətəndaşlardan pul qoparmağa çalışır: "Onların vətəndaşa xidmət anlayışı yoxdur. Heç bir normal xidmət göstərmədən insanların pulunu mənimsəyirlər. Vətəndaş onlar üçün pul qazanmaq mənbəyi olduğuna görə, xəbərdarlıq etməyi də özlərinə çox görürlər. Hələ az qaldırıblar, ürəkləri istəsə, 3-5 dəfə də qiyməti qaldıra bilərlər. Çünki onları vətəndaş düşündürmür".

İnternetin qiymətinin artırılmasının soyğunçuluqdan başqa bir şey olmadığını vurğulayan millət vəkili deyib ki, bu həm də cinayətdir: "Başqa adı yoxdur. "Aztelekom" və yaxud başqa provayder ilə mülki müqavilə bağlanılır. 10 manat ödəyirəm ki, mənə bu ölçüdə internet verəsiniz deyə müqavilədə qeyd olunur. Bu müqavilə xəbərdarlıq



edilmədən pozulub. Ona görə də vətəndaşlar ayrı-ayrılıqda məhkəməyə müraciət etməlidir. Kütləvi şəkildə məhkəməyə müraciət etsələr, heç olmasa, bu soyğunçuluğun qabağını almaq olar".

**İKT mütəxəssisi, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz** isə hesab edir ki, adıçəkilən dövlət operatorlarının şəbəkəni modernləşdirməsi, fiber infrastrukturun yenilənməsi, infrastruktura yeni investisiyalar yatırması və nəticə olaraq yüksək sürətlər təqdim etməsi çox təqdirəlayiqdir: "Amma birdən-birə hamı üçün yüksək sürətlər təklif etmək və buna uyğun da əvvəlki aşağı sürətə uyğun qiymətdən xeyli yüksək ödəniş tələb etmək, düşünürəm ki, doğru yanaşma deyil.

Heç bir investisiya yatırımı, böyük sürətlərə ehtiyacı olmayan məhdud bir təbəqəni yüksək ödənişlə yüksək də sürət əldə etməyə məcbur edə bilməz. Bu, doğru olmazdı. Xüsusən də bazarda hökmran mövqe tutan, dövlətə məxsus operatorlar üçün bu, yolverilməzdir. Düşünürəm ki, indiki şəraitdə, internetə əlçatanlığın insanların əsas fundamental hüquqlarından biri hesab olunduğu bir vaxtda, yüksək sürətə ehtiyacı olmayanlar üçün, əvvəlki ödəniş səviyyəsində, təxminən 10-12 manat civarında bəlli bir internet sürəti təklif oluna bilərdi. Əminəm ki, xeyli sayda GPON istifadəçiləri daha böyük sürət seçiminə üstünlük verəcəklər. Bir daha vurğulamaq istərdim ki, adı çəkilən dövlət operatorlarının son zamanlar infrastrukturun yenilənməsi istiqamətində həyata keçirdikləri müsbət addımlara rəğmən məhdud seçim imkanı verən qiymət siyasəti doğru yanaşma deyil".

O. Gündüzün sözlərinə görə, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi hələlik bu məsələyə müdaxilə etməyib. Qiyməti operatorlar qaldırıb: "Bunun özü də doğru bir yanaşma deyil. Nazirlik hazırda həm də tənzimləyicidir.

Təəssüf ki, hələlik bu funksiyanı yerinə yetirməli olan, Prezident fərmanı əsasında yaradılan İKT Dövlət Agentliyi də formalaşmayıb. Nizamnaməsi hələ də yoxdur, rəhbərliyi də həmçinin, tabeliyindəki dövlət operatorlarının qiymət siyasətinə müdaxilə etməlidir.

Qısa bir araşdırma ilə görmək olar ki, dövlət operatorlarının təklif etdiyi yüksək sürət üçün olan qiymətlər hətta bəzi özəl provayderdən də bahadır. Hansı ki normalda bu tərsinə olmalıdır. Bu məsələni, nazirlik və operatorlarla birlikdə İctimai Şurada da müzakirə etmək faydalı olardı".

**Nicat NOVRUZOĞLU**

Aqil ABBAS

## İRANI ZƏNGƏZUR DƏHLİZİ NİYƏ NARAHAT EDİR?

*Deməli, belə. Rusiya Zəngəzur dəhlizi keçəcək ərazini, yəni İran-Ermənistan sərhədini nəzarətə götürüb. Bu da İranı bərk narahat edir. Əslində bunun çox səbəbi var, amma birikisini deyə bilərik.*

*İran əvvəllər həm Azərbaycandan, həm işğal altında olan ərazilərdən, həm də Ermənistandan tranzit kimi istifadə edib Avropada narkotika bazarını ələ keçirmişdi. Müzəffər ordumuz Qarabağı işğaldan azad edəndən sonra bu yol İranın əlindən çıxdı.*

*Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizlik Xidmətinin və Gömrük Komitəsinin gərgin əməyi sayəsində İran artıq Azərbaycandan da tranzit yol kimi istifadə edə bilmir. Düzdür, ara-sıra buna cəhd edir, amma hüquq-mühafizə orqanlarının sayıqlığı nəticəsində qarşısı alınır.*

*Bildiyiniz kimi, İranda narkotika alverçilərini edam edirlər. Amma necə olur ki, İranın o başından Azərbaycan sərhədinə narkotik daşıyanlar, Azərbaycana narkotik keçirənlər həbs olunduqdan sonra ekstradisiya edilirlər. Amma İranda onlar cəzalarının ardını çəkmirlər. Keçəndən üç-dörd ay sonra yenidən Azərbaycana narkotik keçirməyə cəhd göstərirlər və yenidən həbs olunurlar, geri qaytarılırlar və yenidən İranda azad olunurlar. Çünki həmin adamlar dövlət sifarişini yerinə yetirirlər, onları da İranın xüsusi xidmət orqanları mühafizə edir.*

*İndi məsələ qəlizləşib, Azərbaycan tərəfi narkoticarətlə məşğul olan İran vətəndaşlarını daha İrana ekstradisiya etmir.*

*İranın Avropaya yeganə yolu Ermənistandan keçir ki, o yol da Rusiya hərbçiləri tərəfindən nəzarətə götürülüb. Beləliklə, bütün yollar qapanıb.*

*Əli narkotikdən üzülən İran son illər daha güclü bir narkotikə əl atıb - bu da din tüccarlarıdır. Din tüccarları vasitəsilə Azərbaycanda sabitliyi pozmağa, xalqı parçalamağa çalışır. Bununla təkcə müvafiq icra hakimiyyətləri yox, ictimaiyyət də mübarizə aparmalıdır.*

*İranın nə şiəliyə, nə də müsəlmanlığa dəxli yoxdur. Müsəlman dövləti, özü də şiə məscidlərimizi, dini abidələrimizi dağıdan, məscidlərdə donuz saxlayan, əhalisinin 80 faizindən çoxu şiə olan dövlətin torpaqlarını işğal altında saxlayan Ermənistana havadarlıq etməz.*

*Çox təəssüf ki, bunu cahillər başa düşmür və sosial şəbəkələri ələ keçirib İranı təbliğ edir, bu ölkənin əleyhinə bircə cümlə yazan ziyalıları da topa tutur, təhqir edir, söyür və sair və ilaxır.*

*Zəngəzur dəhlizinin rusların nəzarəti altına keçməsində İranı narahat edən səbəblərdən biri də daha Ermənistana istədiyi qədər silah-sursat göndərə bilməyəcəyi qorxusudur. Düzdür, bu məsələdə Rusiyaya çox da etibar etmək olmaz, amma hər halda*

*Bundan başqa, Ermənistanın bütün dövlət sərhədlərinə ruslar nəzarət edir, yəni erməni sərhədçi görə bilməzsən.*

*Hələ Sabir bir əsrdən də xeyli əvvəl yazırdı:*

*Ağladıqca kişi qeyrətsiz olur,*
*Necə ki ağladı İran oldu*

Zaur Əliyev, dosent



## Bakıda "süd quyusu" piri

### Azərbaycanın sirrləri

*İçəri şəhərdə daha qədimdən müxtəlif dərinlikləri olan "quyu"lar vardır ki, onlar barəsində maraqlı və həqiqətə uyğun fikirlər söylənilir.*

*Bu quyulardan su quyuları, zirzəmilər və ən maraqlısı odur ki, müəyyən ayinlər üçün istifadə olunurdu. Şirvanşahlar sarayı adlanan ərazidə çoxlu sayda quyular mövcuddur. Qaynaqlara inansaq 30-a (bəzi mənbələrdə 51) yaxın quyu olub, onlardan 12-in birinci mərtəbədə saxlayıb. Bir versiyaya görə bu quyular olan ərazinin adı fars dilində "Şirri məzaq" adlanır ki, tərcümədə "süd piri" deməkdir.*

*Deyilənə görə buranın belə adlanması Şirvanın "süd ölkəsi" kimi bəzi fars və ərəb tarixçilərinin əlyazmalarında qeyd edilməsidir.*

*Quyuların bu cürə çox olması isə burda sufi ordeninin bir qolu olan Xəlvətiyyə təriqətinin üzvlərinin 40 gün ərzində meditasiya ilə məşğul olan zaman buranın sularından istifadə etməsi üçündür. Xüsusilə burada bir quyu olub ki, Bakı və İçərişəhərdə xüsusi ezzotirik mənanı ifadə edib. Həmin quyu "süd quyusu" adlanır. Quyunun yerləşdiyi tikilinin tavanı tağlıdır, girişi yuxarıdandır. "Süd-guyusu" üzərindəki otağın hündürlüyü 1 m aşağıdır və burdakı memarlıq üslubu onu göstərir ki, bura açıq-aydın İslamdan əvvəlki dövrlərə gedib çıxır. Tədqiqatçı Ç. Leviatov bu barədə məlumat verir: "Yeri gəlmişkən qeyd edək ki, inqlaba qədər ki, dövrdə müsəlman əhalisi arasında belə inam var idi ki, təsvir olunan günbəzşəkilli otaq və ya divanxananın həyətində yerləşən quru quyulardan biri südünü itirmiş zahı qadınlara süd qaytarmağa qadir olan 261 möcüzəli qüvvəyə malikdir. Bu quyu "süd quyusu" adlanır"*

*Bu pir saraydan qədimdi. Saray müqəddəs sayılan bu ərazidə qayanın üstündə tikilib. Amma quyuya toxunmayıblar. Ruslar şəhəri alandan sonra Şirvanşahlar sarayında əsgərləri,aşağı mərtəbədə isə atları saxlayırdılar. Onlar buranı dağıtmaq istəsələr də sonradan fikirlərini dəyişiblər.*

## Avtobuslar bir-biri ilə niyə ötüşür?!



**Çox qəribədir ki, bəzi avtobuslar dayanacaqlara tez çatmaq, sərnişinləri götürmək üçün bir-biri ilə tez-tez ötüşürlər. Belə hadisələrdən biri avqustun 10-da saat 14:00 radələrində Babək prospektində 50 nömrəli avtobusla 64 nömrəli marşrutda işləyən nəqliyyat vasitəsində baş verdi. Belə ki, Babək prospektindəki körpünün üstündə 64 nömrəli avtobus 50 nömrəli avtobusu ötmək istədi. Bu vaxtı 50 nömrəli avtobusun sürücüsü sürəti artırdı və avtobusun salonunda olan sərnişinlərə həyəcanlı anlar yaşatdı.**

Bir neçə saniyə hər iki avtobus körpünün üstündə bərabər istiqamətdə hərəkət edərək qorxulu anlar yaratdı. Sərnişinlərin etirazından sonra 50 nömrəli avtobusun sürücüsü sürəti azaltdı və 64 nömrəli nəqliyyat vasitəsini idarə edən sürücü isə onu ötüb keçdi. Təbii ki, bax, belə anlarda bir çox hallarda ağır qəzalar baş verir. Ona görə də hər iki marşrutun sahibi sürücülərə tələbkarlığı artırmalı, sürət həddini aşan və sərnişinlərə qorxulu anlar yaşadan sürücüləri işdən çıxarmalıdılar.

**Emil FAİQOĞLU**

# Doğulan artıb ölüm azalıb...

**Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Məlumata əsasən bu ilin yanvar-iyun ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 61234 doğulan körpə qeydə alınıb.**

Qeyd olunub ki, əhalinin hər 1000 nəfərinə bu göstərici 11,3-dən 12,3-ə qədər artıb. Doğulanlar arasında oğlanların xüsusi çəkisi 52,7 faiz, qızların xüsusi çəkisi isə 47,3 faiz təşkil edib. Körpələr arasında əkiz doğulanların sayı 1726, üçəm doğulanların sayı isə 87 olub.

Komitə bu ilin 6 ay ayında Azərbaycanda qeydə alınan ölüm hallarının sayını da açıqlayıb. Belə ki, bu ilin birinci yarısında ölkədə 32589 ölüm halı qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi azalaraq 7,5-dən 6,5-ə düşüb.

Ölkə əhalisinin sayı ilin əvvəlindən 29418 nəfər və ya 0,3 faiz artaraq 2022-ci il iyul ayının 1-i vəziyyətinə 10185784 nəfərə çatıb. Əhalinin ümumi sayının 52,9 faizini şəhər, 47,1 faizini kənd sakinləri təşkil edib. Əhalinin tərkibində kişi və qadınların xüsusi çəkiləri isə dəyişməz qalıb.

2022-ci ilin yanvar-iyun ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 28785 nikah və 7531 boşanma halları qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 4,7-dən 5,8-ə qədər artıb, boşanmaların sayı isə azalaraq 1,6-dan 1,5-ə düşüb.

Cari ilin birinci yarısında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 1215 nəfər gələn, Azərbaycandan isə 442 nəfər gedən qeydə alınıb.

Qeyd olunub ki, miqrasiya saldosu ölkə üzrə müsbət 773 nəfər təşkil edib.

6 ayı əhatə edən statistik məlumata görə, Azərbaycan əhalisinin nominal gəlirləri 38 797,2 milyon manat təşkil edib.

Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 20 % çoxdur. Son 1 ildə ölkədə adambaşına düşən nominal gəlir isə 19,5 % artaraq 3 859 manata çatıb.

Cari ilin yanvar-iyun ayları ərzində qadınlar tərəfindən, onların iştirakı ilə və onlara qarşı törədilmiş cinayətlərin sayı müvafiq olaraq 12,0 faiz, 2,0 dəfə



v ə

17,6 faiz artıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə yetkinlik yaşına çatmayanlar tərəfindən, onların iştirakı ilə və onlara qarşı törədilən cinayətlərin sayı da müvafiq olaraq 17,3 faiz, 2,2 dəfə və 17,1 faiz artımla müşahidə olunub.

Cari ilin birinci yarısında qeydə alınan cinayət hadisələrinin 5768-i və ya 31,7 faizi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olub, onların da 59,9 faizi satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma, 35,4 faizi eyni hərəkətləri satış məqsədilə etmə, habelə bu maddələri istehsal etmə, göndərmə, yaxud qanunsuz olaraq satma, 3,6 faizi qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə, 1,0 faizi güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi, 0,1 faizi isə digər cinayətlərdir.

Cari ilin yanvar-iyun ayları ərzində qeydə alınmış cinayət hadisələrinin 745-i və ya 4,1 faizi məişət zorakılığı ilə bağlı olub ki, bu da əvvəlki ilin müvafiq dövrünün göstəricisindən 7,2 faiz azdır. Məişət zorakılığı ilə bağlı cinayətlərin 105-i əvvəllər də cinayət törədən şəxslər tərəfindən, 22-si isə sərxoş vəziyyətdə törədilib ki, bu da əvvəlki ilin göstəricisindən müvafiq olaraq 11,0 faiz və 42,1 faiz azdır.

Məişət zorakılığı nəticəsində baş verən cinayətlərin 89,9 faizi qəsdən sağlamlığa az ağır və ya yüngül zərər vurma, 5,8 faizi qəsdən adam öldürmə və ya adam öldürməyə cəhd, 2,6 faizi qəsdən sağlamlığa ağır zərər vurma, 1,7 faizi isə digər cinayətlərə aiddir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeydə alınan cinayətlər nəticəsində zərərçəkən 12731 nəfərin 764-ü və ya 6,0 faizi məişət zorakılığı ilə bağlı cinayətlər nəticəsində zərərçəkənlərdir. Həmin cinayətlər nəticəsində zərərçəkənlərin sayı əvvəlki ilin göstəricisinə nisbətən 6,9 faiz azalıb ki, onların da 81,8 faizini qadınlar (2,2 faiz azalma), 0,5 faizini (dəyişməz olaraq qalıb) isə yetkinlik yaşına çatmayanlar təşkil edib.

**Əvvəlki illə müqayisədə bu cinayətlər nəticəsində ölənlərin sayı 32,3 faiz artaraq 41 nəfər (onlardan 32-si qadınlar) olub.**

**Nicat NOVRUZOĞLU**



Zaur Əhməd

## İlahi həqiqət aşiqi və Aşiqin ilahi həqiqəti...

*Mənə görə nümunələr həyat yolunu müəyyənləşdirmək üçün ən vacib məqamlardır. İnsanı hansısa yola dəvət etmək, yaxud hansısa yoldan yayındırmaq üçün mütləq ki, nümunə lazımdır.*

*Mən vətəni, milləti sevməyi atamdan öyrənmişəm. Atam heç vaxt mənə vətən, millət dərsi keçməyib, heç bu barədə söhbətimiz də olmayıb. Amma məqam gələndə etdiyi seçimlə, getdiyi şəhadət yolu ilə nümunə oldu mənə, bəlkə də çoxlarına...*

*Kərbəla, Həzrəti Hüseynin şəhadəti də bir nümunədir. Haqq savaşına çıxanlar üçün əsl nümunə elə budur. Vətənini, millətini, dövlətini, dinini, ailəsini, uşağını sevmək, o uğurda canından keçməyi gözə almaq haqq, ədalət, daha dəqiqi - İLAHİ ƏDALƏT uğrunda cihada qalxmaq kimidir. Bəlkə də dünyadakı bütün haqsızlıqlara qarşı savaşanlar İLAHİ ƏDALƏT uğruna aparılan savaşdan ilhamlanıblar, ondan bəhrələniblər.*

*Həzrəti Hüseyn İLAHİ ƏDALƏT uğrunda savaşıb. Niyyətini, hədəfini də əvvəlcədən bəyan edib: "Mən bu yola pis niyyətlə, fitn?-f?sad tör?tm?k, zülm etmək və özünə xoş güzəran qurmaq üçün yox, babamın ümmətini islah etmək, insanları yaxşılıqlara çağırmaq və pisliklərdən çəkindirmək üçün çıxmışam!", "Mən hakimiyyət üçün hərəkata başlamamışam. Mənim istəyim yalnız İlahi həqiqətləri ölməyə qoymamaqdır", "Ey camaat, hər kim Allahın qanunlarını dəyişdirən, halalı haram, haramı halal elan edən, beytül-malı ürəyi istədiyi kimi xərcləyən, ilahi hüdudları aşan və müsəlmanların qanını axıdan bir hökuməti görüb sakit otursa, Allah onları zalımların məskəni olan cəhənnəmə aparar! Bu vəziyyəti görüb susan şəxs zalımlardan biri sayılır!".*

*Həzrəti Hüseyn niyə bu qədər sevilir? Kərbəla müsibəti niyə unudulmur? 14 əsr əvvəl baş verən hadisə insanı niyə bu qədər ağrıdır, ağladır? Heç nə səbəbsiz olmur. Səbəb İLAHİ olanda o sevgi, o sayğı daha da artır. Bəzən ilahi sevgiləri anlatmaq olmur, sözün gücü çatmır. O həqiqətin gücü qarşısında söz acizdir.*

*Bir şəxs ki, İlahi Həqiqətlər üçün savaşa qalxsın kim onu sevməz?*

*Bir şəxs ki, sonunda ölüm olduğunu bilə-bilə hədəfindən dönməyə kim ona sayğı duymaz?*

*Bir şəxs ki, Allahın qoyduğu qanunların əyildiyini görə, susmaya, zalıma beyət etməyi ölümdən betər biabırçılıq hesab edə, kim onun yoluna qurban olmaz?*

*Bir şəxs ki, özünün, altı aylıq körpəsinin, qardaşının, sirdaşının, ən yaxın dostlarının şəhid olacağını bilə-bilə geri çəkilməyə, kim bu cəsarətə, bu hidayətə, bu əzəmətə baş əyməz?*

*Bir şəxs ki, Allahın ən sevdiyi qulunun ən sevdiyi ola kim ona beyət eləməz, uğruna ölməz?*

*"Bizimlə öz qanını bizim yolumuzda axıdıb şəhidlik zirvəzinə ucalmaq istəyənlər gələ bilər, başqa məqsədi olanlar qayıtsınlar. Canından keçməyənlər bizimlə gəlməsin. Bizim qafiləmiz canından keçənlərin qafiləsidir" - deyən birini kim unudar...*

*"Biz təslim olan deyilik - son damla qanımıza qədər vuruşacağıq!" - deyən birinin qeyrətinə kimin nə sözü olar...*

*Bunlar Həzrəti Hüseyni sevməyi, onun yoluna beyət etməyi məqbul edən səbəblərdən bir neçəsidir.*

*Mən, Kərbəla müsibətini illərlə xalqımızın düçar olduğu müsibətlə eyniləşdirirəm. Bütün zalımlar bütün məzlumlar eynidir. Mənə görə, bizim vətən savaşı Hz Hüseynin haqq savaşının davamıdır. Çünki Vətən savaşı İlhahi Həqiqət savaşından bir parşadır. Hüseynin Kərbəla savaşı bütün dünyadakı məzlumların zülmə məruz qalması və şəhadətə qədər gedən bir savaş nümunəsidir. Bəzən insan özündən asılı olmayaraq haqsızlığa, zülmə baş qaldırır, fani dünyanı unudaraq, şəhadətə yürüyür. Məncə, bu, ilahi bir hikmətdir, insanların şüuru altında yatan nümunələrin işə düşməsidir. Bizim genetik şüurumuzda haqsızlığa, ədalətsizliyə, zülmə baş qaldırma nümunələri olmasaydı, işğalla razılaşardıq, dözərdik. Nə yaxşı ki, Kərbəla nümunəsi var, nə yaxşı ki, bizim qanımızda, canımızda, düşüncəmizdə yatan nümunə bizi haqq savaşında qalib elədi.*

*Bir məsələyə də toxnmaq istərdim. Aşurada niyə ağlayırlar? Bəzən bunu kinayə ilə də vurğulayırlar.*

*Bu gün Qarabağda şəhid olan tanımadığımız birinin azyaşlı qızını görəndə, onun fəryadını eşidəndə kövrəlmirikmi, ağlamırıqmı, ürəyimiz dağlanmırmı? Təbii ki, ürəyində Allah və insan sevgisi olan hər kəs ağlayır. O zaman Hüseynə, qucağında al qana boyanan altı aylıq oğluna, gözünün önündə atasının başı kəsilən qızına niyə ağlamayaq? Bu müsibət dünyanın harasında olsa, insan oğlu insan ağlamalıdır. Kərbəla hadisəsinin bütün detallarını nəzərə alsaq, hələ belə bir müsibət nümunəsi yoxdur. Kərbəlanın 14 əsr unudulmamasının səbəblərindən biri də budur. Hərə bir cür qəbul edir. Mənə görə, Hz Hüseyn savaşını, Kərbəla müsibətini İlahi özü unutdurmur, qiyamətə qədər də unutdurmayacaq...*

*Allah bizi haqqı danmayanlardan, zülmə boyun əyməyənlərdən, gərəkdiyində şəhadətə ucalmaq cəsarəti görstərə bilənlərdən qərar versin.*

---



Emin Piri

## Beyrəyi xəyanətə görə öldürən xalq

***Xalqın genetik yaddaşı, duyğusu təhtəlşüur özünü üzə çıxarır və kütləni, onun istəklərini, arzularını idarə edir.***

***Əlbəttə, xalq dastanlarındaölən də olacaq, aralarında xalqın qəhrəmanları da. Amma hərdən bu "ölüm mükafatlar"ının şifrələrini də çözmək lazımdı.***

***Xalqın genetikyaddaşı, istəkləri, arzuları, cəzaları, mükafatları onun dastanlarında, xalqdeyimlərində yatır. Xalq öz qəhrəmanını, xilaskarını belə cəzalandırır, öldürürvə ya mükafatlandırır. Bir dastan xalqın bədii gücüylə yaratdığıdırsa, xalqın sevdiyi qəhrəmanını da əsərdə yaşada da bilər, yəni öldürməz. Elə isə "Kitabi Dədə Qorqud"da Beyrək də yaşaya bilərdi. Xalq öz sevdiyini əsərdə niyə öldürsün ki?***

***(Istinad mənbəyi kimi Kamal Abdullanın "Gizli Dədə-Qorqud" kitabına nəzər yetirə bilərsiniz)***

***Qafqaz və türktoplumunda bir qadının hisləriylə oynamaq, öz xoşbəxtliyini başqasının aldadılmış hisləri hesabına qurmaq ən bağışlanmaz günahlardandır. Necə ki, Beyrək də əsirlikdə olarkən öz azadlığı naminə başqa bir qadının hisləriylə oynadı,sevgi sözü, onu gəlib aparacağı sözünü verdi. Amma hər şey onun azadlığı, öz Banuçiçəyinə qovuşmaq üçün idi.***

***Xalq da bütün qəhrəmanlığına,xalq sevgisinə bamxayaraq onun bu günahını bağışlamadı və dastanda öldürdü.Baxmayaraq ki, onun ölüm səbəbi bu deyildi. Istənilən halda hansı yolla olursa,olsun bu cəza həyata keçməliydi və keçdi.***

***Filmlə dastanın özünü qarışdıranlarsa yaxşı olar ki, bu barədə mülahizə yürütməsinlər.***

***Sözümün canı nədir?Sən istedadlı yazıçı, alim də ola bilərsən. Gözəl əsərlər də yarada bilərsən.Sağlığında sevilə, məşhur da ola bilərsən. Amma vicdansızlıq etsən, şəxsi mənafeyin,hislərin naminə qoyduğun mövqelərə, yanaşmalara görə xalq mütləq hardasa səni"öldürəcək". Xalqın genetik yaddaşı səni və ruhunu heç zaman rahat buraxmayacaq. Ən azından belə öldürmələrlə qisasını mütləq alacaq.***

---

# Səsindən öpəsən...

## Yaxud darıxdığım adamlar

**...Dünyada nə yaxşı ki, heç kimə bənzəməyən, içi, qəlbi, ürəyi sevgi ilə dolu olan insanlar var. Və o insanlarla görüşəndə heç vaxt darıxmırsan, əksinə, onları on gün, bir ay, lap iki ay görməyəndə darıxırsan. Tək onların özü üçün yox, həm də təmiz qəlbləri, isti ürəkləri, şirin-şəkər və bal kimi söhbətləri üçün də qəribsəyirsən. Və bu qəribsiliyi o vaxta qədər hiss edirsən ki, nə vaxtsa onlarla görüşürsən, bir masa arxasında əyləşirsən, çörək kəsirsən, bir stəkan çay içirsən...**

Bax, o darıxdığım adamlardan biri də böyük ziyalı, Azərbaycan Aşıqlar Birliyinin sədri, Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor, tələbə yoldaşım və dostum Məhərrəm Qasımlıdır. Onunla bir stəkan çay içmək, bal kimi şirin söhbətinə qulaq asmaq və iç dünyasını, qəlbini duymaq şəxsən mənim üçün ən gözəl anlar, ən gözəl məqamlardı. Biz təkcə öz tələbəlik illərimizdən, dostluğumuzdan, unudulmayan müəllimlərimizdən söhbət açmırıq. Və biz həm də uzun müddət dostluq elədiyimiz, çörək kəsdiyimiz və bu gün haqq dünyasına qovuşmuş yaxın dostlarımızı, qardaşlarımızı, çiyindaşlarımızı yada salırıq. Yada düşən həm də onların xatirələri və bu gün də qulağımızda cingildəyən səsləridi...

...Bir stəkan çay içirik, yenə həmin dostlarla olduğumuz günlərə qayıdırıq. Yadımıza filologiya elmlər doktoru, professor Məhəmmədəli Mustafa, filologiya elmləri namizədi Lətif Süleymanlı, istedadlı yazıçı-publisist, jurnalist və hüquqşünas Rafiq Hacıyev düşür. Bu dostlar Allahın dərgahına qovuşsa da, amma bizim yadımızdan heç vaxt çıxmırlar. Ən azından ona görə ki, həmin dostlarla düz 40 ilə yaxın bir yoldaşlığımız olub, zarafatımız, deyib-gülməyimiz, xeyir-şərdə bir yerdə olmağımız yenidən xatirələrdə baş qaldırır. Sanki elədiyimiz söhbət zamanı onların isti nəfəsini, səsini, ürək döyüntülərini və qəlb pıçıltılarını eşidirik. Elə bil ki, əyləşdiyimiz otağın qapısı açılacaq, bu dəqiqə Lətif Süleymanlı içəri girəcək. Məhəmmədəli Mustafa otağa daxil olacaq. Rafiq Hacıyev bir şirin, duzlu zarafatı ilə bizim qaralmış qanımızı duruldacaq...

...O insan xoşbəxt adamdır ki, Allahın dərgahına qovuşandan sonra doğmalarının, dostlarının yadından çıxmırlar. Yəni onlar bir insan olaraq çörək kəsdikləri, dostluq elədikləri insanların qəlbində, söhbətlərində, ən







nəhayət xatirələrində yada düşürlər, xatırlanırlar. Adını çəkdiyimiz bu dostlar inanın nə Məhərrəm müəllimin, nə də mənim yadımdan çıxır. İndiyə kimi yaxşı yadımdadır, Lətif Süleymanlı ötən əsrin 90-cı illərinin axırında namizədlik dissertasiyası müdafiə edirdi. Amma onu kimlərsə incidir, müdafiəsini ləngidirdi. Günlərin birində dedi ki, gedirəm Məhərrəm Qasımlının yanına. Bəlkə o, mənə kömək edə! Bəli, Məhərrəm Qasımlının yanına getdi, o da bütün maneələrə baxmayaraq hamısını dəf elədi və Lətifin müdafiəsində sinəsini qabağa verərək ona böyük köməklik göstərdi. Allaha and olsun, mən hər şeyi yaxşı bilirəm, Məhərrəm müəllim bu çətin və həlli müşkül məsələni yoluna qoyanda Lətifdən bir stəkan çay da ummadı, yəni təmənnasız olaraq ona arxa durdu...

Biz həmin anları yenidən bir-bir xatırlayırıq. Məhəmmədəli Mustafa ilə Məhərrəm müəllimin Tovuza getməsi, orda gözəl yerləri, məkanları gəzməsi və istirahət etməsi yenidən yada düşür. Məhərrəm müəllim deyir ki, Məhəmmədəlinin yoldaşlığına və dostluğuna söz ola bilməzdi. O qədər sadə və səmimi adam idi ki, hamıya inanırdı. Hətta balaca uşaq onu aldada bilərdi. Yenə bir-bir xatirələr yada düşür. Lənkərana və eləcə də digər yerlərə getməklərini yada salır...

Rafiq Hacıyevlə bağlı Məhərrəm müəllim çox zəngin xatirələr danışır. Deyir ki, tələbəlik illərində universitetin yataqxanasında dostluq eləmişik. Sabılcada o qədər kartof qızardıb yemişik ki. Hələ də o yeməyin dadı damağımdan getməyib. Axı tələbəlik illərinin öz şirinlikləri, gözəl anları olur. Rafiq çox istedadlı jurnalist idi, yazıçı idi, publisist idi. Həm də onda gözəl rəssamlıq qabiliyyəti və bir də gözəl bir muğam səsi vardı. Əgər Rafiq musiqi sənəti ilə məşğul olsaydı, bəlkə də xalq artisti olmuşdu. Amma gəldi jurnalistikaya, nə ona fəxri ad verdilər, nə də mənzil. Heç Rafiqin dünya malında gözü də yox idi. Amma sadəcə olaraq haqqını alsaydı həm özü, həm də ailəsi çox rahat olardı. Rafiq elə bir dost idi ki, onun yerini heç kim verə bilməz. Ölümündən bir neçə gün qabaq Aşıqlar Birliyinə gəlmişdi. Yeni çapdan çıxmış kitabını mənə verdi və dedi ki, mənim 70 illiyimdə aparıcılığı sən edərsən, duxun var eləmə! Bizim Rafiq ilə çox səmimi və şirin zarafatlarımız vardı. Və bəzən gözümü yumub o sehirli dünyada özümü hiss edirəm. O dostlarımızın səsini, söhbətini və ürəyinin döyüntüsü eşidirəm...

...Bu kədərli notlardan sonra bir balaca özümüzü nikbin ovqat üstündə kökləyirik. Axı Məhərrəm Qasımlı həm də gözəl şairdir və Orxan Paşa imzası ilə çox gözəl, poetik və yadda qalan şeirlər yazıb. Neçə-neçə şeirlər kitabı işıq üzü görüb. Hər bir şeirində belə Orxan Paşanın fəlsəfi dünyagörüşü, poetik təfəkkürü və lirikası oxucunun əlindən tutub onu uca bir zirvəyə aparır. Oxucu o zirvədən özünün dünyasını və arzularını görür. Onun bu yaxınlarda qələmə aldığı və xoş ovqat üstündə, daha doğrusu sevgi, məhəbbət aurasında kökləndiyi "Səsindən öpəsən bunun" şeiri ilə yazımızı və söhbətimizi bitirmək istəyirəm:

*Ədasına canım qurban,*
*Nazından öpəsən bunun.*
*Nərgiz-bənövşə qoxulu*
*Yazından öpəsən bunun.*

*Qəmzəsi müdam oyaqdı,*
*Bizi intizar qoymaqdı.*
*Kəlməsi baldı-qaymaqdı,*
*Sözündən öpəsən bunun.*

*Qarmaq atasan gölünə,*
*Könül bağlaya könlünə,*
*Girəvə düşə əlinə -*
*Üzündən öpəsən bunun.*

*Doğulub yaz yağışından,*
*Göy qurşağı naxışından.*
*Axıb gedən baxışından -*
*Gözündən öpəsən bunun.*

*Sarsılma sevda qəmindən,*
*Keçmə könül həmdəmindən.*
*Gül səpilir qədəmindən -*
*İzindən öpəsən bunun.*

*Orxan Paşa, yenə nəsə,*
*Uyub qaldın ovsun səsə.*
*İşdi əlin yetişməsə -*
*Səsindən öpəsən bunun.*

**Faiq QİSMƏTOĞLU**

---

# Qaydalar pozulursa...

## "Şamaxınka" və "20 Yanvar" dairəsində taksi sürücüləri dayanacaqları tez-tez zəbt edir

**Heç kimə sirr deyil ki, "20 Yanvar" dairəsi və eləcə də "Şamaxınka" istiqamətində səhər və axşam saatlarında nəqliyyat vasitələri daha çox intensiv hərəkət edir və hətta tıxaclar yaranır. Təbii ki, bu cür hərəkət axını istər-istəməz həmin ünvanlarda müəyyən problemlər və çətinliklərə səbəb olur. Nə yaxşı ki, Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin əməkdaşları xidməti vəzifələrini məsuliyyətlə yerinə yetirirlər. Axı səhər saatlarında tıxaclar yol polisi tərəfindən aradan qaldırılmasa, onda görün nə qədər sürücü və hərəkət iştirakçısı yollarda qalar, vaxt itirər.**

Hər şeydən öncə hər bir sürücü qaydalara əmək etməyə borcludur. Başqa sözlə demiş olsaq, onlar qaydalara əməl etməklə





həm özlərinin, həm də hərəkət iştirakçılarının təhlükəsizliyini qorumuş olurlar. Ancaq təəssüflə qeyd etməliyik ki, heç də bütün sürücülər yol hərəkəti qaydalarına əməl etmir, mövcud qaydaları tez-tez pozurlar. Bu isə bayaq dediyimiz kimi, digər nəqliyyat vasitələrinin hərəkətinə çətinlik yaradır, problemlərin baş qaldırmasına təkan verir.

Heç uzağa getməyək, "Şamaxınka" istiqamətində və "20 Yanvar" dairəsindəki dayanacaqların Xırdalana və Sumqayıta gedən taksi sürücüləri tərəfindən tez-tez zəbt edilməsi həm avtobus sürücülərinin, həm də o dayanacaqda avtobus gözləyən sərnişinlərin böyük narazılığına səbəb olur. Bəzən taksi sürücüləri imkan vermir ki, avtobus dayanacağa girsin və sərnişinləri götürsün.

Siz elə bilməyin ki, Bakı Şəhəri Yol Polisi İdarəsi adını çəkdiyimiz ünvanda hərəkətin təhlükəsizliyi ilə bağlı tədbirlər görmür. Dəfələrlə onun şahidi olmuşuq ki, Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının 5-ci tağımının əməkdaşları həmin yerdə olur, sürücüləri maarifləndirir və onları ordan uzaqlaşdırırlar. Bəzən 5-ci tağımın əməkdaşları məcbur olub, həmin ünvanda vəziyyəti çətinləşdirən sürücülərə qarşı saatlarla xidmət aparır, onlara tövsiyələrini verir və xəbərdarlıq edirlər. Ancaq yol polisi gedəndən sonra yenə onlar dayanacağı zəbt edir, avtobusların ora rahat daxil olmasına imkan vermirlər.

Bir faktı qeyd edək ki, bu istiqamətdə "dayanma-durma" qaydalarını pozan sürücülər çoxdur. Düzdür, onlara qarşı adını çəkdiyimiz 5-ci tağımın əməkdaşları inzibati tədbirlər də görürlər, maarifləndirici söhbətlər də edirlər. Təəssüf ki, bu cür intizamsız sürücülər bu səmimi və mədəni münasibətdən nəticə çıxarmırlar. Ona görə də "dayanma-durma" qaydalarını pozan və parklanma qaydalarına əməl etmə-



yən onlarla sürücü "İnzibati Xətalar Məcəllə"sinin müvafiq maddəsi ilə 20 manat məbləğində cərimə ediliblər. Görünür, bu cür sürücülərə inzibati məsuliyyət də bir o qədər təsir etmir. Yəni cərimə az olduğuna görə, onlar yenə parklanma qaydalarını pozmaqda davam edirlər. Nə var-nə var dayanacaqda sərnişin götürəcəklər və onları mənzil başına aparacaqlar.

Yol Patrul Xidməti Alayının 5-ci tağımının komandiri, polis kapitanı Nurlan Əliyev son dərəcə peşəkar, məsuliyyətli və tabeliyində olan işçilərə qarşı tələbkar komandirdi. Bir qayda olaraq növbə qəbul olanarkən Nurlan Əliyev tağım əməkdaşlarına öz göstərişlərini verir, tövsiyələrini bildirir, hərəkətin təhlükəsizliyinin təmin edilməsini onların diqqətinə çatdırır. Xüsusən də səhər və axşam saatlarında hərəkətin intensivliyi artanda yol polisinin üzərinə daha böyük məsuliyyət düşür. Hamıya gün kimi aydındır ki, "20 Yanvar" və "Şamaxınka" dairəsində hərəkət sıxlığı olur, bəzən də tıxaclar yaranır. Bax, o tıxacların aradan qaldırılmasında 5-ci tağımın əməkdaşları öz üzərinə düşən vəzifələrini daha məsuliyyətlə yerinə yetirirlər.

Əlbəttə, qanunlar onun üçündür ki, biz ona əməl edək və bunun nəticəsində təhlükəsizliyimizi qorumuş olaq. Amma təəssüflə qeyd etməliyik ki, bəzi sürücülər hətta hərəkətin sıx olduğu vaxt belə qanunları pozur. Qarşıda tıxac yaransa da, siqnallar verir, bir sözlə, həm sürücülərin, həm də sərnişinlərin əsəbini pozurlar. Əgər tıxac yaranıbsa, onu siqnalla aradan qaldırmaq mümkün deyil. Sadəcə olaraq səbirli olub gözləmək lazımdır və yol polisinə həmin anlarda maneçilik törədilməməlidir.

Üstəlik də tıxaclar olarkən bəzi sürücülər düşünür ki, qarşı tərəfin yoluna keçsin və çıxış yolu tapsın. Qarşı tərəfin yoluna keçmək isə daha ağır problem yaradır və qarşıdakı avtomobillərin də hərəkətində tıxaclara səbəb olur. Ümumiyyətlə, sükan arxasında əyləşmiş hər bir sürücü səbirli olmalıdır. Səbrin yoxdursa, sükan arxasında əyləşmə və üstəlik də digər nəqliyyat vasitələri üçün problemlər yaratma.

**Ona görə də həm dayanacaqları zəbt edən, dayanma-durma qaydalarını pozan, həm də qarşı tərəfin yoluna çıxıb çətinlik yaradan sürücülər yol polisinin tövsiyələrinə və xəbərdarlıqlarına əməl etməli, yol hərəkəti qaydalarını məsuliyyətlə icra etməli, bir sözlə, başqa avtomobillər üçün çətinliklər yaratmamalıdır. Bu çətinlik yaranırsa, deməli, yol hərəkəti qaydalarını pozan sürücü məsuliyyətsizdi, özü və digər hərəkət iştirakçıları haqqında qətiyyən düşünmür. Bunun acı nəticəsini isə həmin sürücü gec-tez özü görür...**

**Faiq QİSMƏTOĞLU**

---

Aqil ABBAS

## Elmar Vəliyev o stadionu bir aya təmir etdirərdi

**Gəncə Azərbaycanın ən böyük futbol məktəbidir. Və vaxtilə bu şəhərin komandası SSRİ birinciliyində, daha dəqiq desək, yüksək liqada iştirak edib, "Neftçi"nin əsas bazası olub. Adlarını saymaq istəmirəm. O zamanlar "Neftçi"nin ən məşhur futbolçuları Gəncə məktəbinin yetirmələri idi.**

**İndi uzun müddət ya zəlzələdən, ya vəlvələdən "Kəpəz" komandası Azərbaycan çempionatından kənarda qalmışdı. Necə ki, "Turan" Tovuz qalmışdı. Şükürlər olsun ki, bu il hər iki komandaya yaşıl işıq yandırıldı.**

**Və belə məlum oldu ki, Gəncədəki stadion oyun üçün hazır deyil. Bir il idi ki, "Kəpəz"in yüksək liqaya qayıtması söhbəti gedirdi. Gənclər və İdman Nazirliyi və Gəncə şəhər İcra Hakimiyyəti bununla bağlı niyə bir tədbir görmürdü? Əgər gəncəlilərə müraciət etsəydilər, iməclik yolu ilə, lazım gəlsə öz ciblərinin puluna stadionu hazır vəziyyətə gətirərdilər. Gəncə kimi bir şəhərin əlində bir stadionu təmir etmək nə çətin bir işdir? Hətta Bankda hesab açsaydılar, təkcə gəncəlilər deyil, başqa rayonun futbolçuları da həmin hesaba pul köçürərdillər.**

**Ağdamın işğalından sonra Qarabağ komandası bilirsiz niyə dağılmadı? Ağdamlılar, qaçqın ağdamlılar, zirzəmilərdə, yataqxanada yaşayan ağdamlılar əl-ələ verib bu komandanı dağılmağa qoymadılar. Düz 9 il!**

**İndi 400, 500 minlik Gəncədə stadionu niyə bərbad vəziyyətə düşməlidi? Bəs Gəncə niyə ev oyunlarını Bakıda keçirməlidi? "Zirə" ilə "Dalğa Arena"da oynayır. Şərhçi də deyir ki, qonaqlar yəni Zirə...**

**Zirə Bakı komandasıdı. O hardan qonaq olub. Qonaq "Kəpəz" idi. İndi eşidirəm ki, yanvar ayına qədər "Kəpəz" öz doğma azarkeşləri önündə çıxış edə bilməyəcək. Heç olmasa, buraxın tamaşaçısı oynasın.**

**Yeri gəlmişkən, Elmar Vəliyevin yeri görünür. O, Yevlaxda işləyəndə sıfırdan "Karvan" kimi komanda düzəltdi. Və komandada bir çox uğurlara imza atdı. Hələ mən onun Yevlaxda apardığı abadlıq işlərindən danışmıram. Yevlaxı Azərbaycanın ən böyük şəhərlərindən birinə çevirdi.**

**Çox təəssüf ki, Elmar Vəliyev Yevlaxdan gedəndən sonra "Karvan" dağıldı.**

**Gəncədə də ən böyük abadlıq işlərini Elman Vəliyev həyata keçirtdi. Şəhər təmiz simasını dəyişdi.**

**Elmar Vəliyev Gəncədə olsaydı, nəyin hesabına olur-olsun, o stadionu bir ayın içində hazır vəziyyətə gətirərdi.**

**Gəncənin imkanlı adamları, Allah imkanlarınzı daha çox eləsin. Bir yığışın Xan bağındakı çayxanaya, bir məşvərət eləyin. Türklər demiş, pamuk əllər cibə getsin...**

---

Eminquey



## Satdığı şarlara başını söykəyib yolun qırağında yatan uşaq...

*Taksi ilə evə qayıdıram.*

*"Ayna Sultanova"da körpünün altında, Xutora dönən hissəsində sürücü məni, "ora bax" - deyib, dümsüklədi.*

*Boylandım, təxminən 10-12 yaşlarında bir uşaq, dizinin üstündə nazik, uzun, əyri-üyrü şar topasına (bu şarları bilirsiniz, əyib min cür formaya salmaq olur) başını qoyub yuxuya gedib.*

*Bir anlıq əlim-ayağım qurudu, baxa-baxa qaldım.*

*Rəngbərəng dünyasında məktəbdən gəlib həyətdə uşaqlarla oynamaqdan yorulub çarpayısına halsız düşəsi bir uşaq düz bu döngədə, körpünün altındakı səkidə kirimişcə uyuyub, yorğunluğundan bircə dənə də olsun maşın səsinə, siqnalına oyanmır.*

*Necə qurudumsa, şəklini çəkməyə də əlim gəlmədi.*

*Mən bu uşağın yaşında dərs oxuyurdum, atam cibimə pul, anam çantama kotlet-çörək qoyurdu.*

*Nə edəsən? Necə edəsən?*

*Lal-dinməz yanından dönüb keçdik. İndi də bir yekə təəssüf hissi gəlib oturub içimdə, ürəyimə-ürəyimə döyür, dayanmır. Vallah, billah...*

*Adəmlə Həvvanın dərdiyi şey haqqında iki fərziyə var: biri almadır, biri buğda.*

*Şeytan bu cütlüyü ilan cildinə girərək azdırır, almanı dərib cənnətdən qovulurlar.*

*Dərdikləri şeyin alma olduğuna almanın içindən çıxan qurdu, yəni sürünən həşəratı, daha dəqiqi qurdun da bir növ ilana bənzədiyini nəzərə alsaq, inana bilərik.*

*Almaların ən yaxşısını içində qurd olanıdır deyirlər. Sanki o ilan cildinə girmiş şeytan bu dünyada da qurd cildinə girib.*

*Şeytan bu cütlüyü ilan cildinə girərək azdırır, buğdanı dərib cənnətdən qovulurlar.*

*Buğda isə çörəyin xammalıdır.*

*Bu fərziyə isə insanın dünya həyatına daha yaxındır. Biz çörəkdən ötrü nələr etmədik ki?*

*Çörəkdən ötrü dostlarını satan oldu, şəxsiyyətini satan oldu, həbsə düşən oldu, sınan oldu, sınanan oldu...*

*Hətta ilk atom bombasını Xirosimaya atan pilotun jurnalistlərin " Uçuş vaxtı ağlınızdan nələr keçirdi?" sualına "Evdəki soyuducunun ödəyə bilmədiyim 175 dollarlıq kreditini düşünürəm deyib cavab verməsini də xatırlasaq.*

*Pul hər şey deyil, amma ailə hər şeydir...*

*Şeirimdə demişdim:*

*"Buğda oğrusuydu babamız Adəm,*
*Çörək olmasınmı imtahanımız?!".*

---

## İnsan qaçaqmalçılarından "yay endirimi"



**Avropadakı miqrant böhranı insan qaçaqmalçılarını da hərəkətə keçirib. İnsan qaçaqmalçıları bu yaxınlarda TikTok-dakı reklamlarında "yay endirimi" tətbiq etdiklərini açıqladılar. Sosial şəbəkələrdə kampaniyaya reaksiyalar gecikməyib.**

Rusiyanın Ukraynanı işğalından sonra Avropaya keçmək istəyən mühacirlərin sayında nəzərəçarpacaq artım müşahidə edildiyi dövrdə insan qaçaqmalçıları da yeni üsulları ilə hamını şoka salıb. TikTok sosial media platforması vasitəsilə Böyük Britaniyaya qeyri-qanuni keçidləri marketinq edən bir qrup adambaşına 1500 funt-sterlinq "yay endirimi" başlatdı. TikTok-da reklam edən insan qaçaqmalçıları "Fransızlar sizə mane ola bilməyəcəklər. Siz İngiltərəyə çatana qədər təhlükəsiz şəkildə müşayiət olunacaqsınız" kimi çağırışlar ediblər. Böyük Britaniyaya yeni qiymətlərlə çatmaq 20.000 funt-sterlinqdən 3-5 min funt-sterlinqə düşüb, qaçaqmalçıların bəzən qayıqları doldurmaq üçün qiymətləri 1500 funt-sterlinqə qədər aşağı saldıqları bildirilir.

Hadisənin ortaya çıxmasından sonra insan qaçaqmalçılarının sosial mediada verdiyi elanlara reaksiyalar artıb. Bir çox insan bu vəziyyətin "qəbuledilməz" olduğunu bildirib və reklamların dərhal silinməsini tələb edib.

**Eminquey Akif**



Əlövsət Bəşirli

# TƏKLİK

*Təklik üz verir mənə*
*Yadıma sən düşürsən...*
*Sənin gözlərinin dərinliyində*
*Boğulmaq istərəm, batmaq istərəm.*

**Əliağa Kürçaylı**

İşdən yorğun-arğın gəlib evinin qapısını açanda arxadan zillənən nəzərləri sövq-təbii hiss etdi. Cəld içəri girib qapını bağladı. Çiyinlərinə qəfil ağır yük düşmüş kimi səndələyib özünü divanın üstünə saldı. Nəfəsi təngidi, gözlərini yumub dərindən köksünü ötürdü. Sükut içində mürgüləyən soyuq otağın çoxdan alışdığı qeyri-adi səssizliyində qulaqları cingildədi. "Tək olanda qulağın cingildəyirsə, deməli, adını çəkir, söhbətini edirlər" - hələ uşaq vaxtı nənəsindən eşitdiyi sözlər yadına düşdü. Hə, yəqin kimsə xatırlayır. Kim olar, görəsən? Onu hədsiz istəyən atası dünyadan vaxtsız köçüb. Tez-tez yuxusuna girir. Görünür nigarandır balasından. Ahıl anası fikrini çəkir, namaz üstə dua edir, adı dilindən düşmür. Bir də xətrini çox istədiyi qardaşı. Külfət basıb onu, saçları vaxtsız ağarıb. Maşallah, elə bil ay parçasıdır qardaşı qızları. İllah da böyüyü, Ayteli. Lap körpəliyindən özü - bibisi əzizləyib onu. Ağlağan olduğundan qardaşı arvadı həzər eləyirdi doğma balasından. Amma bibisi nəfəs alırdı körpəylə, gecə-gündüz inqa-inqa eləyən əl boyda "möcüzəylə" ürəyi bir döyünürdü. Ananın bir-birinin ardınca "işığa gələn" balalarına başı elə qarışmışdı ki, əvvəllər hay-küyü, sonralar şaqraq gülüşü ev-eşiyi bürüyən ilkinin nə vaxt böyüyüb məktəbə getdiyindən xəbər tutmamışdı sanki. Və indi gülərüz, ağıllı-kamallı Aytel, onu boya-başa çatdıran bibisinə "ana" deyirdi. Fərəhindən ürəyi uçunan Çiçək aspiranturaya qəbul olunduqdan sonra Bakıya yola düşəndə güclə ovundurmuşdu onu. Söz vermişdi ki, kənddə orta məktəbi qurtaran kimi Ayteli şəhərə öz yanına aparacaq...

İndi sükuta qərq olan, hələ işığını yandırmağa macal tapmadığı bu alaqaranlıq otaqda ona elə gəldi ki, al yanaqlı Aytelini görür, doğma, şirin-şəkər səsini eşidir: "Yayda məktəbi qurtarıb gələcəyəm yanına, ana!"

Yaşa dolsa da, hələ gənclik təravətini hifz edən Çiçək köksünü ötürdü. Gözləri doldu, yanaqları islandı. "Ana" sözü qulaqlarında səslənəndə həmişə kövrəlirdi. Və bir də onu... gözlərində ürəyi görünən, dilindən "qıfıl asılan" qonşu oğlanı xatırlayanda. On il bir məktəbdə, bir sinifdə oxumuşdular. Toğrul anadan riyaziyyatçı doğulmuşdu elə bil. Bunu müəllim də deyirdi, uşaqlar da. Ancaq elə bir danışıq qabiliyyəti, nitqi yox idi. Müəllimin suallarına cavab verəndə dili topuq vururdu. Gəl ki ən çətin misalı, məsələni az qala bir göz qırpımında həll edir, sonra da müəllimin, yoldaşlarının "gözünü oğurlayıb" əl altdan Çiçəyə ötürürdü. Qonşu qız da borclu qalmırdı, ədəbiyyatdan inşa yazanda kömək edirdi ona. Çiçək dilli-dilavər idi. Kitab əlindən düşmür, mütaliəsiz keçinmirdi. Oxuduqlarını həvəslə, maraqla, yerli-yerində Toğrula danışırdı. O da diqqətlə qulaq asır, gözlərini qıza dikib qalırdı. Çiçək evlərinə çatıb həyət qapısının kandarında sağollaşmaq istəyəndə nitqi tutulurdu elə bil. Ona nüfuz edən gözlər çaşdırırdı qızı. Tələm-tələsik qapını çəkib həyətdən şüşəbəndli eyvana qalxırdı. Və oradan, şüşəbəndin arxasına qısılıb oğrun-oğrun baxanda, hələ də dayanıb gözlərini qapıdan çəkməyən qonşu oğlanın fikrə getdiyini görürdü...

"Bilirəm nə fikirləşirsən, gözlərin deyib mənə. Bəs dilin? Danış, de də, bircə kəlmə sözə nə var ki. Kaş mən sənin yerinə olaydım. Axı, oğlan deməlidi sözünü... kişi kimi. Zarafat deyil, doqquzda oxuyuruq, gələn il qurtarırıq məktəbi. Sonra... bilirəm sən riyaziyyatçı olacaqsan, mən də ədəbiyyatçı. Oxuduqlarımı yenə sənə danışacağam, o qıfıllı dilinin açarını tapacağam. Bir dayan, gör səni necə sevə..."

Birdən cərəyan vurmuş kimi qız durduğu yerdə qıvrıldı. Ürəyindən keçənlər beynində qırılıb qaldı. Ona elə gəldi ki, düşündüklərini dilinə gətirib özü də bilmədən ucadan səsləndi və oğlan da eşitdi. Xəcalətindən qızardı... Sonra özünü toplayıb həyət qapısına sarı boylandı. Və sinədolusu köks ötürdü. Yoox, Toğrul heç nə eşitməmişdi, həmişəki kimi fikirli halda qonşu qapısından uzaqlaşmışdı...

O, ötüb-keçənləri xatırladıqca həyatının ən unudulmaz çağları gözləri önündə sanki dumana bürünürdü. Bu, xatirələrin göz yaşları idi. Nisgilli duyğulardan ürəyi köksünə sığmırdı.

Kəndlərində orta məktəbi bitirən gün necə də sevinirdi. Deyib gülür, dil-boğaza qoymur, arzularından danışırdı Toğrula. O, gözlərini qızın alışıb yanan yanaqlarına zilləyib adəti üzrə dinib danışmadan sakitcə qulaq asırdı. Həmin gün özünü bəxtəvər sanan qız bilmirdi ki, "dili qıfıllı qonşu oğlan"ı bir daha görməyəcək. Ertəsi gün atası onu riyaziyyat müəlliminin məsləhətilə Moskvaya aparacaq, Toğrul ölkənin ən məşhur, nüfuzlu universitetinə qəbul olunacaq. Bir qədər sonra yer kürəsinin altıda bir hissəsini əhatə edən nəhəng ərazi sanki çalxalanacaq, zaman-dövran büsbütün dəyişəcək. Qonşu oğlanın sorağı xarici ölkələrdən, mötəbər elmi mərkəzlərdən gələcək, dəyərli riyaziyyatçı alim kimi şöhrətlənəcək o.

İnterneti müntəzəm izləyən, bayramlarda təbriklər göndərib qarşılıqlı səmimi mesajlar alan Çiçək riyaziyyatçıların beynəlxalq müsabiqəsində Toğrulun qalib gəldiyini biləndə sevincindən sanki quş kimi qanadlandı. Ancaq o qanadlar az sonra qırıldı...

"Həmyerlimiz görkəmli riyaziyyatçı alim Toğrul Azəroğlu ailəsi ilə birlikdə..."

Ardını oxuya bilmədi, göz yaşı ekranı dumana büründü.

"Ailəsi ilə birlikdə..." Qəlbini titrədən, ağlına gəlməyən, heç vəchlə gözləmədiyi bu xəbər onu sanki şirin yuxudan, xəyallar aləmindən ayıltdı, yalnız özünə məhrəm romantik düşüncələrinin ənginliyində yerə endirdi. Və rəngsiz, boyasız real həyatın sərt gerçəkliyi ilə üzbəüz qoydu həssas sevgi dolu pak qız qəlbini.

"Deməli ailəsi varmış", - düşündü və sanki qeyri-müəyyənlikdən çıxıb yüngülləşdi elə bil. Sonra ürəyindən keçənləri dilinə gətirdi: "Təki xoşbəxt olsun".

Dərin köks ötürüb, öz-özünə pıçıldadı: "Qisməti beləymiş yəqin, Allah bəxtəvər eləsin". Otağın buz sükutunu pozan pıçıltısının sonucunda anasının kövrək, məhrəm səsini eşitdi sanki: "Allah ürəyinə görə versin, qızım, sənin də bəxtinin qapısını açsın. Tay-tuşların kimi öz ev-eşiyin, ailən olsun, inşallah. Vaxtın keçir, balam, mən də qocalıb əldən düşürəm, sənin o gününü gözləyirəm".

"Vaxtın keçir..." İlahi, illər hara uçdu, nə tez yaşa doldu o, məəttəl qalmışdı lap. Bircə təsəllisi vardı: ali təhsil almışdı, müdafiə etmişdi, elmi dərəcəsi, adı-sanı, hörməti-izzəti öz yerində. Tədqiq-tədris etdiyi ixtisas fənninin bilicisi, tələbələrinin sevimlisi, ürəkdən bağlandığı sənətinin, işinin vurğunu idi. Vaxtın necə keçdiyindən xəbər tutmaz, tez-tez saatına baxıb harasa tələsənlərə pəsənd eləməz, qaş qaralanda sükut içində mürgüləyən, kitab rəflərinin sıralanıb tavana dirəndiyi soyuq otağının qapısını açardı...

Neçə illərdi beləcə davam edirdi. Elə bu gün də həmişəki kimi. Yox, bu gün elə deyildi, adət etdiyindən fərqli idi, çox fərqli. Zahirdə ətrafdakılara hiss etdirməsə də, içi qaynayırdı, ürəyi od tutub yanırdı elə bil. Özünü o ki var qınayır, sanki üstünə hücum edən suallara cavab tapa bilmirdi. Axı, niyə belədir: həmdəmi, ömür-gün yoldaşı, ailəsi yoxdur, tək-tənha, yalqız qalıb. Ona gözlərini zilləyib sözünü deyə bilməyənin dilini açmaq istəmişdi, amma bacarmamışdı, üstəlik öz bəxtinin, taleyinin açarını itirmişdi. Nə qədər "oduna yanan"ı, abırına bükülüb üstünə minnətçi göndərəni, mərdi-mərdanə sözünü şax üzünə deyəni saya salmamışdı.

İndi səssiz-səmirsiz otağında yalqızlığın buz nəfəsi üşüdürdü onu.

Birdən bayırdan səs gəldi. Deyəsən qonşular mübahisə edirdilər. Kövrək, sakit səsli Ayna arvad adəti xilafına ucadan, əsəbi danışırdı. Sonra sakitlik oldu. Qapının zəngi çalındı. Gözlükdən baxanda xətrini çox istədiyi Ayna nənəni gördu. Qapını açıb salam verdi.

- Əleyküməssalam, bala. Bıy, başına dönüm, işığını niyə yandırmamısan? Ahıl qonşusu cavab gözləmədən elə kandardaca qanrılıb düyməni basdı.

Çiçəyin alaqaranlığa öyrəşən gözləri otağa dolan gur işıqdan qamaşdı:

- İşıqlığa çıxasan, Ayna nənə!

- Bəxtin işıqlı olsun, qızım!.. Bəs evin niyə soyuqdur belə? Təzədəm çayım var, gətirim, iç, isti olsun sənə.

Həlimxasiyyət, həssas, uzaq kənddə onun fikrini çəkən qoca anasına oxşayan qonşusunun qayğıkeşliyi Çiçəyi duyğulandırdı:

- Sən heç narahat olma, Ayna nənə, - deyə əl-ayağa düşdü. Otağın böyründə qapısı açıq kiçik mətbəxə keçib qazı yandırdı, çaydanı odun üstünə qoydu. Qonşu ayağı onunla qucaqlaşdı:

- Səsin gəlirdi qonşudan, nə olmuşdu ki?

- Daha nə olacaq? - od götürdü elə bil qarı nənə, - Elə bilirsən görmədim sənə əyri-əyri baxanı? Hövsələmi basdım, gözlədim, arvadı evə gələn kimi kəsdim qabağını, o ki var dedim sözümü, kişisini də peşman elədim. Dedim ayıbdır, qonşuya pis gözlə baxma, xanım-xatın arvadından, qız-gəlinindən abır-həya elə.

Ayna nənə birdən səsini qısıb sirr açırmış kimi başını Çiçəyə sarı əyərək az qala pıçıldadı:

- Mən bu yaşıma çatmışam, arvadından çəkən beləsini görməmişəm hələ. Kişinin üzü yumurta sarısına döndü. İstəmədim mərəkələrini eşidəm, qapılarından çəkdim ayağımı. Gəldim sənə deyim ki, narahat olmayasan.

- Qanım qaralsa da, narahat deyiləm. Çünki beləsinə nə salam verirəm, nə də salamını alıram, heç üzünə baxmıram.

- Əcəb eləyirsən, neçə ilin qonşusuyuq, özüm şahidəm. Sənin kimi əli-ayağı düz, namuslu, qeyrətlisini az görmüşəm, çox az. Mən bildiyimi deyirəm, heç kimin babalını yumuram.

Çiçək mətbəxə keçib qaynayan çaydanı odun üstündən götürdü, fincan boyda çaynikə quru çay töküb dəmə qoydu. Az sonra iki armudu stəkana süzüb düm ağ süfrə saldığı masanın üstünə düzdü.

- A qızım, nə zəhmət çəkirsən, bir az var içmişəm. Çiçək ərklə:

- İçmisən, birini də mənimlə içərsən, özü də təzə mürəbbəynən, - dedi, mürəbbə qabını süfrəyə qoyub sözünü tamamladı, - bunu kənddən qardaşım qızı Aytel göndərib. Keçən dəfə yanıma gələndə görmüsən onu...

- Həə... yadıma düşdü, Allah saxlamış gözəl-göyçək, çox mehriban baladır. Yaman mehrini salıb, ana deyir sənə.

- Körpə vaxtı mən baxmışam ona. Yayda məktəbi qurtaran kimi yanıma gətirəcəyəm.

Ayna arvad onun dilindən heç vaxt eşitmədiyi sözləri nəmli gözlərindən oxudu: "Daha tək qalmayacağam, yalqız olmayacağam".

Həyatının dolayları üzünün qırışlarında naxışlanan Ayna nənə ömrünün qürub çağında qonşuluq etdiyi, doğması, əzizi kimi isnişdiyi Çiçəyi yaxşı tanıyırdı: ismətli, qürurlu idi, özünü sındırmırdı, dərd-sərini içində saxlayırdı. Heç vaxt bəxtindən, təkliyindən şikayətlənmirdi. Ancaq son vaxtlar ümidini itirmiş, ürəyi qırılmış kimi görünürdü. Ayna arvada belə gəlirdi. Bəlkə o, səhv edirdi. Yaşı ötmüş köhnə fikirli adamdır, indiki cavanları anlamaq onun üçün asan deyil. Odur ki, xətrini istədiyi cavan, subay qonşusu ilə ehtiyatla davranır, onun qəlbinə dəyə bilən kəlməni dilinə gətirmirdi. Həmişə həlim, mülayim danışır, söhbəti axarına salırdı.

İndi də onun sözünə qüvvət verib:

- Yaxşı eləyirsən, - dedi,- gətir yanına, oxutdur, öz balan kimi hayanın olsun.

Çiçəyin yanaqları qızardı, yaraşıqlı üzü işıqlandı. Ayna arvad xoşhal oldu:

- Mənim canım kiçik nəvəmdədir. O da əl çəkmir, hayan olur mənə. Hərdən öz-özümə fikirləşirəm: İlahi, qüdrətinə qurban olum, ahıl yaşımda eşq bəxş eləmisən mənə, nəvəmin məhəbbətini; yaşaya bilmirəm onsuz, nəfəs alıram onunla,- əlini quru sinəsinə qoydu, - bax, ürəyimin döyüntüsündən bilirəm ki, harda olsa gələcək, "nənə, haradasan?" - deyə haray salacaq.

Ayna nənə nəfəsini dərdi, maraqla ona qulaq asan Çiçəyə zənnlə baxıb:

- Qızım, məhəbbət nəyə deyirsən, elə belə olur da! - deyə zarafatından xoşhal kimi gülümsədi.

Ayna nənənin məzəli tərzdə dediyi sözlərə Çiçək gözləri yaşarınca gülüb uğundu.

- Allah köməyin olsun, nə yaxşı gəldin, yaman dedin ha, - deyib Ayna nənəyə baxanda onun susub fikrə getdiyini gördü. İşığı avazıyan batıq gözləri yol çəkirdi. Qadının əhvalının birdən-birə dəyişməsi Çiçəyi təəccübləndirdi. Sual dolu baxışların cavabını yayındırmaq istəyən Ayna nənə dərindən ah çəkib:

- Heç, qızım, - dedi, - elə bir şey deyil. Birdən fikir aldı məni apardı uzaqlara, olub keçənlərə.

Araya sükut çökdü. Sonra özü-özünü qınayırmış kimi başını aşağı salıb söyləndi:

- Nəyim əskikdir, övladlarım, nəvələrim, bu gün-sabah nəticəm olacaq inşallah.

Başını qaldırıb ona qəribə nəzərlərlə baxan Çiçəyi ilk dəfə görürmüş kimi diqqətlə süzdü:

- Sən cavansan, məni başa düşə bilməzsən hələ. Elə ki, yaşa dolub ahıllaşdın, məəttəl qalırsan: hər şeyin var, evin uşaqlarla dolub-boşalır, Tanrına şükür edirsən. Ancaq öz içində yalqızsan, görürsən yarımçıqsan elə bil, yoxdur ömür-gün sirdaşı, kişi nəfəsi... quruca nəfəs.

Eşitdiyi sözlər Çiçəyi yaman təsirləndirdi. Hiss etdi ki, Ayna arvad özündən danışsa da, onun "bostanına daş atır".

O, düm ağ, ipək kimi yumşaq əlini qarının göy damarları görünən arıq əlinin üstünə ehmalca qoydu:

- Anam da sən deyəni deyir, kəndə gedəndə əl çəkmir, and-aman eləyir.

- Düz eləyir, qızım, mən də anayam, nənəyəm, başa düşürəm onu. Böyük deyən sözü göyərt vaxtında, sonra gec olur, iş işdən keçir.

Araya ağır sükut çökdü. Çiçək günahkar kimi başını aşağı salıb, gözlərini yerə dikdi. Elə bil ağ, yaraşıqlı boynu, zərif çiyinləri gözəgörünməz yük altında gərilir, ürəyi sıxılırdı.

Gözaltı ona baxan Ayna arvad narahat oldu:

- Ağrın alım, qadan-balan gəlsin mənə. Birdən sözüm qəlbinə dəyər, inciyərsən ha...

- Yox, niyə inciyirəm ki, bilirəm xətrimi istədiyindən deyirsən. Yaxınlar, ərki çatanlar da eşitdirirlər mənə. Heç bilmirəm nə cavab verim, ürək süfrə deyil axı, açıb sərəsən, - əlini sinəsinə qoyub ürəyinin üstündə saxladı, - vallah bacara bilmirəm bununla, od tutub yanır içimdə, özüm də özümü danlayıram.

Gözləri doldu. Onun saflığı, ürəkaçıqlığı, səmimi etirafı ahıl qadını kövrəltdi:

- Hə, könül məsələsi müşkül işdir, ürəyi məcbur eləmək olmur.

O, susub nəyisə içində götür-qoy elədi. Çaşqın halda Çiçəyə baxdı. Nə desin, necə desin ki, cavanlığı ilə vidalaşmaqda olan, ancaq dünənindən ayrıla bilməyən, hələ də gənclik təravətini itirməyən gözəl qonşusunun ürəyinə dəyməsin, sözü ağlına batsın.

- Ancaq yaş da ötür axı, - fikrində dolaşan sözlər dilindən çıxdı və qeyri-iradi olaraq onu diqqətlə süzdü. Özü də məəttəl qaldı: yaşa dolan qızın saçına düşən dəni, yaraşıqlı üzündə "gizlənən" xırdaca qırışı necə seçdi? Ona zillənən baxışlardan yanaqları allanan Çiçək Ayna arvadın sözlərini elə bil uzaqdan eşitdi:

- Adam inana bilmir vaxtın tez keçməyinə, yaşının ötməyinə. Bir də baxıb görür ki, iş işdən keçib. Hamının evi-eşiyi, ailəsi, uşaqları. Bircə o, tək qalıb, yalqız olub... Bağışla, xətrinə dəyməsin, qızım. Mən bu sözləri dünən böyük oğlumun qaynına demişəm. Səndən 3-4 yaş böyük ola-olmaya. Ağıllı, savadlı, sənin kimi dərs deyir tələbələrə. Tay-tuşları çoxdan evlənib. Bu subaydır, özünün deməyi arayıb-axtarır hələ.

Ani olaraq susub, sonra sakit, yalvarış dolu kövrək səslə Çiçəyə üz tutdu:

- Sən Allah bağışla, qızım. Bir işdi eləmişəm, sənin barəndə ona danışmışam. Özüm də məəttəl qalmışam, o səni tanıyır, bəyənir, ancaq sözünü deyə bilmir. Deyir ki, onu istəyənlər olsa da, heç kimə məhəl qoymur.

Ayna arvad elə bil təngnəfəs oldu. Dərindən köksünü ötürüb sözünü tamamladı:

- Mən də çox fikirləşmişəm, götür-qoy eləmişəm. Axır ki, özümü cəmləyib sənə deyirəm. Əgər ikinizi də tanımasaydım, bir-birinizə layiq bilməsəydim, heç üstünü vurmazdım. Ancaq insafım rəva bilmədi, dedim sözümü ona da, sənə də. İndi fikirləş, düşün-daşın, bir qərara gəl özün.

Yalqız qalanda gözləri dolub yanaqları islanan qızın indi yaraşıqlı çöhrəsi puçur-puçur tər içində idi.

Birdən ikisi də səksəndi. Qonşu qapı döyüldü. Sonra qız uşağının səsi gəldi:

-Nənə, ay nənə!..

Ayna nənənin üzü işıqlandı. Yaşına rəğmən cəld yerindən qalxdı. Çiçəklə sağollaşıb qapını açdı:

- Nənə sənə qurban, burdayam, Çiçək xalanın yanında, gözlə gəlirəm.

- Otaqdan çıxıb arxasınca qapını örtmək istəyəndə qanrılıb Çiçəyə zənnlə baxdı. Və nəzərlərini ona zilləyən qızın qoşa ulduz kimi işıqlı ala gözlərində bir ümid gördü.

***Redaksiyadan: Əzizimiz Əlövsət müəllim, Sizi, Azərbaycanın dəyərli yazıçı-publisistini DOĞUM GÜNÜNÜZ münasibətilə "Ədalət" qəzetinin kollektivi olaraq ürəkdən təbrik edir, Sizə can sağlığı, dəyərlimiz Dilarə xanımla birlikdə uzun ömür arzu edirik.***

---

*Emin Piri*

## Şəhid ailələrini gözü götürməyən müəllimlər

**Təhsil Nazirliyi Müəllimlərin İşə Qəbulundan öncə belə bir qərar verib ki, müəllimlərin işə qəbulunda müsahibə mərhələsində ilk olaraq şəhid ailələri iştirak etsin. Bu qanunun yaxşı tərəfidir. Eyni zamanda həmin şəhid ailə üzvləri havayı deyil, lazım olan limit balını topladıqdan sonra müsahibəyə buraxılırlar.**

Təhsil Nazirliyinin vətən naminə canını qurban edənlərin ailəsinə bu cür doğru yanaşmasından sonra bəzi müəllimlərin danışdıqları ittihamları insanı şoka salır.

Müəllimlər qruplarına baxın. Adamlar bu qərara görə şəhid ailələrinə nifrin qusurlar. Sanki bu ölkədə probelmlərin səbəbi şəhid ailəsiymiş. Hərəsi də özünə görə arqument gətirir.

Elə bu müəllimlərin acığına, həm də doğrusu olaraq yaxşı olar ki, gələn mövsümdən diplomu tanınan həmin ailə üzvləri o cür insanlara hesabat vermədən birbaşa işə götürülsün.

Təsəvvür edin, 9 min vakant yerin cəmisi 216-sı şəhid ailə üzvü ola bilər.

Mənə qərarın hansısa mənfi tərəflərini kimsə izah etməyə çalışmasın.

Bu cür adamlar rahat asfalt üstü üçün, 5 manat əlavə maaş, iki uşaq əlavə götürüb repetitor hazırlığı üçün şəhidi satacaq insanlardı.

Həm də həmin müəllimlər, müəllimliyə namizədlər sinif otaqlarımızda vətəndən danışırlar. Dəhşətdi.

Elə müsahibə mərhələsində kəsiləsi, müəllimlikdən uzaqlaşdırılası müəllimlər məhz şəhid ailələrini problemlərinin əsası kimi qələmə verənlər olmalıdır.

---

## ABŞ Rusiyanın canlı qüvvə itkisini açıqladı - Şok rəqəm



**Rusiyanın Ukraynadakı gündəlik canlı qüvvə itkisi 500 nəfər təşkil edir.**

Bu barədə "Nyu York Tayms" məlumat yayıb.

Nəşrin məlumatına görə, şərq cəbhəsində Rusiya hərbçilərinin hərəkət tempi ABŞ-ın reaktiv yaylım atəş sistemlərinin gəlməsi ilə daha da səngiyib və bu, Ukrayna qoşunlarına bəzi əraziləri geri qaytarmağa imkan verib.

"Rusların altı aydan az müddətdə 70-80 min itki verdiyini əminliklə demək olar. Onlar son bir neçə həftə ərzində çox olmasa da, şərqdə müəyyən irəliləyiş əldə ediblər, lakin bu, Ukrayna ordusunun nə qədər yaxşı döyüşdüyünü göstərir və aldıqları yardıma görə Rusiya ordusuna çox baha başa gəlib", - qəzet ABŞ müdafiə nazirinin siyasi məsələlər üzrə müavininə istinadla qeyd edib.

Nəşr iki amerikalı məmura istinadla yazıb ki, itkilərin 20 minini ölənlər, qalanını yaralılar təşkil edir. Ölənlər arasında "Vaqner" muzdlularının sayı 5 mindir.

**MEHRİBAN**

---

## Lüksembuqrdan 4 dəfə böyük cənnət Kəlbəcər...

**Qarabağ zəfərimiz ölkəmiz və xalqımız adına tariximizin ən şanlı səhifəsi oldu. Təbii təbiət gözəlliyi ilə insanı heyran edən Qarabağımızın ən geniş əraziyə malik şəhəri Kəlbəcərdən danışmaq istədim. "Kəlbəcər" toponiminin mənşəyi qədim türk dilində (oykonimin ilkin forması Kevliçer kimi qəbul edilib) "çay üstündə qala" deməkdir. Kevli "çayın üstü", çer/car "qala" mənasını verir. Kəlbəcərdə cərgə ilə düzülmüş qədim süni mağaralar mövcuddur. Mütəxəssislər toponimi ckevil/kəvl və qədim türk dillərindəki cər komponentləri ilə əlaqələndirirlər. Buradakı oronomik toponimlərin hamısı türk mənşəlidir. Hətta bir sıra qədim türk tayfalarının adının bu gün də bu toponimlərdə yaşadığını görə bilərik.**

Bu ərazidə 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, çöp şəkilli qədim türk əlifbası nümunələri aşkar edilmişdir. Aşkar olunan daş abidələr sayəsində Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın və VII əsrdən ərəb işğalı nəticəsində İslamın yayıldığı müəyyən edilib.

Kəlbəcərdə "Türk qəbristanlığı" adı ilə tanınan bir neçə qədim məzarlıq mövcud idi. Bu qəbirtanlıqlardan ən böyüyü Alıbəyli, Kəlbəcər, Zar və başqalarıdır ki, kənd ərazilərində yerləşlər. Qəbirstanlıqlar müxtəlif əsrlərdə yaradılmış, forma və ölçüləri ilə bir-birindən fərqlənən qoç, sandıq qəbirüstü fiqurlar, at, başdaşı və günbəzlərlə zəngindir.

Kəlbəcərdə Zar açıq düşərgəsində aparılan arxeoloji tədqiqatlarda sübut olunub ki, ibtidai insanın ilk əmək alətləri daşdan hazırlanıb. Eramızdan əvvəl IV minilliyin sonu-III minillik Tunc dövrü və ya Kür-Araz mədəniyyəti adlanır. Bu mədəniyyətin əsas təşəkkül və yayılma sahəsi Kür-Araz ovalığıdır. Bu dövrdə əhali əkinçiliklə məşğul olurdu. Maldarlar üçün isə dağlıq ərazilərdə də yaşayışa ehtiyac yaranıb. Yeni heyvan növlərinin əhliləşdirilməsi, xüsusilə də təsərrüfatda atdan istifadə olunması böyük əhəmiyyət kəsb edirdi. Kür-araz mədəniyyətinin son inkişaf mərhələsində artıq Azərbaycanın bütün dağlıq zonalarında - Xoşbulaq kurqanları və Xoləzək, İstisu yaylaqlarında yaşayış məskənləri) məskunlaşma başa çatmışdır. Orta tunc dövrü Azərbaycanda qədim incəsənətin çiçəklənmə mərhələsi hesab olunur. Saxsı qablar üzərində naxışlar çəkilmişdir.




Tapılan bu qablar incəsənətin yaranmasından xəbər verir. Qobustan Gəlinqaya və Kəlbəcərin digər ərazilərində qayaüstü rəsmlərdə heyvanat aləmi, məişət və ov səhnələri, əyləncə və Magiya (şamanlıq) təsvir olunub. Kəlbəcərdə ilk məskən salan albanların izləri də, onun qayaüstü təsvirlərində və küp qəbirlərində son illərə kimi qalmaq idi. Kəlbəcər antik dövrün abidəsi kimi də maraqlı ərazidir deyə bilərik. 1968-ci ildən Rayonun "Qaragöl" və "Zalxa gölləri" sahillərində, "Ayıçınqıllı" və "Pəriçınqıllı" dağlarında qayalarda həkk edilmiş təsvirlər öyrənilməyə başlanılıb. Kəlbəcər qaya təsvirlərinin yerləşdiyi ərazinin yaxınlığında Azərbaycanda ilk dəfə olaraq yaşayış yeri 1976-cı ildə aşkar edilib. Burada diametri təqribən 20 metr olan dairəvi tikili qalığı tapılmışdır. Mürəkkəb quruluşlu bu tikilinin divarları (qalınlığı 2 metrə qədər) qaya parçalarından və çay daşlarından hörülüb.

Kəlbəcər dağlıq ərazidir. Olduqca zəngin bölgələrimizdən biridir. Rayonun mərkəzi və şərq hissələrində enliyarpaq meşələr (palıd, vələs, fıstıq), meşə-çöl bitkiləri, yüksək və qismən orta dağlıqda isə alp və subalp çəmənlikləri yayılıb.Burada dağ keçisi, ular, cüyür, çöl donuzu, qonur ayı, daşlıq dələsi, toğlugötürən, qartal əsas heyvan və quş növləri yaşayır. Faydalı qazıntılarla zəngin olan Kəlbəcərdə qızıl, civə, çınqıl,mışar daşı, qum,mineral sular və.s mövcuddur. Böyük və Kiçik Alagöllər, Zalxagöl və Sərsəng su anbarı rayon ərazisindədir.

Kəlbəcər 1993-cü ilin aprel ayının 3-dən Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilib.

1993-cü il mart ayının 23-dən aprel ayının 3-dək 10 gündan çox gedən gərgin döyüşlərdə 701 saylı hərbi hissə, Kəlbəcər könüllüləri və helikopterçilər özlərindən 15 qat üstün olan düşmən qüvvələri ilə mühasirə şəraitində vuruşub.Nəticədə 450 nəfərdən çox döyüşçü şəhid olmuş və mühasirədə olan 60 min Kəlbəcərlinin təxliyyəsinə nail olunmuşdu. Döyüşdə həlak olmuş qəhrəmanlarımız Kəlbəcər torpağında yatır.

15 noyabr 2020-ci ildə ikinci Qarabağ müharibəsində isə doğma yurdumuz düşmənlərdən təmizlənib.

**Kəlbəcər Azərbaycandır! YAŞASIN AZƏRBAYCAN!**

**HAZIRLADI: BÜNYAMİN BÜNYADZADƏ**

---

*İlhami Cəfərsoy*

## MUŞOV DAĞI



***Murov kimi Muşov da yalnız dağ adı deyildir, arxaik bir Türk xalqının adıdır. Onlar er.əv.II minillikdə indiki Türkiyə ərazisində yaşayırdılar. Firon Ramzesin kitabəsində onlar Xettlərin düşmənlərindən biri kimi xatırlanırlar. Muşlar er.əv.XII əsrin ortalarında Xett dövləti süquta uğrayanda Van gölünün qərbində dövlət qurdular. Urartu ilə ittifaqda Assuriya ilə döyüşlərə başladılar. Dövlətin mərkəzi şəhəri Muş oldu. Mur qalası ilə müqayisədə Muş daha böyük şəhər idi. Mur etnonimi itə, Muş pişiyə totemik münasibətlə bağlıdır. Bu mifoloji düşüncə indi kiməsə gülməli görünə bilər. Nəzərə almaq lazımdır ki, at, it, pişik insanın ən qədim və sadiq dostlarıdır. İt olmasa, yırtıcılar ev heyvanlarını yeyərdilər. Pişik olmasa, siçovullar taxıl anbarlarını dağıdardılar. Oğuz və Aran mənşəli Misir fironlarının ehramlarIndan mumiyalanmış pişiklər tapılmışdır. Şəkildə həmin pişiklərdən birinin bütünü görürsünüz. Bütün boyunbağısı ləl-cəvahiratla bəzədilmişdir. Mahmud Kaşğari yazır ki, oğuzlar erkək pişiklərə çətük, çigillər muş deyirlər. Bəzi Avropa və rus tarixçiləri iddia edirlər ki, türklər Ön Asiyaya XI əsrdə gəliblər. Əgər onlar bilmirlərsə, er.əv.II-I minilliklərdə Van gölü ilə Göyçə gölünün arasında Mur və Muş adlı Türk dövlətləri olmuşdur, zəhmət olsa da, Misir piramida mətnlərini, yevrey əsilli alim Robert Bleyxşteynerin əsərlərini oxusunlar. Aşıq Ələsgərin bir şeirində pişik anlamında muş sözü vardır.***

***Muşlar pələng olmaz, tülkülər aslan,***
***Danalar meydanda kəl ola bilməz.***

***Toponimlər tariximizin çox qiymətli yadigarlarıdır. Mənası başa düşülmürsə, onları dəyişmək yox, elmi tədqiqatın obyektinə çevirmək lazımdır. Yəqin ki, ölkə başçımızın sərəncamından sonra bunlar nəzərə alınacaq, Dilçilik İnstitutunun Qədim Dillər şöbəsinə diqqət artırılacaqdır.***

***Bax: İlhami Cəfərsoy. Arilərin Türk mənşəyi. Bakı, 2017.***

---

## Xoruzu banladı, cəzasını yiyəsi çəkdi



**Almaniyada gündə təxminən 200 dəfə banlayan "Maqda" adlı xoruzun sahibi məhkəməyə verilib.**

Adalet.az xəbər verir ki, məlumatı "TRT Haber" yayıb.

Qeyd olunub ki, qonşular xoruzun səhər saat 8-dən gündə 200 dəfə banlamasının "işgəncə" kimi olduğunu bildiriblər.

Məlumata görə, "Maqda"nın sahibi 50 yaşlı Maykl toyuq saxladığı üçün xoruza ehtiyacı olduğunu söyləyərək özünü müdafiə edib: "Toyuqların xoruza ehtiyacı var. Yoxsa onlar bir-birlərini yolarlar". Maykl 2018-ci ildə bağçasındakı yumurtaları toplamaq üçün 5 cücə aldığını, ancaq onlardan birinin xoruz olduğunu bildirib.

**Eminquey**

---

## Zelenskidən xəbərdarlıq: Planlarımızı açıqlamayın!



**Ukrayna Prezidenti Vladimir Zelenski hərbi ekspertləri müdafiə planlarının təfərrüatını açıqlamamağa çağırıb.**

Dövlət başçısı bu barədə xalqa müraciətində bildirib.

"Ümumi qayda sadədir: müharibə, şübhəsiz ki, boşboğazlıq və səs-küylü bəyanatlar vaxtı deyil. Müdafiə planlarımız haqqında nə qədər az təfərrüat versəniz, bu, planların həyata keçirilməsi üçün bir o qədər yaxşı olar", - o deyib. "Arxanızda səs-küylü başlıqlar buraxmaq istəyirsinizsə, bu başqa məsələ. Açığı, məsuliyyətsizlikdir. Əgər Ukraynanın qələbəsini istəyirsinizsə, bu başqa məsələ və dövlətimizin müdafiə və ya əks-hücumlarda nəyə hazırlaşdığı barədə deyilən hər sözə görə öz məsuliyyətinizi hiss etməlisiniz", - Prezident əlavə edib.

**MEHRİBAN**

---

## Türkiyə Ukraynada "Akıncı" da istehsal edəcək

**"Baykar" şirkəti Ukraynada təkcə "Bayraqdar TB2" deyil, həm də "Akıncı" və "Qızılalma" PUA-larını istehsal edən zavod tikmək niyyətindədir.**

Bunu Türkiyənin "Baykar Makina" şirkətinin baş direktoru Haluk Bayraqdar deyib.

"Ukraynanı strateji tərəfdaş kimi görür, orada istehsal bazası yaratmaq istəyirik. Birgə layihələr üçün uzunmüddətli planlarımız var", - Bayraqdar bildirib.

**MEHRİBAN**



Əbülfət MƏDƏTOĞLU

# ADAM və adamlar

## Bu yanaşma müqayisəli də ola bilər

**Hər bir adam fərd olduğu kimi, həm də şəxsiyyətdi və bu şəxsiyyət də özündə fərdi keyfiyyətlər daşıyır. Yəni bu həm fərddi, həm də fərdilik daşıyıcısıdır. Ona görə də biz ,bəzən adam içində adam axtarırıq. Adamları bir-biri ilə müqayisə edirik. Hətta bəzən adamsızlaşırıq. Çünki bizim ruhumuzun, bizim qəlbimizin, bizim düşüncəmizin adamı yanımızda olmayanda, biz həqiqətən ,adamsızlaşırıq. Bax, onda nə qədər toparlanmağa çalışsan da, özünü ələ ala bilmirsən. Sıxıntı, tənhalıq, ümidsizlik, ətrafa laqeydlik, daha nələr, nələr hakim olur varlığına. Səni sürüyür dalınca. Sən onu yox, o səni idarə edir...**

Bütün bunlar həyatın real səhnəsi, həm də fəlsəfəsidi. Sadəcə hərəmiz onu başqa cür anlayır, fərqli bucaq altında görür, fərqli də dəyərləndiririk, amma ...obyekt isə eynidir.! Ona görə də rəngarənglik alınır. Bu rəngarənglik fondu, bər-bəzəkdi, nəbilim hardasa, mənim düşüncəmə görə , özünə təsəllidi, gerçək isə o obyektin mahiyyətidi. Yəni insan adam balası adam deyilsə, onun sayının çoxluğu, onun təlxəkliyi, onun imkanları heç nəyi dəyişmir. Bu, şair baxışında, duyğusal adamın nəzərində belədi. Çünki duyğu adamları alt qatlara nüfuz etməyə, insanın iç dünyasını görməyə cəhdlər edir, ona çalışır və bəzən də görə də bilir. Özü də büs-bütünlüklə. Həmin bütünlük də kimin ADAM, kimin isə adam olduğunu göstərir. Bax, bu məqamda...



Azərbaycan oxucusunun çox böyük sevgi və sayqıyla dəyərləndirdiyi, əzizlədiyi, xalqın şairi hesab etdiyi Ramiz Rövşənin bu mövzuda bir-birindən maraqlı şeirləri, fikirləri var. Elə günlərdən bəri içimdə dolaşdırdığım mövzunun ip ucunu da mənə məhz xalq şairi Ramiz Rövşən verdi. "NƏFƏS kitablar kitabı"nı vərəqləyirdim. Diqqətimi çəkən misralar məni həmin o adamsızlıqdan xilas olmağa, adamlı məkana qayıtmağa kömək etdi. Ramiz Rövşən yazmışdı ki:

***Gəzər küçələri, gəzər tinləri,***
***Səhərdən axşama təkdi bu adam.***
***Fil çəkə bilməzdi o çəkənləri,***
***İlahi, gör nələr çəkdi bu adam!..***

Həqiqətən də ADAM dağın da çəkdiyini çəkir, filin də çəkdiyini çəkir, dəvənin də çəkdiyini çəkir. Bir elin-obanın, bir millətin də çəkdiyini fərd olaraq çəkə bilir. Çünki o, ADAMdı! Bax, elə bu adamın gücü, dözümü, bacarığı cəlbedici olduğu qədər də düşündürücüdü. Mən də içimdə gəzdirdiyimi, xəyalımda dolaşdırdığımı məhz bu ADAMın nəzərləri ilə dəyərləndirməyə çalışıram. Həmin ADAMın gözləri ilə seyr edir, onun əxlaqı və məntiqi ilə qiymətləndirirəm və deyirəm ki:

***Kimin səsini boğursan,***
***Səsi boğulası adam!***
***Hər gün - cəzalılar kimi -***
***Ölüb, doğulası adam...***

Həqiqətən, haqsızın-haqlını, günahkarın-günahsızı, əyrinin düzü, oğrunun halalı və sairə qəbildən olanların ittihamı heç vaxt sakit və həm də normal qarşılanmayıb. Əksinə o ADAMlarda qıcıq yaradıb, nitfrət doğurub. Və bəzən hətta savaşa, çəkişmələrə gətirib çıxarıbdı. Çünki səsi boğulmalı olan, cəza almalı olan kükrəyir, bağırır, cəza verir. Bu, ən azından vicdansızlıq, Allahsızlıqdır. Təəssüf ki, zamanımızda bu, artıq adiləşmiş bir yaşamdı. Həmin yaşandan baxanda fikirləşirsən ki:

***Ürəyi sızladı dost yarasından,***
***Xəbəri olmadı öz yarasından.***
***Uçulan evinin xarabasında***
***Özgəyə təzə ev tikdi bu adam.***

Görün insan, yəni həmin o ADAM nəyə qadirdi, nəyi bacarır, nəyin altına çiyin verir. Bunu görə bilsəniz, ən azından ADAMlıq duyğularınız oyanacaq və sizi də oyadacaqdır. Təəssüf ki, bu həmişə arzu olur, istək olur. Elə arzu və istək kimi də qalır. Olsa-olsa yüzdən biri bu missiyanın daşıyıcısına çevrilə bilir. Yumşaq desək özünü bu oda atır. Onda da verilən qiymət, göstərilən münasibət öz alabəzəkliyi ilə sıxıntı yaradır və mən bu sıxıntının içərisində deyirəm ki:

***Yoxdu oxşarın, tipin də***
***Qandı qatlanan cibində.***
***Üzünə quyu dibində -***
***Enib, baxılası adam.***

Harda olmağından, hansı işi görməyindən asılı olmayaraq ADAM hər zaman diqqət çəkib. Və o diqqət içdən gəlibsə, səmimi olubsa, bu ADAM üçün mükafat sayılıb. Əksinə olanda isə həmin o baxış nöqtəsində bu işin sahibi kiçilib və olub adam. Bunun bariz nümunəsi həyatımızda yetərincə var. Var olanı görmək həm insanlıqdı, həm də həyata münasibətin qiymətləndirilməsidir. Amma neyləyək ki, yaxınlaşdıqca, az qala nəfəsini üz-gözündə duymaq nöqtəsinə gəlib çatana qədər içi görünməyən manqurtlaşmış, maskalanmış adamlar diqqəti, duyğuları çəkir və aldadır. Bu aldanış həm sınmaqdı, həm də ağrımaqdı. Mən də bunu yaşamış, bunu duymuşlardan biri kimi öz-özümə pıçıldamışam:

***Gizli, həm aşkar çalışıb,***
***Tor qurub, küfür danışıb,***
***Özü özündən alışıb -***
***Yanıb-yaxılası adam.***

Öz dünyası olan və o dünyada da özünü həm mütləq hakim, həm də sıravi bəndə hesab edən ADAM-ın ətrafa ötürdüyü impulslar o zaman qəbul olunur ki, o hakimliklə sıravi bəndəlik eyni çəkidə, eyni ölçüdə, eyni tutumdadı. Bərabərlik ortada olduğundan nə şübhəyə yer qalmır, nə yanılmağa, nə də digər hansısa fəsadlara. Bax, xoşbəxtlik də, yəni bir ADAM olaraq qazanılan sayqı da, diqqət də həmin o bərabərliyin üstündə qurulan uca bina kimidi. Bünövrəsi, özülü möhkəm olduğundan həm diqqətdədi, həm də hər kəs üçün doğma və arzulanandır. Təbii ki, diqqət və doğmalıq özü-özündən yaranmır. Onu məhz həmin ADAMın böyük ürəyi, böyük əxlaqı yaradır. Bu mənada ADAM özü-özüylə danışanda, özü-özünə baxanda, özü-özünü kənardan izləyəndə sıxılmır. Nə gözlərini gizləmir, nə də özü gizlənmir. Çünki:

***Bu gün o adamı gördüm güzgüdə;***
***Yox-yox, mən deyiləm,***
***yox-yox, özgədi!..***
***İlahi, gör məni necə gizlədib,***
***elə güzgüdə də təkdi bu adam...***

Bəli, barəsində danışdığım, daha doğrusu, fikrimdə dolandırdığım adama gedən yolda Ramiz Rövşənin ADAMı təkcə yol nişan verən, səmt göstərən olmadı. O həm də tərəzinin bir gözündə dayanıb, ADAMı göstərdi. Və mən yaxınlaşıb o ADAM-la göz-gözə dayandıq. Susub üzümə baxan o ADAMın mənə dediyi bu oldu ki, "Səni rahatsız edən sənin və sənin timsalında cəmiyyətin yerində oturtmadığı, yerini göstərmədiyi adamlardır!".

Onunla razılaşdım və bu qənaətə gəldim ki:

***Qarşısına çıxılacaq,***
***Dar bir küncə sıxılacaq.***
***Bir gün özü yıxılacaq,***
***Hər gün yıxılası adam!***

**Mən sizinlə xalq şairi Ramiz Rövşənin bir şeirinin verdiyi imkan, yaratdığı şərait hesabına ADAM və adam barəsində fikirlərimi bölüşdüm. Bilmirəm, yanaşmam nə qədər doğru və ədalətlidi, amma dəqiq bildiyim budur ki, dünyada həqiqətən ADAM və adamlar var. Allah bizi ikincilərdən, yəni adamlardan qorusun.**

# Sevgisi də Polad olan...

## Bu sevgilər heç vaxt sarsılmır

**Onu təkcə yazıçı, publisist, şair kimi deyil, həm də insan kimi özümə çox doğma bilmişəm. Demək olar ki, "Azərbaycan" nəşriyyatında onunla keçən illərim həyatımın ən dayanıqlı, ən yaddaqalan və mən deyərdim ki, həm də ən güvənli illəri olubdur. O, şəxsən mənim üçün böyük qardaş, yaxşı dost və həm də ləyaqətli bir həmkar idi. Sözümüz-söhbətimiz, dağımız-aranımız, ailəyə-övlada münasibətimiz, həyata baxışımız da üst-üstə düşürdü. İkimiz də sakit, bir kənarda oturmağı, söhbət etməyi, dünyanın gəlişindən, gedişindən tutmuş evimizə, yazı-pozumuza qədər hər şey barəsində fikir bölüşməyi çox sevirdik. Sadəcə o, hərdən bir balaca mənə meydan verirdi və deyirdi ki, sən şair kimi sevgidən daha yaxşı yazırsan. Ardınca da əlavə edirdi ki, " Sənin sevən , ilham pəriləri ilə göz-gözə duran vaxtlarındı. Sevginin və gözəlliyin qədrini bil!"**

Bəli, mən onu demək olar ki, hər gün xatırlayıram və hər səhər doğmaların adına etdiyim duada onun da yeri var. Elə bu səhər də onu düşünə-düşünə kitab rəfimdən "Dəvənin quyruğu" kitabını götürdüm.... Bu kitabda onun şeirləri də yer alıb. Bir fəsildi burda şeirlər.

Hamısı da doğmalarına yazılmış ürək sözüdü, duyğuların ifadəsidi. Mən indi barəsində fikrimi ifadə etməyə çalışacağım bir şeiri təkrar-təkrar oxudum. Şeirin fonunda maraqlı bir rəsm də var. Bir qadının saçları arasından görünən sifətinin bir hissəsi, bir də arxa planda kölgə kimi bir oğlan. Bilmirəm, bu rəsmi çəkməyi o özü rəssamdan xahiş edib, yoxsa şeiri oxuyan rəssam bu şəkli çəkib?! Amma hər iki halda çox uğurlu seçim edilib. Və mən...

Elə o kölgəsi görünən oğlanın yerində dayanıb o saçlarının arasından çöhrəsinin bir hissəsi görünən gözlərə baxa-baxa onun şeirini oxuyuram. O, yazır ki:

*Bir kimsə yox səndən qeyri*
*Baxsan, mənim ürəyimdə.*
*Həmişə tər bir çiçəksən,*
*Bağsan, mənim ürəyimdə.*

Bir anlıq özünüzü sevgi yaşında (mənim inancıma görə sevginin yaşı yoxdur! - Ə.M.) təsəvvür edin və elə o yaşda da sevdiyinizi kənardan müşahidə edərək hansı hisslər keçirəcəyinizi və yaxud keçirtdiyinizi xatırlayın, təsəvvür edin. Onda mütləq sizin gözünüzə ancaq o görünəcək və bu dünyada sizin ürəyiniz adlı bu məkanda ondan başqa kimsə olmayacaq. O çiçəklərin ən gözəli, gözəllərin mələyi kimi görünəcək gözünüzə. Çünki siz ona sevginizin gözü ilə baxırsız. Bu isə artıq bir ömrün başlanğıcı deməkdi, özdə fərqli və mənalı ömrün... Mən öz-özlüyümdə həmin ömrü məhəbbət, sevgi ömrü adlandırmışam. Və dünyada onun ən uzunömürlü olmasını Allahdan diləmişəm. Hətta gileylənib demişəm ki:

*İndi payız fəsli deyil, mən bilən*
*Bəs niyə tökülüb gülü, sevgimin?*
*Sazaqmı boylanan, qarmıdı gələn,*
*Soyuyub, üşüyüb külü sevgimin!*

Yəqin ki, bu misralardan sonra nə dediyimi, nəyə işarə vurduğumu siz də anladınız, duydunuz. Və ola bilsin ki, sizlərdən kimsə iç dünyasına çəkilib öz-özünə bu misraların daha qabarıq və daha içdən gələn formasını ürəyində səsləndiribdi. Mən bunu təbii qəbul edirəm. Çünki söhbət sevgidən gedir. Bax, bu məqamda mən şair dostumun hələ 40 il bundan öncə yazdığı və kitabında çap etdirdiyi misraların işığında onun da sevgisini görürəm. Onun niyə məhz bu şeirə həmin rəsmi sifariş verdiyini də anlayıram. O yazıb ki:

*Həyatında min bir tufan,*
*Sən - Yaradan, sən - Uçuran!*
*Zirvəsində Vüqar duran*
*Dağsan, mənim ürəyimdə.*



Zənnimcə, ürəyində Vüqar Dağı olan, ümid dağı olan sevgi dünyanın bütün ucalıqlarından uca, bütün gözəlliklərindən gözəldi. Ona görə də şair dostum o Vüqarı özünə həm sığınacaq, həm güvənc, həm ümid, həm də bütövlükdə həyat kimi qəbul edib. Şükürlər olsun ki, onun bu qərarı özünü elə həyatda da təsdiqləyibdi. Təsdiqini tapan sevgi isə büdrəyən, yıxılan, yarı yolda qalan, tərk edilən sevgilərin önündən başını dik tutaraq keçir. Mən o sevgilərə sözün yaxşı mənasında həsəd aparmışam. Ona görə də yazmışam ki:

*Ümid didiklənib, kədər doğulub,*
*Ürəyə yüz yerdən xətər toxunub.*
*İçimdə hıçqırıb, səsi boğulub,*
*Elə bil tutulub dili sevgimin.*

Özünü ifadə edə bilməyən və yaxud da etmək istəməyən sevginin yeri ürək olsa da, o ürək günün birində yaşamına nöqtə qoyur. Söhbət burda həm fiziki, yəni fizioloji, həm də mənəvi yanaşmadan gedir. Ola bilsin ki, ürək döyünsün, amma o döyüntü nəyi ifadə edir, o döyüntü nə üçündür, kimin üçündür? Bax, elə bu sualın cavabı artıq ürəyin yaşayıb-yaşamadığını göstərir. Şair dostum mənim qabartdığım sualların cavabını özünün Vüqarlı sevgisi ilə ifadə edir. O sevgi də bu cür misralanır:

*Mən gedərəm piran kimi,*
*Qabağında qurban kimi.*
*İldırımlı leysan kimi -*
*Yağ sən, mənim ürəyimdə.*

Bəli, bütün hallarda öndə olmaq, piran olmaq, bütün çətinliklərdən qalib çıxmaq dəyanətli, dözümlü olanların, sevgisini vüqara çevirənlərin işidi. Necə deyərlər, bir mərd gözəlin, bir mərd aşiqin bərabərliyi qələbənin rəhnidi, təminatçısıdı. Onunla vuruşmaq, ona qalib gəlmək heç də asan deyil. Axı ürəklər bir vurur! Mən də o bir vuran ürəyin sevgisinə bir Məcnunluqla yanaşaraq, öz-özümə deyirəm ki:

*Dünyaya sevinib gülməyə gəldi,*
*Qarğışa tuş olub, gülləyə gəldi.*
*Anlaya bilməmiş gül nəyə gəldi,*
*Döydü qapımızı ili sevgimin...*

Həqiqətən, niyə, nə üçün sualları ağırdı, çətindi. Xüsusilə, sevgidə. Biz hər birimiz yaşadığımız sevginini niyə və nə üçününü çözə-çözə, öyrənə-öyrənə sevgimizlə bərabər ucalır və bu ucalıqdan qürurla zövq alırıq. Özümüzün iç dünyamızın özəlliklərini bir-birini tamamlayan varlıq kimi qəbul edirik. Məhz bu dediyim fikirlərin kökündə mən yazıçı, publisist, şair Poladın özünü gördüm. Və bir daha anladım ki, onun sevgisi də sarsılmazdı, adı kimi. Görünür, bunu başqalarına da xatırlatmaq üçün Polad yazıb:

*Ey gözümün ovu, ilki!*
*Daim şad ol, daim gül ki,*
*Polad yoxsa, onda bil ki,*
*Yoxsan, mənim ürəyimdə.*

Zaman axıb getsə də, biz içimizdəki sevgini ancaq boy ölçüsünü, artım gücünü hiss edəndə bir növ həm rahatlıq tapırıq, həm də xoşbəxtlik, həm güvən tapırıq, həm də ümidli arzulara qol açırıq. Deməli, bütün bu dediyim hallarda bizi yaşadan həmin o sevgi... Təəssüf ki, bəzən o adamı həyatdan da küsdürə bilir, ümidsizliyə, özünəqapanmaya da yönəldir.

Onda təklənmək, tənha qalmaq, heç kimin gözünə görünməmək, dörd divarla danışmaq, bir də xatirələri çözmək və nəhayət, yuxudan hövlnak oyanmaq... Bax, bunlar sirdaşımız olur. Mən də bu nöqtədə həmişə öz-özümə, indi isə sizə üz tutmuşam:

*Əbülfət, güvəncin ötən an olub,*
*Sənin ağladığın quru can olub.*
*Bu qəfil gedişdən ruhun qan olub,*
*Çıxıbdı əlindən əli sevginin.*

Doğrudu, həyat davam edir. Sizinlə razılaşıram. Amma bu davam edən həyatda sevgi varsa, onun davam etməsi çox-çox gözəldi. Sevgi yoxdursa... fikrin davamını özünüz fikirləşin.

***P.S.*** ***Bu yazıda fikirlərimi bölüşdüyüm mərhum publisist, yazıçı - şair qardaşım, dostum Polad Qasımov idi.***

**Əbülfət MƏDƏTOĞLU**

# Göy üzündən gələn səs...

## Əli Hacı ilə söhbətlərimdən

**Çox qəribədi, indi adamlar yaşlarından, başlarından asılı olmayaraq dünyadan yorulmuş, bezmiş kimidilər. Kimi dindirirsən, kimdən hal-əhval tutursan mütləq köçməkdən, getməkdən, tərki-dünyalıqdan söz salır. Bu, əhval-ruhiyyə xüsusilə söz, ruh adamlarında ən yüksək çəkidə, ölçüdə, tutumdadı. Daha çox da şairlər ölümə, köçə üstünlük verirlər. Deməli, bu da ondan xəbər verir ki, dünya ya kiçikdi, ya da biz dünyadan böyüyük, sığışmırıq ona...**

Giriş kimi təqdim etdiyim bu fikirlərin arxasında özüm də dururam, ruh dostlarım da. Ruhən tez-tez qovuşduğum, görüşdüyüm Əli Hacı bu məqamda mənim ən yaxşı və ən sədaqətli həmsöhbətimdi. Günündən, saatından asılı olmyaraq izinsiz, filansız qoşuluram Əlinin ruhuna və başlayıram onunla könül söhbətinə. O söhbətlərin birində Əli Hacı mənə deyir ki:



***əlini ver, bu yoxluqdan***
***ağrısız bir yerə gedək.***
***dünyası yara görməyən***
***sarğısız bir yerə gedək!***

İndi deyin görüm, necə getməyəsən?! Necə sənə uzanan əli havada saxlayasan. Bu, mümkün deyil. Çünki dəvət olunduğum yer arzuladığım, uğrunda az qala sinov getdiyin yerdi, ağrısız, sarğısız, yalnız sevgi olan yer...Bunu da Əli mənə təklif edir, özüdə təkcə mənə yox, hamıya!

Və mən onun bu çağırışına səs vermək üçün çox da uzağa getmirəm, elə özümün indiki anda içərisində çabaladığım, var-gəl etdiyim dünyamın pəncərəsindən Əliyə tərəf baxıram. O mənim baxışlarımı sanki hiss edir, görür və elə o da mənim ovqatımda pıçıltıma qoşulur:

***uzaqdı aramız yaman***
***bir iynə boyu yol qədər.***
***qarışıq salıram inan -***
***bir yol sevinc, bir yol kədər...***

Düşünə bilərsiniz ki, aramız bir iynə boyu məsafədirsə, nədən bu qədər ağrıya yüklənirik, nədən bu qədər həsrətlə vuruşa-vuruşa vüsala tərəf getməyə güc sərf edirik. Amma yox. O məsafə könüldə o boydadı, həyatda isə bəlkə də bir gün, bir gecənin piyada ömründən də uzaqdı. Hələ mən sürətli vasitələri dilə gətirmirəm. Deməli, belə olan halda məsafəni unudub içində olduğun zamana üstünlük verməlisən. Çünki səni qovuşduran o xəyali zamandı. Mən də o zamanın içərisində ruh doğmamla dərdləşməklə onun istəyinə uyğun düşüncələrə üstünlük verirəm. Əslində isə o düşüncələr elə ikimizə də aiddi. Elə ikimiz də məhz o düşüncələrlə, o duyğularla zamanı öz boyumuza, daha doğrusu, arzumuzun, istəyimizin boyuna biçməyə çalışırıq. Ona görə də Əli yazır:

***uzansın qoy gecəmiz də***
***dincin alsın necəmizdən.***
***qalıbsa da ömrümüzdən***
***gedər olsaq, xeyrə gedək.***

Mən də hara gedəcəyimizi artıq bir istək olaraq bilirəm. Yəni işığa, xeyirə, vüsala, bir sözlə ruhumuzu, dərdimizi sevindirəcək ünvana!.. Nə qədər ki, o ünvana gedib çatmamışıq, həmişə ürəyimiz göynəyəcək, ruhumuz sızıldayacaq və əlimiz havada qalacaqdır. Bax, mən də elə o anın ilk impulslarını hiss edərək Əlinin ruhunun əks-sədası kimi sizə üz tuturam. Lap dəqiqi özümlə danışıram:

***əlim uzanır, əlinsə***
***baxır, üzümə gülümsə...***
***de ki, könlümə gəlibsən -***
***bir yol haqlı, bir yol hədər...***

Bütün həyatımız əyri və düzün, ədalət və haqsızlığın, doğru və yalanın mübarizəsinin həm iştirakçısı, həm də şahidi kimi ötüb gedir. Biz bu dediyim çalarların içərisində öz tarazlığımızı saxlamağa, öz mövqeyimizi qorumağa çalışırıq.

Bəzən bu mövqe üçün nələrdənsə imtina da edirik. Baxmayaraq ki, haqq bizim tərəfimizdə, bizim yanımızda olur. Amma neynəyək ki, bütün məqamlardan çıxış yolu aramaq və məqsədə daha az itki ilə, daha az ağrı ilə qovuşmaq amacımız içimizə hakimdi. Necə olur-olsun, haqqımızı yedirtməmək naminə qurban da veririk. Bax, onda Əli Hacının dediyi bir daha öz yerini təsdiqləyir. O, sizə və mənə deyir ki:

***daha qoca Fələyin də,***
***daş tökülmür ətəyindən.***
***çıxıb Tanrı köynəyindən***
***bu olmaqdan sirrə gedək.***

Mən bu bənddə söylənən gerçəkliyi qəbul etməklə yanaşı, onun məntiq və fikir qatına da tabe oluram. Birmənalı olaraq fələyin öz işini yorulmadan davam etdirdiyini, tanrının isə ətəyinin bizim əlimizdən çox uzaq olduğunu qəbul edərək təkcə öz bildiyim kimi yox, həm də ruh dostlarımın məndə yaratdığı ovqatın dediyi üslubda öz şeirinin sonunu açıqlayıram:

***dolan gözlərim quyudu***
***dibi Xəzərin suyudu...***
***mənə bu yolu buyurdu -***
***bir yol taleh, bir yol qədər!***

Bəli, könül dostum Əli Hacı ilə söhbətləşə-söhbətləşə gəlib çatdım sözümün sonuna.

**Sonda oxucularıma demək istəyirəm ki, ruh adamları öz dünyalarında daha rahat və daha çox özləri olurlar. Ona görə də ruhumuzun səsini eşitməkdən bezməyin. O səs həm də göy üzündən gəlir!..**

**Əbülfət MƏDƏTOĞLU**

# CƏNNƏT ADAMI

***Mən yer üzündə müəllimdən yüksək ad tanımıram.***

***Ümummilli lider Heydər Əliyev***

**Dünyada gözəl, nəcib peşələr çoxdur. Fəqət bütün peşələrin fövqündə dayanan müqəddəs bir peşə var. Bu müəllimlikdir.**

Müəllimlər həyatını xalqının işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahibləridir. Bu peşə sahibləri öz biliyi və əməlləri ilə cəmiyyətin inkişafına töhfələr verirlər. Məhz buna görə də müəllim əməyinin bənzəri yoxdur. Müəllim əməyi, sözün əsl mənasında, fədakarlıq nümunəsidir. Bu bir həqiqətdir ki, bütün dövrlərdə bu peşə sahiblərinin üzərinə böyük vəzifələr düşüb. İnsanlara bilik vermək, elm öyrətmək kimi mühüm vəzifənin öhdəsindən onlar gəlib.

Bu da bir danılmaz gerçəklikdir ki, müəllimlər elm-bilik xəzinəsinin qapılarını insanların üzünə açan bir varlıq olaraq, onların hər birimizin həyatında danılmaz əməyi var. Bu əməyin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir.

Həmin insanlar isə cəmiyyəti daha da inkişaf etdirir. Bu əzəmətli peşənin adını şərəflə daşıyan müəllimlərdən biri də 40 ildən artıq pedaqoji fəaliyyətlə məşqul olan, ömrünün 70 illik zirvəsinə qədəm qoysa da, bu gün də yorulmadan öz biliyi və əməlləri ilə cəmiyyətin inkişafına töhfələr verən respublikamızın əməkdar müəllimi Məmmədrza Əsgərovdur.

Məmmədrza Əsgərov 1952-ci ilin avqust ayında Neftçala rayonunun Bankə qəsəbəsində anadan olub. Qəsəbədəki 1 saylı orta məktəbi bitirdikdən sonra min bir zəhmətə qatlaşaraq halal qazancı ilə ailəsini dolandıran fəflə atası Qulam kişinin arzusunu gerçəkləşdirərək müəllimlik peşəsini seçib və 1978-ci ildə V.İ.Lenin adına Azərbaycan Prdaqoji İnstitutunun (indiki N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti) riyaziyyat fakültəsini bitirib.

Ali məktəbi bitirdikdən sonra Məmmədrza Əsgərov təyinatı üzrə Salyan rayonunun Xıdırlı kənd məktəbində pedaqoji fəaliyyətə başlayıb.

İki ildən sonra Bakıya köçərək Buzovna qəsəbəsindəki Vərəm sanatoriyasının nəzdindəki məktəbdə, daha sonra isə Xətai rayonundakı 63 saylı orta məktəbdə müəllimlik fəaliyyətini davam etdirib.

Gələcəyin gənclərin, gənclərin isə müəllimlərin əsəri sayan Məmmədrza Əsgərov 2001-ci ildən bu günə kimi Xəzər Universitetinin nəzdindəki "Dünya" Məktəbində çalışır. O, 45 ilə yaxındır ki, bənzərsiz saydığı pedaqoji aləmin ağuşunda həyatını bu yola sərf edərək şagirdlərinin riyaziyyat eiminin dərinliklərinin mənimsənilməsinə gərgin əmək sərf etməklə yanaşı, gənclərin savadlı, sərbəst düşüncəli və öz mövqeyi olan şəxsiyyət kimi formalaması, xalqımıza layiq vətəndaşların yetişməsi üçün gərgin əmək sərf edib, Azərbaycanın xoşbəxt gələcəyi üçün bir müəllim kimi tam səfərbər olub. Böyük M.K.Atatürkün "Müəllim bir şama bənzər, özünü əridərək başqalarına işıq verər" müdrik kəlamı məhz Məmmədrza Əsgərov kimi müəllimlərə ünvanlanıb, desək yanılmarıq. Bəli, sözün həqiqi mənasında Məmmədrza Əsgərov kimi fədakar pedaqoqun ürəyinin hərarətindən, gözünün nurundan, zəkasının kamilliyindən yüzlərlə Azərbaycan gəncinə pay düşüb. O, yüksək əxlaqi keyfiyyətləri, təmənnasızlığı, insanlara qayğıkeş münasibəti, sadəliyi, təvazökarlığı, prinsiplərinə sadiqliyi ilə daim ətrafındakıların yüksək rəğbətini, ehtiramını qazanıb.



Yetirmələrinin Azərbaycanın, həmçinin xarici ölkələrin aparıcı müəssisələrindən xoş sorağı gələn Məmmədrza Əsgərov ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması, təsdiqlənməsi və nəşri istiqamətində həyata keçirilən işlərdə də yaxından iştirak edib.

Xalqın zəngin mənəviyyatını, əxlaqını parlaq şəxsiyyətlərində ehtiva edərək, ləyaqət və şərəf hissinin yetərli qədər qoruyub saxlayaraq müdriklik zirvəsinə yüksəlmiş, mənalı ömrünü bütövlükdə gələcək nəslin maariflənməsinə həsr etmiş Məmmədrza Əsgərovun xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 01 oktyabr 2012-ci il tarixi sərəncamı ilə Məmmədrza Əsgərova "Əməkdar müəllim" fəxri adı verilib.

Məmmədrza Əsgərov ləyaqətli ailə başçısı kimi də qəlblərdə təxt qurub. Əməkdar müəllim həyat amalını maddiyyata sahib olmaq kimi dar məqsədlər üzərində qurmayan, cəmiyyətin intibahına, mənəvi yüksəlişinə çalışan, müstəqil düşüncəsi, azad dünyagörüşü ilə sevilir.

Hər bir şəxsiyyətin kamillik səviyyəsi təkcə qarşıya qoyduğu nəcib amal və məqsədlərdə, saf niyyətlərdə deyil, həm də özündən sonra layiqli davamçılar yetişdirmək əzmində ifadə olunur. Ləyaqətli ailə başçısı olan Məmmədrza Əsgərov ömür-gün yoldaşı Familə xanımla birgə övladlarını da milli təfəkkür, milli kök, ulularımızdan ərmağan qalmış əsl azərbaycanlı adət-ənənələri üzərində qərar tutan saf ailə mühitində tərbiyə edib.

**Əməkdar müəllim Məmmədrza Əsgərov da pedaqoyi fəaliyyəti ilə kamil və yetkin şəxsiyyət olmaqla yanaşı, həm də son dərəcə qayğıkeş və diqqətcil ailə başçısı kimi cəmiyyət üçün layiqli vətəndaş kimi yetişdirdiyi üç qız övladı onun şəxsiyyətinin ucalığını əməllərində ləyaqətlə qoruyurlar. Məhəmməd peyğəmbərin (s.ə.s.) "Elm öyrənmək üçün dünyanın ən uzaq guşəsinə get", "Elmi beşikdən məzara qədər öyrənmək lazımdır", "Elmə sərf olunan vaxt, namaza sərf olunan vaxtdan qiymətlidir", "Elm öyrənmək hər bir müsəlman üçün vacibdir", "İnsan elmlə xoşbəxtliyin zirvəsinə və layiqli məqama çatır" kimi çox dəyərli kəlamlarından güc alan Məmmədrza Əsgərov üç qız övladına ali təhsil verib, onları cəmiyyətimiz üçün ləyaqətli vətəndaş kimi formalaşdırıb. Qızlarından Ruhiyyə mühəndis, Ceyran həkim, Nigar isə müəllim ixtisasına yiyələnib. Ən başlıcası isə Məmmədrza Əsgərov ən yüksək əxlaqi dəyərlərlə üç qız övladını nümunəvi ailələrimizin xanımı, anası kimi yetişdirib. Beləcə, Məmmədrza Əsgərov cənnət adamı olub. Sevgili Peyğəmbərimizin (s.ə.s.) buyurduğu kimi - "Üç qız övladını gözəl əxlaqla böyüdən və ailə qurmalarını təmin edən valideyn cənnətlikdir."**

**Hikmət Xudiyev,**
**Əməkdar jurnalist,**
**tarix üzrə fəlsəfə**
**doktoru, istefada olan polkovnik**

№ 31 (2305) 13 avqust 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Hollandiyadan görünən Qarabağ

***Ölkəmiz bədnam qonşumuz Ermənistan tərəfindən təcavüzə məruz qalandan sonra Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması məsələsi böyük önəm daşıyıb. Müstəqilliyini ilk illərində səriştəsiz rəhbərliyin xarici siyasətdə yol verdiyi bir çox başqa yanlışlıqlar kimi, bu məsələdə də irəliləyiş olmayıb. Yalnız 1993-cü ildə Ümummilli lider Heydər Əliyev Azərbaycanda xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdandan sonra informasiya mübarizəsi artıq silahlı mübarizəyə alternativ kimi qiymətləndirilib. Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 2020-ci ilin payızında qazanılan və torpaqlarımızın işğaldan qurtulması ilə nəticələnən Vətən müharibəsində aşkar göründü ki, biz düşməndən təkcə ordumuzun gücü ilə, xalq - iqtidar birliyi ilə deyil, həm də informasiya savaşında, "hücum diplomatiyası" üstünük. İndi, artıq ərazi bütövlüyümüzü təmin etsək də, informasiya savaşının əhəmiyyəti qətiyyən azalmayıb, əksinə, artıb. Çünki qarşıda hələ görüləsi xeyli iş, təslim olmuş Ermənistanı sülhə, Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyə məcbur etmək hədəfimiz var. Ona görə də bu müstəvidə həyata keçirilən dövlət siyasətinə xaricdə yaşayan soydaşlarımızın dəstək verməsi olduqca vacibdir. Bu nöqteyi-nəzərdən, öz imkanları hesabına Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işinə töhfə verən həmvətənlərimizin sayları alqışa, tərənnümə layiqdir. "Ədalət" qəzetinin bugünkü müsahibi Hollandiyanın Utrext əyalətində yaşayan xanım soydaşımız, fəal diaspora xadimi, Belçika-Niderland Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi, Niderlandda fəaliyyət göstərən "Birlikdə Güclüyük" Fondunun təsisçisi və həmsədri, şəhid bacısı İlkanə Qocadır.***

**- İlkanə xanım, daha qaçqın, məcburi köçkün deyilsiniz. Sizcə, bu necə bir hissdir?**

- Bu hələ də izzah olunmaz bir hissdir. Mən 23 iyul 1993-cü ildə Bakıda avtobusda getdiyim vaxt Ağdamın işğal olunması xəbərini eşitdim. Mənzil başına çatmamış elə növbəti dayanacaqda avtobusdan endim. Sanki donmuşdum, nə ağlaya bilirdim, nə də nəfəs ala bilirdim. "Ayağımın altından yer qaçmışdı" sözünü eşitmişdim, lakin nə olduğunu bilmirdim. O an isə ayağımın altında artıq yer yox idi. Sanki amansız bir zəlzələ gəlib köklərimi qoparmışdı və mən artıq köksüz bir ağacdım. Ayağım yerə yapışmırdı, susuz səhrada qalan bir kol kimi ruhən çırpınırdım... Bir yaşlı qadın mənə yaxınlaşıb soruşdu: "- Qızım, Sizə nə olub ki, belə çaşqın və bəmbəyazsınız?" " - Xala, evimizi ermənilər işgal etdi" - dedim və yoluma davam etdim, donuq və içim param - parça olan halda...

Daha sonra 18 aprel 1994-cü ildə qardaşım Teymur Yusifovu, Gullucə Cəvahirli ətrafında gedən amansiz döyüşlərdə itirdik. Məndən bir yaş kiçik idi. 18 yaşı təzə tamam olmuşdu. Daha da sarsıldım. Urəyimdəki buz parçası daha da böyüdü. "Yəqin, artıq bu buz ərimaz" - düşündüm.

İllər boyu bu donuq, buz bağlamış ürəyimi isitməyə çalışdım, qardaşımın nail ola bilmədiklərini etməklə, Ağdamı daima yaşatmaq üçün onu tanıtmaqla. Amma olmurdu. Tez - tez yuxularıma gəlirdi, Qarabağ və qurduğumuz xəyallar haqqında onun çox sevdiyi və məni tez - tez yuxularımda dəvət etdiyi gözəl bir bağda danışırdıq.

2020-ci ilin avqust ayında Fransada idik. Mənə Ağdamı xatırladan bir yerə getdik, heç özümüz də bilmədik necə. Naviqasiya bizi yanlış aparmışdı. Yerin adı yadımda deyil artıq. Və gecə yuxuma yenə də qardaşım girdi və mənə Ağdam istiqamətini göstərdi. Mütləq nəsə olacağını anlamışdım yuxularımdan. Çox qorxurdum. Artıq bizə bəlli olan 44 günlük müharibədə mən və həyat yoldaşım yatmadıq. Gəncə faciələrini də, Bərdə faciələrini də canlı izlədik. Durmadan Niderland və Avropa birliyi parlamentinə, nazirliklərə, media outletlərinə yazdıq. Hər gün bir şad xəbər eşitdikcə, azad olunmuş torpaqların şad xəbəri məni sevindirsə də, itirdiyimiz şəhidlərimizə ağladıq çiyin-çiyinə. Heç mən holland mənşəli olan həyat yoldaşımın bu illər boyu Azərbaycana sevgisinin bu qədər olduğunu bilmirdim. Və nəhayyət o gün gəldi - 20 noyabr 2020 - ci il. Möhtərəm cənab Prezident Ağdamın işgaldan azad edildiyini elan etdi. Övladlarım da, yoldaşım da "ura!" - deyib bağırdılar, sevinirdilər. Lakin mən sanki 27 il əvvələ dönmüşdüm. Bir qulağımda "Ağdam şəhəri işğal olundu" xəbəri xəfifcə səslənsə də, digər qulağımda "Ağdam işğaldan azad olundu" xəbəri daha da güclənirdi. Sanki cənab Prezidentin səsinin sədaları altında donmuş ürəyimin buzu əriyirdi. Və mən qeyri - iradi olaraq pıçıldadım: "Mən artıq qaçqın deyiləm". Və ağladım, həm də günlərcə. Ürəyim çox atlanırdı Ağdama getməyə. Hətta bəlkə qardaşım yaşayır və elə oradaca evimizdə oturub məni gəzləyir deyə. "Uşaqlıqda qurduğumuz xəyalların ardınca indi qaça bilsək nə olardı" deyə fikirlər də keçirdi beynimdən. Yaşımı belə unutmuşdum. O günləri yaşayırdım. Sanki hər şey dünən olmuşdu və biz həyatı 27 il əvvəl qoyduğumuz yerdən də başlayacaqdıq. Və "biz artıq qaçqın deyilik" deyəcəkdik bir yerdə...




Pandemiya ilə bağlı olaraq mən düz 11 ay gözlədim. Günlərimi, aylarımı saydım. Amma boş da durmadım. 2020-ci ilin dekabr ayından başlayaraq qazilərə və şəhid ailələrinə onlayn təmənnasız yardım etdim, psixo-sosial dəstək məqsədi ilə seanslar verdim. Müharibənin fəsadı olan "kompleks post - travmatik sindromu" mövzusunda dəfələrlə vebinarlar və onlayn görüşlər keçirdik. Bir neçə fərqli layihələri də həyata keçirdim.

Azərbaycana gəlmək imkanı yaranan kimi ölkəmizə səfər etdim. 28 oktyabr 2021-ci ildə ilk dəfə olaraq 27 ildən sonra evimizə gedə bildim. Gördüklərimə inanmadım. Ağdamda ilk patrul xidməti postuna çatanda maşından düşdüm. Ayağım Ağdam torpagına dəydi və sanki itirdiyim o köklər geri - yerinə döndü. Sanki torpaq ayaqlarımı qucaqlayırdı, mən isə onun dərinliklərinə batırdım... Evimizi tapa bilmədim, amma köklərimi, torpagımı, dəyərimi tapdım. Sanki ürəyimin təpəri artdı və o buzlar əriməyə başladı, həm də necə...

**- Vətən müharibəsində əldə olunan qələbədən sonra təmsil etdiyiniz qurumların fəaliyyətində hansı yeni istiqamətlər müəyyənləşib?**

- Son 3 ildə Azərbaycan həqiqqətlərinin yayılması üçün çox layihələr təşəbbüs edib həyata keçirmişəm. Bildiyiniz kimi, "Birlikdə Güclüyük" Fondu təsis etmişəm və mən də həmsədrəm. Məqsədimiz Azərbaycanı Niderlandda müxtəlif təbəqələrdə tanıtmaq və Niderlandda yaşayan, inteqrasiyaya ehtiyacı olan insanlara dəstək verməkdir. Eləcə də gənc nəslə, övladlarımıza milli, mədəni irsimiz, tarixi-miz və mədəniyyətimiz haqqında biliklərin ötürülməsidir. Buraya həm də Qarabağa aid olan son yüz ildə xalqımızın yaşadıqları da daxildir.

**- Ümumiyyətlə, II Qarabağ müharibəsi zamanı və ondan sonra hollandların Azərbaycana, azərbaycanlılara münasibətində əvvəlkindən fərqli nələri müşahidə etmisiniz?**

- Niderlandda Azərbaycan haqqında çox mənfi fikir formalaşıb. Bunun bir neçə səbəbi var: icmanın gənc olması, 90-cı illərdə Avropaya mühacir olunmuş insanların Azərbaycan haqqında çox neqativ, hətta bəzən heç həqiqətə uyğun olmayan məlumatların verməsi, icma stategiyasının olmaması və ya düzgün seçilməməsi, Azərbaycan icmasına Niderlandda oz müqəddaratını seçmək imkanının verilməməsi, gənc nəslə məlumatın çatdırılmaması və sairə.

Bunlara baxmayaraq, muharibə dövründə gənclərimiz çox aktiv idi və çox kömək etdilər bizə. Düzünü desək, Azərbaycan haqqında ermənilər və bəzi müxalifyönümlü insanlar tərəfindən mənfi propoqanda getdiyindən, bizi daha cox "Formula - 1" və musiqi festivalı ilə tanıyırlar. Biz isə ətrafımıza daima Azərbaycan haqqında lazımi məlumatlar veririk. Bu məqsədlə gələcək layihələr də nəzərdə tutmuşuq.

**- Dünya Azərbaycanlılarının V Qurultayının əhəmiyyəti barədə, tədbirdən irəli gələn vəzifələrin Niderlandda yaşayan soydaşlarımıza çatdırılması yönündə görülən işlər haqqında nə deyə bilərsiniz?**

- Bildiyiniz kimi, mən Utrext vilayətində yaşayıram və burada olan icma üzvləri ilə də fikir mübadilələri aparırıq. Ən əsası, övladlarımıza milli dəyərlərimizin öyrədilməsi, Azərbaycan dilinin öyrədilməsidir. Biz artıq bu istiqamətdə bəzi işlərə başlamışıq. Bir neçə layihələrin artıq müzakirəsini edirik. Bu haqda inşallah, bu yaxınlarda daha ətraflı məlumatlar verərik.

**- Əlaqələndiricisi olduğunuz Nideraland Azərbaycanlıları Koordinasiya Şurası, təsis etdiyiniz və həmsədri olduğunuz "Birlikdə Güclüyük" Fondu, eləcə də yaşadığınız Utrext əyalətindəki Azərbaycan icması 28 May - Müstəqillik Gününə necə hazırlaşır? Təmsil etdiyiniz bu qurumların yaxın gələcəklə bağlı hansı planları var?**

- Fürsətdən istifadə edib mənə verdiyiniz tribunadan bütün Azərbaycan xalqını, dünya Azərbaycanlılarını 28 May - Müstəqillik Gü-nü münasibətilə təbrik edirəm. Qeyd etdiyiniz kimi, mən artıq Ağdama iki dəfə səyahət etmişəm. Bu da elə "Birlikdə Güclüyük" Fondunun bir layihəsidir. İlk səfərimdə mənimlə heç bir jurnalist getmədi və mən çəkiliş edə bilmədim. Son səfərimdə isə, 29 aprel 2022-ci ildə mən Ağdama operatorla getdim və biz çəkiliş etdik. Bu, Niderland Krallığında həyatə keçiriləcək bir layihə üçün nəzərdə tutulan məlumatların toplanması məqsədi daşıyırdı. Hal - hazirda layihə ilə məşğul olduğumuz üçün bizim təşkilat 28 May - Müstəqillik Gününü ayrıca qeyd etməyəcək və biz Azərbaycan Respublikasının Niderland Krallığında olan səfirliyinin keçirdiyi tədbirə dəvətliyik. Bu yaxınlarda yuxarıda qeyd etdiyimiz layihənin nəticələri açıqlanacaq və biz növbəti addımları da izah edəcəyik.

Onu da əlavə edim, biz ilk dəfə olaraq yazıçı - publisist İradə Əliyeva tərəfindən yazılmış "Xocalı şahidləri danışır" kitabını holland dilinə tərcümə edib çap etdirmişik və "Xocalıya Ədalət!" şüarı altında holland dilində vebsayt https://justiceforkhojaly.nl yaratmışıq. Bunlar bizim davamlı və uzunmüddətli layihələrimizdir. Digər kitabların da tərcüməsi ilə məşğuluq.

Biz son 3 ildə çoxsaylı layihələr həyata keçirmişik və hamısını da öz şəxsi hesabımızdan maliyyələşdirmişik. Lakin bildiyiniz kimi, bizim gördüyümüz bütün bu işlərə heç bir yerdən dəstək olmadığı üçün işlərimiz bir az ləng gedir. Bu işlərin hamısını biz bu günə qədər öz ailə budcəmizdən kəsib etmişik. Ümid edirəm, xeyriyyəçilər arasında da bizə bu yolda dəstək edənlər tapılacaq.

Hal-hazırda "Xocalı Şahidləri danışır" kitabını bizdən istəyən çoxdur, lakin maliyyə problemi üzündən əlavə nəşri bir az gözləmək məcburiyyətindəyik. Ümid edirəm, bu yazını dövlət orqanları tərəfindən oxuyub bizim səsimizə səs verənlər olacaq. Çünki gənclərimiz arasında kitabı əldə etmək istəyən çox insanlar var.

Əlbəttə, planlarımız da çoxdur. Əsas məqsəd isə Azərbaycan haqqında daha çox və düzgün məlumatların Niderland cəmiyyətinə və Niderlandda doğulub - boyuyən Azərbaycan əsilli gənclərə çatdırılmasıdır.

***

***İlkanə xanıma işlərində müvəffəqiyyət arzulayıb növbəti dəfə Ağdamda görüşmək ümidi ilə sağollaşıb onlayn-müsahibədən ayrıldıq. İnanırıq ki, bu fədakar diaspora xadiminin, qeyrətli Azərbaycan qadınının nümunəvi, örnək fəaliyyətinə dəstək verənlərin sayı artacaq.***

***"Ədalət"***

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

**Mirvarid Dilbazi 110**

# Leyli də, Şirin də, Zöhrə də mənəm



*Ramiz Göyüş*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

**Bu ilin avqust ayında klassik Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri, Azərbaycanın ilk qadın Xalq şairi Mirvarid Dilbazinin anadan olmasının 110 ili tamam olur.**

(İxtisarla)

...Səmimi etiraf edim ki, Mirvarid xanımın yaradıcılığına və şəxsiyyətinə nə qədər hörmət və məhəbbətim olsa da, onun yaradıcılığına müraciət etməmişdim. Elə bu səbəbdən də ədəbiyyat dostlarımdan biri- "Mirvarrid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin rəhbəri, dəyərli söz adamı Güllü Eldar Tomaroğlunun Mirvarid Dilbazi haqqında yazmaq təklifini bir fürsət kimi dəyərləndirdim.

Mirvarid Dilbazi bir qadın şairə olaraq Məshəti Gəncəvidən, Heyran xanımdan, Xan qızı Natəvandan başlanan qadın poeziya ənənələrini uğurla, ustalıqla davam etdirərək öz lirik və ictimai məzmun kəsb edən əsərləri ilə poqeziya xəzinəmizə qiymətli töhfələr vermiş, onu zənginləşdirməyə müvəffq olmuşdur. Tanrının ona bəxş eydiyi ömür payında Mirvarid xanım Dilbazi çox ağrı-acılara sinə gərmiş, XX əsr tariximizin müxtəlif ictimai-siyası quruluşlar, ideoloji basqılar, taleyüklü tarixi hadisələrlə müşayət olunan bütöv bir dövrü Mirvarid xanımın taleyindən keçmiş və bütün bu hadisələriin təsiri altında yaşayan şairə özünün poeziyasını yaratmışdır. Şairə 2004-cü ildə nəşr olunan "Seçilmiş əsərləri"nə yazdığı iki səhfəlik ön sözündə 89 illik ömür və yaradıcılıq yolunun keşməkeşlərini belə təqdim edir: "Mən ölümlər və sürgünlər, qadağanlar, milli qırğınlar və soyğunlar, milli təhqirlər, milli əsarət görmüş nəslin nümayəndəsiyəm. Uşaqlığım zəhərə batırılmış badam içinə oxşayır. Gəncliyim, ahıllığım, qocalığım keşməkeşli illərdən keçib". Bəli Mirvarid Dilbaziyə öna verilmiş ömür payında çox hadisələrə şahidlik etmək qisməti nəsib oldu. Bu şahidlik ona həm sevinci, həm də kədəri yaşamağa məhkum edib. Və bu sevinc və kədəri o öz iç dünyasının süzgəcindən keçirərək, əsərlərində əbədiləşdirib.

Mirvarid xanım hələ körpə ikən Xalq Cumhuriyyətinin qurulmasının sevincini dərk etməmiş onun süqutunun kədərini yaşamağa məhkum edilmiş, yeniyetmə və gənc yaşalarında isə represiy məşəqqətlərini, az sonra II Dünya Müharibəsinin acılarını yaşamışdı. Sonrakı illərdə Sovet idelogiyası basqısı altında yaşayan və yazıb-yaradan Mirvarid xanım əsrin sonuna yaxın Sovet dövlətinin, Kommunist Partiyasının süqutu ilə yanaşı həm də bədnam qonşularımız tərəfindən, öz havadarlarının dəstəyi və köməyi ilə torpaqlarımızın işğalı və Qarabağ dərdlərimizin "çiçəklənməsi" dövrünü yaşadı. Bütün bunlar qəlbi Vətən, xalq, millət eşqi ilə döyünən Mirvarid xanımın əsərlərində qabarıq və parlaq şəkildə öz əksini tapmışdır. Düşünürəm ki, Mirvarid xanımın keşməkeşlərlə dolu həyatı və elə həytı ilə təxminən əkiz olan yaradıcılığı ilə tanış olmaq üçün, onun bir neçə əsərinə- "Bir ömür yaşadım", "Bəxtimlə söhbət", "Avey dağla söhbət", "Həyatımdan səhfələr" şeir və poemalarına nəzər yetirmək kifayət edərdi.

... Qədim Yunan sözü olub dilimizə "söhbət" kimi tərcümə olunan dialoq insan cəmiyyəti yaranandan insanlar arası ünsiyyət forması kimi meydana gəlmiş, sonralar insan münasibətlərinin inkişafının müxtəlif məqamlarında daha çox fəlsəfi anlam kimi məna kəsb etmişdir.

Şəxsiyyətin mahiyyəti yalnız həmsöhbət olanda açılır. İnsan yalnız söhbət zamanı dioloji münasibətdə olduğu insanın kimliyini və özünü dərk edə bilir.Təsadüfi deyil ki, dahi Sokratın "Danış səni tanıyım" kəlamı sanki bu gün deyilib. "Söhbət" bir kateqoriya olaraq ta qədim zamanlardan bu günümüzədək ədəbiyyatda da bir vasitə kimi geniş istifadə edilmişdir. Təbii ki, dram əsərlərinin əsasını dəşkil edən söhbət, nəsrdə də təhkiyyənin əsas formalarından biri kimi istifadə edilir. Nizami Gəncəvi, Məhəmmd Füzuli, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Səməd Vurğun, İlyas Əfəndiyev və bir çox başqa ədiblərimiz əsərlərində söhbətin parlaq nümunələrini yaratmışlar. Dram və nəsr əsərlərindən fərqli olaraq lirik və epik janrlarda "söhbət" müəllifin, qəhrəmanın və əsərin məzmun və mahiyyətini açmaq baxımından bir vasitə kimi daha az rast gəlinir.

Maraqlıdır. Mirvarid Dilbazi də yaradıcılığında "söhbət" kateqoriyasından ustalıqla istifadə etmiş, əsərlərinin bir qismini Nizami Gəncəvi (Bayquşların söhbəti), Məhəmməd Füzuli kimi (Meyvələrin söhbəti) və s. söhbət formasında qələmə almışdır. Bu kontekstdə onun"Bəxtimlə söhbət" "Avey dağla söhbət" şeir və poeması səciyyəvi xarakter daşıyır. Bu poeziya nümunələrində Mirvarid xanımın özünüdərki, yaşantıları, tariximizdə baş verən hadisələrin təfsilatı, ətrafda baş verən hadisələrə münasibəti, onun bir vətəndaş, bir şəxsiyyət, bir şair kmi xarakteri daha aydın çəkildə oxucuya çatır. "Bəxtimlə söhbətdən kiçik bir nümunə:

*Oturmuşdum bir gün bəxtdən gileyli,*
*Gözümdə, könlümdə şikayət meyli.*
*Birdən dilə gəlib söylədi baxtım:*
*-Başına şeirdən incilər taxdım.*
*...Xətrin əziz oıldu sevdin, sevildin,*
*Analıq hissinin zövqünü bildin.*
*Günəş işığıyla qarışdı qanın,*
*İnsana, torpağa bağlandı canın*
*Oldun Şair qızı Azərbaycanın .*

Bu şeir nümunəsində Mirvarid Dilbazi öz bəxti, taleyi ilə söhbətində həyatın bütün sevincini dadmış bir xanımın, ananın, şairənin xoşbəxlik məqamları öz əksini tapırsa,"Avey dağla söhbət" başqa bir ovqatın məhsuludur.

Mirvarid xanımın həyatı ilə tanış olan oxucularımız bilirlər ki, O, Qazax rayonunun Xanlıqlar (keçmiş Musaköy) kəndində dünyaya göz açmış, erkən yaşlarında atası Paşa bəyi itirən Mirvarid xanım anası Cəvahir xanım və bacısı Yaqutla birlikdə Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olan, Avey dağının ətəyində yerləşən, Daşsalahlı kəndinə köçmüş və bir neçə il burada ana babası Vəlağanın himayəsində yaşamışlar. Şairənin erkən uşaqlıq çağı Daşsalahlı və Aşırlı kəndlərində, Avey dağının yamaclarında, Damcılı bulağının ətrafında keçmişdir. Kim bili, bəlkə də bir zamanlar Mirvarid xanım Aveydən cənub -qərb istiqamətinə baxanda, dünyaya bir pəncərə kimi açılan, əsrarəngiz bir mənzərə, füsunkar Göyəzən dağını görəndə, Babakər dağından əsən sərin külək Avey dağını aşaraq onun saçlarını oxşayanda ilk misralar qəlbində o zaman yaranıbmış. Bəlkə də Damcılı bulağın qayalardan süzülərək damcı-damcı golmçəyə tökülən suların yaratdığı ritmlər Mirvarid xanımın qəlb yaddaşına köçərək, sonradan kağız üzərində heca-heca misraya cevrilib.

*Avey dağım, mən zirvəndə itəydim,*
*Bir gül olub, daş sinəndı bitəydim,*
*Mən ney olub o dağlarda ötəydim,*
*Danışaydın nələr keçib başından*
*Gah su axıb, gah qan axıb döşündən*

Mirvarid xanımın tərcümeyi-halından aydın görünür ki, O, 9 yşında olarkən anası və baçısı ilə birlikdə Bakı şəhərinə köçmüşlər və Quba şəhərindəki müəllimlik fəaliyyətin nəzərə almasaq ömrünün sonunadək Bakıda yaşamışlar. O da məlumdur ki, Mirvarid xanım "Avey dağla söhbət" poeması yazanda artıq ixtiyar yaşında idi:

*İndi budur, sahilində Xəzərin,*
*Bir qoca var, fikrə gedib çox dərin...*
*Həsrətində o ayların, illərin,*
*Ana deyən bir uşağa dönübdür,*
*Boy kiçilib, lap yumağa dönübdür.*

Maraqlısı da odur ki, cəmi 9 il Qazaxda- Xanlıqlar və Daşsalahlıda yaşamış bu 9 yaşlı qızın yaddaşında nə qədr xatirələr toplaşıbmış. Poemanı oxuduqca bu xatirələr yumaq kimi nizamla çözələnir:

*Ah o günlər, ah o aylar, o illər,*
*O nəğməli, o həvəsli könüllər,*
*O yağışlar, o selablar, o sellər,*
*İndi onlar xəyalıma qonaqdır,*
*Ğözüm yaşlı, könlüm vallah uşaqdır.*

Poemanı oxuduqca Böyük şairimiz Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" peması yada düşür.Təbii ki, mən bu yazıda anadilli ədəbiyyatımızda müstəsna xidmətləri olmuş bu iki şairin yaratdığı poemaları müqayisələndirmək fikrindən tamamilə uzağam. Bunula belə, Mirvarid xanımın "Avey dağla söhbət" poemasını oxuduqca Şəhriyarın "Heydərbabaya salam" poeması ilə paralellər gətirməli olursan. Belə ki, hər iki poema dastan formasında yazılmışdır, hər iki əsər iki hissədən ibarət olmaqla yüksəklik, ucalıq rəmzi olan dağa müraciətən, sənin danışdığın şirin Azərbaycan dilində, bütün gözəllikləri, ləhcə və şivələri ilə qələmə alınmışdır. Şəhriyarın Heydərbabasında olduğu kimi Avey dağla söhbətdə də şairin tanıdığı, ünsiyyətdə olduğu insanların adları, coğrafi adlar bu yerlərin insanlarının ifadə etdiyi formada olduğu kimi verilmişdir. Etnik, folklor yaddaşı poemada aydın şəkildə ifadə olunmuş, xalqın adət-ənənəsi, mətbəxi poetik formada, rəngarəng çalarlarla öz əksini tapmışdır.

*Yada düşür Karqayanın meşəsi,*
*O meşənin ən nəğməli guşəsi,*
*Çobanların həzin, kövrək ney səsi,*
*Dönüb xəzəl yarpağına hey əsir,*
*Yazı, qışı könlüm ora tələsir.*

Poemada şifahi xalq ədəbiyyatının nümunələri canlı boyalarla təqdim edilir, əsrin dili yüyrək, axıcı və qulağa yatımlıdır, sanki dastan oxuyursan. Və təsadüfi deyil ki, şairə ozü də poemanı dastan adlandırır:

*Avey dağım, çox sözüm var sorası,*
*Ürəyimin yanmamışdır harası*
*Orda göynər neçə dərdin yarası,*
*Yox dərmanım, öldürüblər loğmanı,*
*Qanla yazdım bu yazdığım DASTANI.*

Poemada təkcə şairənini şəxsi həyatı, uşaqlıq çağı,yaşantıları, adət-ənənələrimiz, mərasimlərimiz, mətbəximiz deyil, keşməkeşlərlə dolu tariximiz, xalqımızın başına gələn və gətirilən bəlalar, faciələr də öz əksini tapıb.Əsərdə bu faciələr xronoloji ardıcıllıqla, kövrək hiss və həyacanla təqdim edilir.

*Üzərindən neçə karvan keçibdir,*
*Od, qılıncla neçə dövran keçibdir,*
*Qara Məlik hansı yoldan keçibdir,*
*Hayla gəlib, kimlər vayla qayıtdı,*
*Öz tökdüyü qan selində kim batdı.*

Təbii ki, kiçik bir yazıda bu dastanın bütün məziiyətlərini açmaq və oxucuya təqdim etmək tək bir müəllifin işi deyil.

Hesab edirəm ki, Mirvarid Xanım Dilbazinin "Avey dağla söhbət" poemasının geniş təhlilə və elmi-ədəbi araşdırmaya ehtiyacı var və düşünürəm ki, Mirvarid Dilbazi Poeziya Məclisi də bu işə öz töhfəsini verəcəkdir.

İthaf şeirləri Mirvarid xanımın yaradıcılığında mühüm yer tutur. Bu şeirlərin ünvanı rəngarəng və çox çalarlıdır. Bu şeirlərin arasında poeziya nəhənglərimiz Nizamiyə, Füzuliyə həsr olunmuş şeirlər də var, Hüseyn Cavidə, Səmd Vurğuna, Mikayıl Müşfiqə ünvanlanmış şeirlər də. Ümumilli liderimiz Heydər Əliyevə həsr olunmuş şeirlər də var, Məmməd Əmin Rəsulzadəyə ithaf olunan şeirlər də, həyat müəllimi-anasına həsr etdiyi şeirlər də var, nəvəsi laləyə həsr etdiyi şeirlər də.

Ömrünün və yaradıcılığının müxtəlif vaxtlarında və müxtəlif ovqatlarda yazılmış bu şeirlər son dərəcə səmimidir. Bu şeirlərin coğrafiyası və ünvanı həm zaman, həm də yanaşma baxımından rəngarəngdir. Şeirlərdə müəllifin qəhrəmanına münasibəti ilə yanaşı, həm də onun xarakteri, yaşadığı və ondan sonrakı dövrdə mövqeyi, cəmiyyətə təsir etmə gücü, xalqın taleyində və ədəbi proseslərdə rolu poetik ifadələrlə öz əksini tapıb. Mirvarid xanım Nizami Gəncəviyə "Sənət dünyasının ey şahlar şahı! Nizami, ey fikrin böyük Allahı" deyə müraiət edərək onu ədəbi fikrin Allahına bənzədirsə, Füzuliyə həsr etdiyi şeirində:

*Ey Füzuli eşq dolu bir badəyəm,*
*Mən sənin söz mülkünə səccadəyəm.*
*Ey məhəbbət mülkünün bir danəsi,*
*Sultanı, şahı, dürrü, dürdanəsi.*

deyərək, Füzulini məhəbbət dünyasının, həm də söz mülkünün sultanına, şahına bənzədir.

Hər kəsə məlimdur ki, Azərbaycan dövlətçilik tarixinin qırx ildən çox bir dövrü Tanrının və taleyin Azərbaycan xalqına bəxş etdiy Böyük şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan tarixinin bu dövrünün elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyevin izi olmasın. Qədirbilən xalqımız, onun yaradıcı oğul və qızları Ulu öndərimizin dövlət və xalq qarşısındakı misilsiz xidmətlərini unutmamış, özlərinin ən möhtəşəm əsərlərini bu böyük şəxsiyyətə həsr etmişlər. Bu mənada Mirvarid xanım da istisna təşkil etmir. Tale elə gətirib ki, Ümumilli liderimizin Azərbaycanda hakimiyyətdə olduğu hər iki dövr Mirvarid xanımın yaşının və yaradıcılığının püxtələşmiş və müdrikləşmiş vaxtına düşmüş və onun gözü qarşısında keçmişdir. Həm də bu illərdə Mirvarid xanım müxtəlif tədbirlərdə dəfələrlə Ümummilli liderlə yaxın təmasda olmuşdur. Təbii ki, bu müşahidələr, görüşlər təsirsiz ötüşməyə və şairənin yaradıcılığında öz əksini tapmaya bilməzdi. Mirvarid xanım Ümummilli liderimiz Heydər Əliyevə həsr etdiyi şeirlərini "Vətən oğulsuz olmasın" başlığı altında təqdim etmişdir. Bu silsilədə yazılan şeirləri Mirvarid xanım bu ifadə ilə təqdim edir:"Bu silsilədə gedən şeirlə dünya şöhrətli Azərbaycan oğluna-Heydər Əliyevə duyduğum iftixar hissindən yaranmışdır".

Yazılarımın birində qeyd etmişdim ki, şairlərin şeirləri dünyaya oğlan, şairələrin şeirləri isə qız timsalında gəlir. Mirvarid Dilbazi yaradıcılığı ilə yaxından tanış olduqca bu qənaətimdə yanılmadığıma bir daha əmin oldum.

Diqqət yetirin Mirvarid xanımın şeirlərinin mözularına: "Qadınlara hüriyyət", "Qadın", "Əsil qadın","Məshəti Gəncəvi", "Zəhra" "Əlcəzairli qız" ,"Partizan Aliyə" və b. Qadın onun yaradıcılığında baş qəhrəmandır. Təsadüfi deyil ki, şeirlərin birində o öz məhəbbətinə, sədaqətinə, vəfa və etibarına görə özünü Leylidən də, Şirindən də, Zöhrədən də yüksəkdə tutur:

*Dünya eşqi ilə elə zənginəm*
*Ləli-cəvahirlə doludur sinəm,*
*Leyli də, Şirin də, Zöhrə də mənəm,*
*Sanmayın bu torpaq tez udar məni.*

Bu mövzunun isə şah qəhrəmanı Anadır. Onun yaradıcılığında Ana əsas mövzudur. Uzun illər anası ilə birgə yaşayan, onu böyük məhəbbətlə sevən Mirvarid xanıma həm də tale analıq hissini yaşamaq xoşbəxtliyini vermişdi. O, ana olmağı Tanrının ona bəxş etdiyi sonsiz bir səadət, xoşbəxtlik bilir. Uzun illər ana və övlad sevgisini birgə yaşamaq Mirvarid xanmın ən böyüik xoşbəxtliyi idi. Onun, bu mövzuya həsr etdiyi şeirləri saymaqla qurtarmaz. " Ana", "Mən anayam","Anam Yadəma düşdü", "Ana yadigarı", Anam yuxuma gəlmir", " Ana məktubu", "Anamın duası", "Ana deyən", "Anamıza ana deyən", "Həyat müəllimim" və s. Bu şeirlərin hamısı bir- birindən gözəl olmaqla təkcə Mirvarid xanımın anasına olan məhəbbətini əks etdirmir, bu poetik ifadələr ümumən bir övladın anaya olan məhəbbətinin ifadəsinə çevrilir və həm də bəşəriləşir:

*Sual:-Ana haqqı*
*Övlad üçün nə deməkdir?*
*Cavab:-Övlad haqqı*
*Analarən qarşısında diz çökməkdir.*

**Kiçik bir haşiyə:** Mirvarid xanımın anası Bakı şəhərində Yasamal qəbirstanlığında dəfn olunub.O da qızı Xatirə xanıma vəsiyyət edibmiş ki, dünyadan köçəndə onu anası Cəvahir xanımın yanında dəfn etsinlər. 2001-ci ildə Mirvarid xanım dünyasını dəyişəndə belə qərar qəbul olunur ki, onun Azərbaycan əədbiiyatı qarşısınd xidmətləri nəzərə alınaraq Birinci Fəxri Xiyabanda dəfn olunsun. Lakin Xatirə xanım bu qərara görə aidiyyatı şəxslərə təşəkkürünü bildirsə də Mirvarid xanımın vəsiyyətinə əməl edərək onu Köhnə Yasamal qəbirstanlığında, anasının yanında dəfn edirlər.

Mirvarid xanımın yaradıcılığında Qadınla yanaşı Kişi obrazı paralel olaraq qabarıq şəkildə təqdim edilir. Açığını deyim Kişi obrazının belə bir təqdimatına yanız Mirvarid xanımın yaradıcılığında rast gəlinir. Mirvarid xanım üçün ailə müqəddəsdir və ailədə kişinin yeri yüksəkdədir. Bu baxımdan onun "Qadının əri gərək "şeiri çox maraqlıdır:

*Qadının əri gərək,*
*Yanında nəri gərək.*
*Yüz kişinin içində,*
*Kişinin biri gərək.*
*Mirvarid el içində,*
*Kişinin yeri gərək.*

Hər kəsə məlumdur ki, Mirvarid xanım Azərbaycanın ən məşhur şəcərələrindən olan Dilbozlar nəslinə mənsubdur. Zamanında, elə indi də Azərbaycan xalqına Mustafa Ağa Arif, Kazım Ağa Salik, Əbdürəhim Ağa Dilbazi və digər çox saylı ziyalılar və görkəmli şəxsiyyətlər bəxş etmiş bu soykök mülkədar silkinə mənsıb idi. Ziyalılıq, xeyirxahlıq, zadəganlıq, kübarlıq, sambalılıq bu şəcərəni səciyyələndirən xüsusiyyətlər idi. Bu xüsusiyyətlərin sanki hamısı Mirvarid xanımda cəmlənmişdi. Onun xarakterində sadəlik, səmimiliklə yanaşı həm də bir ötkəmlik, zabitəlik və amiranəlik vardı. Bütün bunlarla bərabər Mivarid xanım təbiətlə qoşa yaranmışdı.Təbiətə bağlılıq, torpağa məhəbbət, elə-obaya, doğma yerlərə, insanlara sonsuz məhəbbət, ailə kultuna, ailə dəyərlərinə bağlılıq, zəriflik və incəlik Mirvarid xanımın səciyyəvi xüsusiyyətləri idi. Təbiət gözəlliklərinə sonsuz sevgisi tanrının səxavəti ilə şairəyə bu gözəlikləri elə təbiətin özü qədər əlvan boyalarla poetikləşmişdirməyə imkan vermişdi. Düşünürəm ki, Mirvarid xanımın bu gözəlliklərə həsr etdiyi "Bənöşələr üşüyəndə","Yasəmən fəsli", "Dağ çiçəyi", "Qar çiçəkləri", "Çiçəkdən çiçəyə" və b. şeirlərin adını çəkməklə bu münasibətin mahiyyətini izah etmiş olarıq. Təbiətin yaratdığı ən gözəl çiçəklərdən olan bənövşəyə sonsuz məhəbbət xəyalımızda Mirvarid xanımı bənöşə obrazında canlandırır.

**Mirvarid Dilbazi geniş yaradıcılıq diapazonuna, böyük yaradıcılıq imkanlarına və çoxşaxəli yaradıcılığa malik bir şairə kimi ədbiyyat xəzinəmizi öz əsərləri ilə zənginlşdirmişdir. Bu yazıda mən şairiənin yaradıcılığının çox kiçik bir hissəsi barədə qənaətlərimi oxucularla bölüşdüm. Bu fikirlər Mirvarid xanımın hər zaman coşub-daşan zəngin yaradıcılıq ümmanından bir damla olsa da onun gənc nəslə tanıdılmasına və təbliğinə xidmət edir. İllər, qərinələr keçəcək Mirvarid Xanım Dilbazinin əsərləri həmişəki kimi yenə də sevə- sevə oxunacaqdır.**



Aydın Bağırov

# Avropanın dəliqanlı igidi

## "Qarabağ" düşərgəsindən...

*Təyyarəmiz Budapeştdən Bakıya qalxmağa hazırlaşanda bələdçinin yerini iki dəqiqəliyə Gündüz Abbaszadə alır. Bir anlıq mənə elə gəlir ki, TV-nin qarşısında oturub əvvəlkitək onun - indiki klub funksionerinin oyunu emosional şərh etməyinə qulaq asacağam. Düzü, Gündüz danışığı ilə elə matçı şərh etmiş kimi olur da. Məlumat verir ki, "bu gün, yəni avqustun 9-da Qurban Qurbanovun "Qarabağ"a baş məşqçi təyin olunmasından düz 14 il ötür..."*

*Onda mən xatırlayıram ki, Ağdam komandasını qəbul edəndə Qurban Qurbanovun cəmi 36 yaşı vardı, bu gün 50-nin içindədir. 36 yaşında "Qarabağ"a gələndə başındakı olan o qara saç artıq 50 yaşda bir xeyli ağarıb, nəyisə mütaliə edəndə ara-sıra eynək taxdığını belə görürük. Və bu, həm də geridə qalan həmin o 14 illik əzab-əziyyətin nişanəsidir.*

*Amma hər keçən il özü yaşa dolduqca komandası ruhən, fiziki olaraq yenilənməyə, qocalıqdan gəncləşməyə doğru gedib. Gəncləşə-gəncləşə də Avropanın dəliqanlı bir igidinə çevrilib "Qarabağ".*

*Və bu dəliqanlı igidin qanında, ruhunda, oyununda biz Qurban Qurbanovun soyuqqanlılığını, vicdanını və ləyaqətini, "Qarabağ"ın bir klub kimi kübarlıq, nəzakət və mədəniyyətini, nəhayət, qalib Azərbaycanın qeyrətli övladlarının vətənpərvər və cəngavərliyini də görə bilirik. Bax, bu keyfiyyətləri səbəbindəndir ki, "Qarabağ" bir şirkət klubu statusundan ən ali mərtəbəyə - xalq sevgisini qazanmağa kimi yüksələ bilib.*

***

*Gündüz mini-çıxışını başa vurduqdan sonra yalnız "Qarabağ" klubunun üzvlərini və qonaqlarını daşıyan xüsusi reysdə gurultulu alqış sədaları gəlir. Salonu futbolçuların, ofis personalının bir ağızdan hayqırtı ilə səsləndirdiyi "Qarabağ", "Qarabağ" sədaları bürüyür. Məlum, komanda cəmi 2-3 saat əvvəl "Ferentsvaroş"u onun meydanında 3:1 hesabı ilə məğlub edib, Çempionlar Liqasının "pley-off"una vəsiqə qazanıb və 5 illik fasilədən sonra qrupun qapısını döyür.*

*Udan biz olmuşuq, uduzan macarlar və... ruslar. Rəqibin rusiyalı baş məşqçisi Stanislav Çerçesovun ta əvvəldən "Qarabağ"a yuxarıdan aşağı baxdığını, növbəti mərhələyə vəsiqəni təmin etmiş kimi hər dəfə özünü dartdığını hiss etməmək mümkün deyildi. Bunlar - yəni rusiyalı məşqçilər, futbol mütəxəssisləri, jurnalistləri elə bilirdilər "Qarabağ" kənd komandasıdır (ifadə Rusiya Futbol İttifaqının fəxri prezidenti Vyaşeslav Koloskova məxsusdur). Yəni ənənəvi yekəxanalıq, ədəbazlıq. İndi dilləri girib...*

*Bir həmkarım dünən mətbuat konfransında Qurban Qurbanova elə bunları da nəzərdə tutmaqla onun Stanislav Çerçesovu taktiki baxımdan üstələməsi ilə bağlı fikir səsləndirdi. O isə bir cümlə də olsa özündənrazılıq ifadə etmədi. Əksinə Çerçesov haqda bir məşqçi kimi yenə yüksək fikirlər dedi. Sabah eyni nəticə ilə özünün də üzləşə biləcəyini söylədi. Yəni yüksək insani mədəniyyəni, təvazökarlığını bir daha təsdiqlədi. Amma hamı da bilir ki, Qurban Qurbanov dünən Stanislav Çerçesovu udmaq nədi, onun taktikasını söküb zibil kimi məlum qutuya tulladı.*

*Qurban Qurbanov və komandası...*

*Şahruddin, Vadji, Almeyda, Bəhlul, Bədavi, Qara, meydana çıxan və çıxmayan hamı. Toral, Abbas, Musa, Elvin, Kadi... Kadiyə deyirəm, "supersən". Bizim dildə bircə sözü saqqız kimi uzadaraq və şirinliklə cavab verir ki, "Qardaaaaaaşşşş...."*

*Qardaş... Gözəl, isti sözdür. Kaş ki, dünən Budapeşt stadionunda hər biriniz ola idiniz. 30 min macarın arasındakı cəmi 100-150 nəfər azərbaycanlının 90 dəqiqə tribunalardan gələn "Azərbaycan", "Qarabağ" sədasını bir də orada eşidə idiz. Qələbə insanlarımızı necə birləşdirirmiş... Onda hamı olur elə Kadinin dediyi kimi, qardaş. Doğma qardaş...*

*Deməli, lazım olanda qardaşlaşa, birləşə bilirik. Bir olanda isə qalib oluruq.*

*Hərbdə. İdmanda. Şuşada, Qarabağda. Sürixdə, Budapeştdə. Növbədə daha haradı?*

*Çexiyada Plzen şəhəri?*

***Budapeşt-Bakı***

# Uzund(i)raz

**Bu kəlməni boy-buxunu, biçimi bədəninə, vücuduna uyğun gəlməyən, olmayan adam haqda deyirlər. Yəni kobud bədən quruluşuna, malik olan şəxs. Uzunluğu boyuna xələl gətirən adam. Belə adamın boyunun hündürlüyü, ucalığı heç də uca boy, qamət demək deyildir. Başqasına boyunun ucalığı şıqlıq, yaraşıq verirsə, beləsinə əksinə, xələl gətirir, görkəmini qüsurlu edir.**

Odur ki, ona boyuna uyğun ad seçir, hardasa kobud, qaba səslənən uzundiraz deyirik. Eyni zamanda belə adamın boy-buxununda bir uyarsızlıq, qüsur varsa da biz onun xarici görkəmi haqda təsəvvür yaratmaq məqsədi ilə işlətdiyimiz ifadəni səhv və yanlış deyirik. Necə yəni uzundiraz? Uzunun mənası bizim dildə aydındır. Yəni uca hündür, qamətli. Diraz isə fars sözüdür. Diraz da elə uzun deməkdir. Deməli biz uzunduraz deyəndə çox gülünc, mənasız sözə əl atırıq. Dilimizdə olan və mənası çox aydın anlanılan uzun sözünə zorla farsın dirazını yamaq etmək dilimizi korlayır, ona xələl gətirir. Axı yamaq gözəl ola bilməz. Düşünülməmiş yersiz söz birləşməsi ahəngini pozur, onun rəvanlığına xələl gətirir. Və eyni zamanda burada cilalıq da itir. Dilimizdə uzundiraz sözü kobud, qaba, yersiz və mənasız alınır. Sadəcə olaraq səslənmir. Dilə heç bir şey verməyərək, onu ağırlaşdırır. Yaxşı olardı ki, bu sözdən əl çəkib onun əsl mənasını bildirən, uzunboy sözünü işlədək. Uzunboy sözü aydındır və məntiqli səslənir. Yəni uzuna bənzər, uzun təki. Bu söz uzundirazdan dəfələrlə rəvan, axıcıdır. Uzunsov desək həm dilimiz təmiz olar, həm özümüzü də çətinliyə salmarıq. Gəlin bundan sonra uzunboy deyək, işlədək. Qoy bu söz öz həqiqi yerini tapsın, dəqiq və məntiqi mənasını bildirsin.

**Adil Misirli**

## *Ötən mövsümün ən yaxşı futbolçusu adına 3 namizəd*

**UEFA ötən mövsümün ən yaxşı futbolçusu adına namizədlərin adını açıqlayıb.**

Qol.az xəbər verir ki, siyahıda 3 oyunçu yer alıb. Bunlar "Real"ın qapıçısı Tibo Kurtua və hücumçusu Kərim Benzema, "Mançester Siti"nin yarımmüdafiəçisi Kevin de Brüynedir. Qeyd edək ki, qalibin adı avqustun 25-də Çempionlar Liqasının qrup mərhələsinin püşkatma mərasimində açıqlanacaq.

# Sən də sipərisən Azərbaycanın

## Poemadan bir parça



VALEH MİRZƏ

*(Mətin Azərbaycan polisinə, onun rəhbərliyinə dərin hörmət və ehtiramla)*

***

*İstər sazaq, çovğun olsun,*
*İstər boran, istərsə qar,*
*İnsanların keşiyində*
*Durur gecə-gündüz onlar.*
*Yerin altında, üstündə,*
*Kənddə, rayonda, şəhərdə,*
*Qoruyur bizi polisim*
*Qoruyur bizi hər yerdə.*
*Qırx dörd gün polislərim də*
*Döyüşlərə atıldılar,*
*Düşməndə xof yaratdılar*
*Xüsusitəyinatlılar.*
*Şuşamızda dalğalandı*
*Qalibiyyət bayrağımız,*
*Qaytarıldı sahibinə*
*Xan yurdu Qarabağımız.*
*Hər biri döndü qartala*
*Xeyirlə şər savaşında,*
*Şəhid oldu, qazi oldu*
*Polis Vətən savaşında.*
*Daxili Qoşunlarımız*
*Cəsurluq dərsi keçdilər,*
*Fəxri General önündə*
*Polis andını içdilər.*
*Vətən darda olsa, yenə*
*Polisimiz meydandadır,*
*Ordumuzun tərkibində*
*O, hər yerdə, hər yandadır.*

***

*O, Vətənin igid oğlu, mərd oğludur;*
*Öz xalqına sədaqətlə xidmət edir.*
*O, fövqəl bir bacarıqla öz işinə*
*Nazir kimi ustalıqla diqqət edir.*
*Bu sahənin işi ağır, yükü çoxdur,*
*Bu sahədə çaşmaq böyük təhlükədir.*

*Mətinlikdir bu sahədə rəhbər olmaq ,*
*Bu, odlar diyarı olan bir ölkədir.*
*Sevir hədsiz məhəbbətlə Vətəni o,*
*Vətən ona, o, Vətənə olub dayaq,*
*Güc, cəsarət hakim olan bir səngərdə*
*Hələ çox-çox illər sipər dayanacaq.*
*Əziz sanır bu gün hamı polisini,*
*Doğmadan da doğma olub indi bizə.*
*Dövlətim də, millətim də yaxşı bilir*
*Şər qüvvələr bata bilməz gücümüzə.*



*Bu güc vahid bir mənbədən qüvvət alır,*
*O mənbənin kökü -Ali Liderimiz.*
*Hakimiyyət hərisləri xar oldular,*
*Polisimlə vahid oldu səngərimiz.*
*Mərdlik dərsi keçir nazir polisinə,*
*Arxayınıq hər məqamda biz onlara .*
*Xalq etibar edir bu gün taleyini*
*Sabitliyin keşiyində duranlara.*

***

*Dolğun siyasət güc gəldi,*
*Çiçəkləndi vətənimiz,*
*İqtisadi dirçəlişə*
*Qovuşduq bu minvalla biz.*
*Təxribata uymadılar,*
*Sağlam ruhlu gənclərimiz,*
*Müxalifət düşərgəsi*
*Silindi, bitdi tərtəmiz.*
*Vətən daşı olmayanlar*
*Kəsək kimi parçalandı;*

*Polisimiz insanlığın*
*Keşiyində mərd dayandı.*
*Polislə xalqın birliyi,*
*Çatdırdı bizi xoş günə.*
*Bu gün də öz səngərində*
*Xidmət edir o,vətənə.*

***

*Yox gecəsi-gündüzü,*
*Qəsdimizə girən var.*

*Əzrayıl cildindədir,*
*Bütün narkobaronlar.*
*Sanki qənim kəsilib*
*Onlar bəşəriyyətə,*
*Bihuşluq tabletləri*
*Yayırlar cəmiyyətə..*
*İradəsi zəiflər*
*Düşürlər torlarına .*
*Ağır buxov vururlar*
*Onlar oz qollarına.*
*Alınıb nəzarətə*
*Artıq sərhəd kəndləri,*
*Polis tərksilah edib*
*Alverçi həpəndləri.*
*Çətindir, çox çətindir*
*Bu halla mübarizə,*
*Bilmirsən hansı yandan*
*Təhlükə çoxdur bizə.*
*Cənubdamı, Şimalda?-*
*Yoxsa Qərbdədir özək ?!*

*Bu, siyasi oyunsa*
*Özünü göstərəcək.*
*Hardan əssə bu külək,*
*Tozu geri dönəcək.*
*Çevik siyasətimiz*
*Bu "odu" söndürəcək.*
*Ayıq-sayıqdır polis,*
*Hər anın keşiyində,*
*Azərbaycanım adlı*
*Qalanın keşiyində.*

*Güvənib, güvənəcək*
*Xalqım polisimizə;*
*Yuxusuz gecələri*
*Həyat bəxş edir bizə!*

***

*Söz verdi Prezidentə o,*
*Verdi comərd sözü nazir*
*Candan əziz qoruyacaq,*
*Dedi hər an bizi nazir.*

*Hər evə, hər ailəyə*
*Doğmadan-doğma olub o,*
*Parlayıb sübh günəşitək,*
*Nurtək qəlblərə dolub o.*

*Güvənir polis özünə,*
*Zor gəlir şər qüvvələrə;*
*Dövlətim də, millətim də*
*Söykənir nər qüvvələrə.*

*Haqqın gücü dilindədir,,*
*Kəsərlidir sözü onun;*
*Səngərini tərk etməyən*
*Bir əsgərdir özü onun.*

*Mən də söz səngərimdəyəm,*
*Dəyişməzdir hədəfimiz;*
*Haqqa tapınıb girmişik*
*Haqsızlarla döyüşə biz.*

**Poemanı bütöv halda adalet.az saytında oxuya bilərsiniz.**

# Bir şəklin tarixçəsi: "Qarabağ"a baş məşqçilik etmiş MİLLİ QƏHRƏMAN

**Gündəm "Qarabağ"dı... Azərbaycanı Avropada tanıdan zəfər brendimiz... Dünən Macarıstanın paytaxtı Budapeştdə möhtəşəm qələbəsi ilə yerli "Ferentsvaroş"u Çempionlar Liqası oyunlarından kənarlaşdıran "Qarabağ" haqqında danışılmağa, yazılmağa, sevilməyə layiq olduğunu bir daha təsdiqlədi...**

"Qarabağ" Polşa, İsveçrə, Macarıstan çempionları üzərində qazandığı ardıcıl qələbələrlə hətta futbolla maraqlanmayan azərbaycanlıları belə öz təsir dairəsinə sala bilib... İndiyə kimi futbolumuz üçün bu qədər möhtəşəm hədəflərə nail olunmamışdı. Bunu "Qarabağ" etdi...

Modern.az saytının "Bir şəklin tarixçəsi" rubrikası bu dəfə "Qarabağ" klubuna həsr olunub.

Bu şəkil "Qarabağ"ın keşməkeşli tarixindən bir səhifədir. O səhifə ki, orada Azərbaycanın qeyrətli oğlu, cəsur döyüşçü, əfsanəvi komandir, şəhid Milli Qəhrəman Allahverdi Bağırov da təsvir olunub.

Bəli, "Qarabağ" futbol klubunun bugünkü qələbələrində onun də zəhməti var. Allahverdi Bağırov bu klubu yaşadan, onu irəliyə aparan şəxslərdən biri olub.

Allahverdi Bağırov vaxtilə əvvəlcə "Qarabağ"ın şərəfini qoruyan futbolçusu, sonra da klubun baş məşqçisi olub.

1970-ci ildə "Qızıl sünbül" kubokunun "Cəbrayıl" komandası ilə keçirlən final oyununda Ağdam klubunun kapitanı məhz o idi - 5 nömrəli futbolçu Allahverdi Bağırov.

O, 1976-cı ildə klubun baş məşqçisi təyin olunmuş və həmin ildə keçirilmiş Ümumittifaq birinciliyində Azərbaycanın dördüncü yer tutmasında böyük rol oynamışdı.

1991-ci ildə "Qarabağ" və "Neftçi" veteranlarının 1:1 hesabı ilə başa çatan qarşılaşmasında Ağdam klubunun qolunu Allahverdi Bağırov vurmuşdu.

Şəkildə Allahverdi Bağırov baş məşqçi kimi sağda dayanıb.

O, Qarabağ bölgəsində müharibə başlayanda bütün digər işləri - o cümlədən futbolu - kənara qoyub silaha sarıldı. Əvvəlcə Ağdamda özünümüdafiə batalyonunun yaradılmasında iştirak etdi, sonra ona komandirlik etdi, Xocalıda əsir və girov götürülmüş yüzlərlə soydaşımızı ermənilərin əlindən qurtardı... Xocalı soyqırımı zamanı həlak olanların meyitlərinin döyüş meydanından çıxarılmasında xüsusi rol oynadı...

Ağdam rayonu ərazisində gedən bütün döyüşlərdə mərdliklə vuruşdu və həmişə də öndə getməklə qorxmazlığı ilə silahdaşlarını ruhlandırdı.



1992-ci ilin 12 iyununda minaya düşərək həlak olan Allahverdi Bağırov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.

"Qarabağı"ın tarixindən: Klubun yaranması 1950-ci illərin əvvəllərinə təsadüf edir. 1951-ci ildə Ağdam şəhər stadionunun tikintisi başa çatdıqdan sonra klub peşəkar bir idman təşkilatı kimi formalaşdırılıb. Yarandığı gündən sonra bir müddət "Məhsul" adı ilə çıxış edən komanda ilk dəfə 1966-cı ildə Azərbaycan çempionatında iştirak edib. Həmin il çempionatı 4-cü yerdə başa vurub.

Klub 1968-ci ildəki ölkə birinciliyində 2-ci yeri tutub. Lakin 1968-ci ildən sonra baxımsızlıq üzündən komanda uzun müddət ölkə çempionatlarında təmsil olunmayıb.

1977-ci ildə komanda "Şəfəq" adı ilə yenidən bərpa edilib. 1982-ci ildən 1987-ci ilə qədər isə klub "Kooperator" adı ilə yarışlara qatılıb. "Qarabağ" ilk dəfə Azərbaycan çempionu adına 1988-ci ildə layiq görülüb. Qeyd edək ki, bu çempionluq hələ Azərbaycan keçmiş SSRİ-nin tərkibində olarkən qazanılmışdı. Həmin çempionluqdan sonra "Qarabağ" SSRİ çempionatının 2-ci dəstəsinə vəsiqə qazandı. 1989-cu ildə "Qarabağ" SSRİ çempionatının 9-cu zonasında yarışıb. 1991-ci ildə SSRİ dağılandan sonra Azərbaycanın müstəqil futbol çempionatı təşkil olunub. "Qarabağ" Azərbaycanın yeganə klublarından biridir ki, indiyə kimi keçirilən bütün mövsümlərdə iştirak edib.

Müstəqillik illərində "Qarabağ"ın ağır günləri də az olmayıb. 1993-cü ildə Ağdam şəhəri ermənilər tərəfindən işğal olunduqdan sonra komanda "qaçqın klub" kimi fəaliyyət göstərib. O zaman klub həm də maddi sıxıntılardan ciddi şəkildə əziyyət çəkirdi.

Məhz bu səbəbdən 1998-2001-ci illərdə ölkə çempionatının güclülər dəstəsində zəif nəticə göstərdi. Üstəlik maddi vəziyyət klubun aparıcı futbolçularının da "Qarabağ"ı tərk etməsinə gətirib çıxarmışdı. Bütün bu problemlər 2001-ci ildə Azərbaycanda fəaliyyət göstərən ən böyük holdinqlərdən biri "Azərsun" şirkətinin komandanı sponsorluğa götürməsindən sonra həll olundu.

Həmin dövrdən klub "Qarabağ-Azərsun" adlandırıldı. 2001-ci ildə "Qarabağ-Azərsun" ölkə çempionatında 9-cu yeri tutdu.

2003-cü ildə "Qarabağ-Azərsun"un rəhbərliyinə gələn Tahir Gözəl ("Azərsun" şirkətinin prezidenti Abdolbari Gözəlin oğlu-red.) klubun uğur qazanması üçün bütün imkanları səfərbər etdi. Nəticədə 2002-2003-cü illər mövsümündə klub Azərbaycan çempionatının mükafatçıları sırasında yer aldı - 3-cü yeri tutdu.

2004-cü ildə İsveçdə yaşayan həmyerlimiz, təcrübəli məşqçi İqor Ponomaryov baş məşqçi postuna gətirildi. Qısa zamanda ölkənin ən aparıcı futbolçuları heyətə cəlb olundu.

Məhz Tahir Gözəlin təşəbbüsü ilə 2004-cü ildə "azərsun" sözü klubun adından çıxarıldı və "Qarabağ" tarixi adı geri qaytarıldı.

2006-cı ildə yeni baş məşqçi Böyükağa Ağayev komandanı ölkə kubokunun sahibi etdi.

Nəhayət 2008-ci ilin avqustunda klub rəhbərliyi baş məşqi postuna Qurban Qurbanovu gətirdi. Və bu addım "Qarabağ"ın tarixində yeni səhifə açdı. Qurban Qurbanov elə ilk mövsümündə Azərbaycan kubokunun qalibi oldu. Sonrakı iki ildə komanda ölkə çempionatında bürünc medal qazandı. 2013/14-cü illər mövsümündə isə "Qarabağ" ölkə çempionu oldu.

Bu çempionluqdan başlayaraq 2014/15, 2015/16, 2016/2017 və 2017/18-ci illər mövsümündə də "Qarabağ" çempionluq titulunu qorudu. Bundan başqa 2015, 2016 və 2017-ci illərdə çempionluqla yanaşı, Azərbaycan kuboku da qazanıldı.

**"Qarabağ" Qurban Qurbanovun baş məşqçiliyi dövründə 8 dəfə UEFA-nın klub turnirlərinin qrup mərhələlərinə vəsiqə qazanmaqla Azərbaycan futbolunda tarix yazıb. "Qarabağ" 6 dəfə Avropa Liqası, 1 dəfə Çempionlar Liqası, 1 dəfə isə Konfrans Liqasının qrup mərhələsində iştirak edib. Komanda 2021/22-ci illər mövsümündə Konfrans Liqasının qrup mərhələsini keçməklə Azərbaycan futbolu tarixində növbəti ilkə imza atıb.**

**Ə.Qafarlı**

# AFFA mövsümün ilk cəzalarını açıqladı

**AFFA İntizam Komitəsi 2022/23 mövsümünün ilk iclasını keçirib.**



Qol.az xəbər verir ki, Azərbaycan Premyer Liqasının 1-ci turunda keçirilən matçlardakı qayda pozuntuları barədə qərarlar verilib. "Zirə" ilə oyunda meydana kənar əşyalar atıldığı üçün "Kəpəz" 1600 manat cərimələnib. Rəqibi aşkar qol imkanından məhrum etdiyinə görə qırmızı vərəqə alan "Zirə"nin müdafiəçisi Dmitrios Çantakias 1 oyunluq cəzalandırılıb, klubu 200 manat cərimələnib.

"Qarabağ" - "Səbail" oyununda "Qarabağ" klubunun 4 futbolçusu sarı vərəqə ilə cəzalandırıldığı üçün klub 800 manat cərimə olunub.

"Turan Tovuz" - "Qəbələ" oyununun 32-ci dəqiqəsində "Turan Tovuz" klubunun 30 nömrəli futbolçusu Piruzi Marakvelidze kobud oyuna görə birbaşa qırmızı vərəqə ilə meydandan kənarlaşdırıldığı üçün 2 oyun cəzalanıb, klub 1600 manat cərimə olunub.

Orxan ASLAN

# Adına qurban olduğum - "Qarabağ"



*"Qarabağ" klubu istər evdə, istərsə də səfərdə oynayanda həmişə zəfər, qələbə gözləyə-gözləyə izləmişəm. Amma 2020-cı ildən bu yana (Vətən müharibəsindəki qələbəmizdən sonra - red.) "Qarabağ"ın qazandığı zəfərlər bizə ikiqat sevinc bəxş edir. Çünki "Qarabağ" bizim üçün müqəddəsdir. Bilirsiniz niyə? Qələbəni də, sevinci də, həyəcanı da, sevgini də, torpağı da, Vətəni də Qarabağda görürük.*

*Dünənki matçdan sonra "Qarabağ"ın ev oyunları ilə yanaşı səfər oyunlarındakı çıxışını tək meydandakı azarkeşlər deyil, bütün ölkə izləyir desəm yanılmaram. Çünki oyundakı hər hücumda, hər vurulan qoldan sonra bu sözləri eşitmək bizim üçün artıq alışqanlığa çevrilib. "Meydanda da, cəbhədə də qələbə qazanan Qarabağ", "Zəfər sənin adındır - Qarabağ", "Adına qurban olduğum - Qarabağ" və.s*

*Ard-arda qazanılan qələbələr və bu qələbələrin məhz ölkə çempionları üzərində qazanılması zirvəyə qalxan yolun bir addımlığında olduğumuzu bir daha sübut edir. Dünənki qələbəmizdən sonra (Macarıstanın "Ferentsvaroş" klubunun 3-1 hesabı ilə məğul etməsi) doğma "Qarabağ"ımızın Çempionlar Liqasının finalına getdiyi yolda əzmkar olduğunu göstərir. Macarıstan çempionu "Ferentsvaroş" üzərindəki qələbə "Qarabağ"ı pley-off mərhələsinə apardı. Artıq növbəti mərhələdəki rəqibimiz də məlumdur. "Qarabağ" Çexiyanın "Viktoriya" (Plzen) komandası ilə qarşılaşacaq. Adına da, özünə də qurban olduğumuz "Qarabağ"ımızın qələbəsinə inancımız dönməzdir.*

*Dünənki qələbədən sonra "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanovun oyun bitdikdən sonra oyunçuları təbrik edib. Videonu sona qədər izlədim, bu cümləsi isə beynimdə ilişib qaldı: "Biz zəif oynaya bilərik, inamlı olmaya bilərik, lakin biz meydandan döyüşsüz çıxa bilmərik". Bəli heç çıxmadıq da, sözün hər iki mənasında meydanda da, meydançada da "sökə-sökə" qələbə əldə etdik. Çünki əzm, iradə, bacarıq və peşəkarlıq bu qələbənin təməlində dayanmışdı.*

*Bu qələbə haqda çox danışmaq olar (Layiqdirlər, danışdıqca doyulmayacaq qədər qazanılan qəbələdir -red.) Amma qısa edib, bu cümləni qeyd edirəm. Qarabağ qazadığı hər qələbədən sonra Qarabağ Azərbaycandır! ifadəsi bütün dünyaya yayılır. Adına da özünə də qurban - Qarabağ!*

## *"Ferentsvaroş"un futbolçuları da etiraf edir ki...*

**Elnur Məmmədlidən şərh**



Bakıdakı ilk oyunda 1:1 hesabı ilə heç-heçə edən Ağdam təmsilçisi cavab görüşündə "Ferentsvaroş"a 3:1 hesabı ilə qalib gələrək pley-offa yüksəlib. Qurban Qurbanovun baş məşqçisi olduğu komanda pley-offda "Viktoriya" (Çexiya) ilə qarşılaşacaq. "Qarabağ" ilk görüşünü evdə keçirəcək.

"Qurban Qurbanov taktiki baxımdan həmkarlarını üstələdi".

"CBC sport"un aparıcısı, futbol şərhçisi Elnur Məmmədli "Qarabağ"ın dünənki oyunu barədə fikirlərini Adalet.az-la bölüşüb.

"Qarabağ" səfər oyununda rəqibdən bir baş üstün oynadı. "Ferentsvaroş" futbolçuları Bakıdakı matçdan sonra daha çox hava şəraitindən şikayətlənirdilər ki, çətin idi oynamaq. Amma belə görünür ki, sərin havada Ağdam klubu daha yaxşı təsir bağışladı. Bu oyunun ətrafında ajiotaj böyük idi. Çerçesovun vaxtilə Rusiya yığmasını çalışdırması qonşu ölkənin məbuatının da bu görüşə böyük maraq göstərməsinə gətirib çıxarmışdı. Üstəlik Rusiya klubları avrokuboklardan kənarlaşdırıldığından onlar yalnız bu cür şeylərlə başlarını qatırlar, təsəlli tapırlar.

Kadinin heyətə qayıtması "Qarabağ"ın oyununu xeyli gücləndirmişdi. Amma məncə, Qurban Qurbanov taktiki baxımdan həmkarlarını üstələdi. Onlar "Qarabağ"ın əks-hücumlarının bu dərəcədə təhlükəli olacağını gözləmirdilər. 2-ci qoldan sonra isə "Ferentsvaroş" artıq çökdü, futbolçular şokda idilər. Macarıstan mətbuatına diqqət yetridim, hər kəs qeyd edir ki, güclü olan klub növbəti mərhələyə yüksəldi. Bunu "Ferentsvaroş"un futbolçuları da etiraf edir ki, "Qarabağ" daha yaxşı idi meydanda. Bir sözlə, Azərbaycan çempionu layiq olduğu qələbəni parlaq şəkildə əldə etdi".

**Eminquey**

## *DÇ-2022-nin açılışının vaxtı dəyişdirildi*




**DÇ-2022-nin açılış oyununun vaxtı dəyişdirilib. Qol.az xəbər verir ki, turnirin açılışı da noyabrın 21-dən noyabrın 20-nə keçirilib.**

Açılış matçında Qətər yığması 20 noyabr bazar günü saat 19:00-da Ekvadorla oynayacaq. Daha əvvəl isə bu görüşün noyabrın 21-də keçirilməsi nəzərdə tutulmuşdu.

"Bu qərar rəqabətin və nəticələrin qiymətləndirilməsindən, əsas maraqlı tərəflər və ev sahibi ölkə ilə məsləhətləşmələrdən və razılıqdan sonra verilib" - deyə FİFA-nın açıqlamasında bildirilib.

Qeyd edək ki, 2022-ci il dünya çempionatı noyabrın 20-dən dekabrın 18-dək Qətərdə keçiriləcək.

Əsədullayev Akif Fəxrəddin oğlunun adına verilmiş, 28 fevral 2018-ci il tarixli, qeydiyyat nömrəsi İNİL-220/2018 olan Lisenziya əlavəsi itdiyi üçün etibarsız sayılır.

***

Rüstəmova Zemfira Rza qızının adına verilmiş Bakı şəhəri Nəsimi rayonu H.Ələsgərov küçəsi 11 saylı evin 20.73 yaşayış sahəsindən ibarət 1 (bir) otaqlı 46 saylı mənzilin qeydiyyat vəsiqəsi (kupça) itdiyi üçün etibarsız sayılır.

Faiq Qismətoğlu tanınmış jurnalist, "Azərbaycan" qəzetinin əməkdaşı

**Hüseyn Kərimovun**

vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və doğmalarına dərin hüznlə başsağlığı verir.


Təsisçi və baş məsləhətçi: **Aqil ABBAS**

Baş redaktor: **İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 91**
Çapa imzalanmışdır: 12.08.2022